# Azərbaycan-NATO

## 15 İllik Tərəfdaşlıq









# Azərbaycan-NATO

## 15 İllik Tərəfdaşlıq



**Minnətdarlıq**

Bu kitab Azərbaycan-NATO əməkdaşlığı üzrə istinad vasitəsi kimi Azərbaycan Respublikasının NATO yanında Nümayəndəliyi tərəfindən hazırlanmış və nəşr etdirilmişdir. Bununla belə, kitab hər bir məsələ və ya ifadə üzrə Azərbaycan və NATO-nun rəsmi mövqeyini əks etdirməyə bilər.

Azərbaycanın NATO yanında Nümayəndəliyi bu kitabın nəşr olunmasında öz vaxtlarını, səy və təcrübələrini sərf etmiş hər kəsə öz minnətdarlığını ifadə edir. Xüsusən də, Nümayəndəlik NATO-nun Beynəlxalq Katibliyinə və Beynəlxalq Hərbi Qərargahına, Azərbaycanın Müdafiə Nazirliyinə, Dövlət Sərhəd Xidmətinə və nəhayət, Xarici İşlər Nazirliyinə bu nəşrə göstərilən dəyərli dəstəyə görə minnətdarlıq bildirir.



# Mündəricat

**Başlıq** ..... 7
Ön söz ..... 9
Elmar Məmmədyarov
Azərbaycan Respublikasının xarici işlər naziri
Ön söz ..... 11
Yaap de Hoop Sxeffer
NATO-nun Baş Katibi
Ön söz ..... 12
General-polkovnik Səfər Əbiyev
Azərbaycan Respublikasının müdafiə naziri

**İldönümü Qeydləri** ..... 14
Sülh və təhlükəsizlik bizim missiyamızdır ..... 14
Jan Fransua Büro
NATO Baş Katibinin ictimai diplomatiya üzrə müavini
NATO-Azərbaycan tərəfdaşlığı on beşinci ildönümündə ..... 13
Robert Simmons
NATO Baş Katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi
NATO, 60 illik uğurun astanasında ..... 16
Qlobal maraqları və qlobal tərəfdaşları olan Alyans
Admiral Ciampaolo Di Paola
NATO Hərbi Komitəsinin sədri

**Çıxışlar:** Müdafiə Siyasəti və Strategiyası üzrə SNT Konfransındakı çıxışlar,
1 Oktyabr, 2009, Bakı, Azərbaycan ..... 18
Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini
Araz Əzimovun çıxışı ..... 18
NATO-nun Yeni Strateji Konsepsiyası Yolunda,
NATO Baş Katibinin Müdafiə siyasəti və planlaşdırma
üzrə müavini Yiri Şedivinin çıxışı ..... 18

**Azərbaycan-NATO əməkdaşlığına giriş** ..... 25
I Azərbaycan-NATO əməkdaşlığı haqqında ümumi arayış ..... 25
II Azərbaycan-NATO əməkdaşlığının əsas inkişaf xronologiyası ..... 29
III Azərbaycanda NATO ilə əməkdaşlıq çərçivəsində keçirilmiş tədbirlər ..... 34

**Azərbaycan-NATO hərbi əməkdaşlığı** ..... 37
I Azərbaycan-NATO hərbi əməkdaşlığı: qazanılmış
təcrübə və gələcək perspektivlər ..... 37
II Azərbaycanın NATO-nun rəhbərlik etdiyi əməliyyatlara töhfəsi:
nailiyyətlər və perspektivlər ..... 41

**Təhlükəsizlik sektorunun islahatı və qeyri-hərbi sahələrdə**
**Azərbaycan-NATO əməkdaşlığı** ..... 44
I Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin
NATO ilə əməkdaşlığı ..... 44
II Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Daxili
Qoşunlarının NATO ilə əməkdaşlığı ..... 47
III Azərbaycan Respublikasının humanitar və ətraf
mühit məsələləri üzrə NATO ilə əməkdaşlığı ..... 49
IV Terrorizmə qarşı mübarizə səmərəli əməkdaşlığın əsas sahələrindən biridir ..... 51
V MFP sahəsində Azərbaycan-NATO əməkdaşlığı:
nailiyyətlər və perspektivlər ..... 57
**Foto Sərgi** ..... 59
**Aidiyyəti Sənədlər** ..... 65
**İxtisarlar** ..... 78

# Başlıq

2009-cu il həm Şimali Atlantika İttifaqı, həm də NATO və Azərbaycan əlaqələri baxımından əhəmiyyətlidir. NATO özünün 60 illiyini qeyd etdiyi halda, Azərbaycan NATO-nun Sülh Naminə Tərəfdaşlıq (SNT) proqramına qoşulmasının 15-ci ildönümünü bayram edir. 1994-cü il 4 may tarixində Ümummilli Lider, Azərbaycan Respublikasının Prezidenti Zati-Aliləri cənab Heydər Əliyev ikitərəfli əməkdaşlığın keyfiyyətcə yeni mərhələsinə yol açan SNT Çərçivə Sənədini imzaladı.

Azərbaycan-NATO Tərəfdaşlığının rəsmi başlanğıcının 15-ci ildönümünə həsr olunmuş bu kitab seminar, konfrans və dəyirmi masa görüşləri ilə yanaşı, bu əlamətdar tarixi qeyd etmək üçün 2009-cu ildə təşkil edilmiş tədbirlərdən biridir.

Kitab SNT-nin 15-ci ildönümü ilə əlaqədar NATO və Azərbaycanın yüksək rütbəli rəsmilərinin sözləri ilə başlayır. Qeyd etmək lazımdır ki, NATO Baş Katibi və Azərbaycanın Xarici İşlər və Müdafiə Nazirlərinin müstəsna olaraq bu nəşr üçün verilmiş ön sözləri 15 illik bu Tərəfdaşlığın özəlliyini, onun əhatə dairəsi və dinamikasını əks etdirir. Kitab həmçinin, 2009-cu ilin 1 oktyabr tarixində Bakıda keçirilmiş sonuncu NATO tədbiri, Müdafiə Siyasəti və Strategiyası üzrə SNT Konfransında Azərbaycan və NATO-nun yüksək rütbəli nümayəndələri tərəfindən səsləndirilmiş çıxışları da oxuculara çatdırır.

Kitab NATO ilə siyasi dialoq və təcrübi əməkdaşlığın əsas istiqamətləri və prioritetlərini vurğulayan üç əsas fəsili özündə əks etdirir.

Azərbaycan və NATO-nun hərbi sahədə əməkdaşlığı bu nəşrdə əhəmiyyətli yer tutur. Müvafiq Fəsil müdafiə əməkdaşlığının xüsusiyyətlərini və qarşılıqlı hərbi uyarlılıq üzrə işləri təhlil edir. Müdafiə sektorunda islahatlar digər əməkdaşlıq məqsədləri ilə birbaşa bağlılıq əsasında qeyd edilir. Bundan başqa, Azərbaycanın NATO-nun başçılığı altında əməliyyatlarda iştirakına dair məlumatlar onun Avro-Atlantik və beynəlxalq təhlükəsizliyə töhfəsi və təhlükəsizliyin təmin edilməsində rolu barədə oxucuların anlayışını gücləndirəcəkdir. Eyni zamanda, ikitərəfli əlaqələrin geniş miqyası barədə anlayış yaratmaq məqsədilə terrorizmlə mübarizə sahəsində Azərbaycanın təcrübi töhfəsi və təhlükəsizlik sektorunun islahatı üzrə Dövlət Sərhəd Xidməti, eləcə də, Daxili Qoşunlarda göstərilən səylər də işıqlandırılmışdır. Həmçinin, mülki fövqəladə planlaşdırma, ictimai diplomatiya, elm və ətraf mühit, eləcə də, kitabda əks olunan digər aidiyyəti layihələr olmadan əməkdaşlığın ümumi görüntüsünün verilməsi mümkün deyildir.

Kitaba həmçinin, NATO/AATŞ/SNT çərçivəsində qəbul edilmiş Azərbaycanın NATO ilə Tərəfdaşlığının həm hüquqi çərçivəsini, həm də siyasi kontekstini lazımınca əks etdirən bir neçə vacib sənədlər daxil edilmişdir.

Azərbaycanın NATO yanında Nümayəndəliyi ümid edir ki, bu nəşr Azərbaycan ilə NATO arasında keçmiş və hazırkı Tərəfdaşlıq ilə tanış olmaq, həmçinin onun bəzi uzunmüddətli prioritet və istiqamətlərini anlamaq niyyətində olan hər bir kəsin marağına səbəb olacaq.



## cənab Elmar Məmmədyarov

Əziz oxucu,

Azərbaycan və NATO arasında tərəfdaşlığın on beşinci ildönümü qeyd olunmağa layiq hadisədir. Tarixi baxımdan on beş il qısa görünə bilər. Amma bu on beş il Azərbaycan-NATO əlaqələrində əhəmiyyətli və davamlı inkişafla xarakterizə olunur.

1994-cu ilin may ayının 4-də Azərbaycan Respublikasının Prezidenti Zati-Aliləri cənab Heydər Əliyev NATO-nun Mənzil Qərargahını ziyarət edərək SNT Çərçivə Sənədini imzalamışdır.

Prezident Heydər Əliyevin SNT Çərçivə Sənədinin imzalanması günü ifadə etdiyi “Müstəqilliyini yeni əldə etmiş bir ölkə kimi Azərbaycan Sülh naminə Tərəfdaşlıq Proqramında iştirakda qarşısında duran vəzifələrin yerinə yetirilməsi üçün böyük imkanlar görür” cümləsi Avropa və Avro-Atlantika inteqrasiyasında Azərbaycana yol göstərən aydın baxışın bir ifadəsi idi.

Ötən illər ərzində Azərbaycan NATO ilə qətiyyət, anlayış və konseptual yetkinliyi ilə xarakterizə edilən tərəfdaşlıq qurmuşdur. Azərbaycan təkcə konkret işlə məşğul olan, özünün əməkdaşlıq hədəflərinə yetişən Tərəfdaş kimi deyil, yenilikçi və cəsarətli addımları ilə seçilir. Məs. bizim ölkəmiz post-Sovet məkanında SNT/Qüvvələrin Statusu haqqında Saziş (SOFA) və Planlaşdırma və Analiz Prosesinə (PAP) ilk qoşulan ölkələrdən olmuşdur. Bunlar Azərbaycanın Avro-Atlantik təhlükəsizliyinin bölünməzliyinə bağlılığını və təhlükəsizlik yaradan bir ölkə olmağa dair hazırlığını aydın nümayiş etdirən addımlar idi. Biz həmçinin sərhəd nəzarəti məsələlərini AATŞ/SNT formatı üçün ilk olaraq təklif edən və ardıcıl olaraq izləyən ölkə olmuşuq. Bununla 21-ci əsrdə təhlükəsizliyə yeni çağırışlar işığında AATŞ/SNT-nin gündəliyi genişlənmişdir.

Bu gün bizim NATO ilə siyasi dialoq, islahatlar, praktiki əməkdaşlıq və əməliyyatlar üzrə yaxşı təşəkkül tapmış tərəfdaşlığımız vardır.

Azərbaycan Avro-Atlantik məkanda və ondan kənarda təhlükəsizlik və sabitliyə töhfəyə əhəmiyyət verir. Bizim NATO-nun rəhbərlik etdiyi əməliyyatlara ardıcıl olaraq artan töhfələrimiz təhlükəsizlik yaradan bir ölkə kimi hərəkət etdiyimizi göstərən konkret misallardır.

NATO ilə fəal siyasi dialoqumuz qarşılaşdığımız birgə çağırışlar üzrə ortaq anlayışın yaradılması və möhkəmləndirilməsinə imkan yaradır. Azərbaycan öz gələcəyini müasirləşmədə və tam olaraq paylaşdığı Avropa dəyərlərində görür.

NATO ilə əməkdaşlıq bizim müdafiə və geniş təhlükəsizlik sektorunun islahatı üçün faydalı təcrübə və müasir standartlardan yararlanmaq üçün unikal imkan yaradır. NATO-nun çevik əməkdaşlıq mexanizmləri, ələlxüsus, Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı (FTƏP), geniş islahat gündəliyi izləməyə imkan verən qiymətli vasitələrdir. Biz onlara həmçinin, qarşılıqlı inamı gücləndirən əhəmiyyətli vasitələr kimi baxırıq. Məhz praktiki əməkdaşlıq sayəsində biz öz hədəflərimizə çatır, uğur qazanır və daima yeni hədəflər müəyyənləşdiririk. FTƏP prosesi vasitəsi ilə nail olduğumuz davamlı tərəqqi bunu bir daha sübut edir.

Azərbaycanın təhlükəsizlik vəziyyətinin müəyyən xüsusiyyəti – yəni, Ermənistan tərəfindən ərazilərinin əhəmiyyətli bir hissəsinin bədnam etnik təmizləmə ilə işğal olunması

bizim NATO ilə tərəfdaşlığımıza müəyyən ölçüdə təsir göstərən mənfi faktor olmuş və hələ də mənfi faktor olmaqda davam edir. Bu, bizim müntəzəm siyasi dialoqumuzun ən əhəmiyyətli mövzularındandır. Bu həmçinin, müdafiə və təhlükəsizlik sektorunun transformasiyası və müasirləşdirilməsində nəzərə alınmalı bir faktordur.

Bu gün biz NATO ilə birlikdə kifayət qədər çox sayda ortaq təhlükəsizlik çağırışları ilə üzləşirik. Biz hazırda NATO və tərəfdaşlıq üçün çox əhəmiyyətli bir mərhələyə qədəm qoyuruq. SNT-nun yaradılmasından keçən on beş il sonra tərəfdaşlıq Avro-Atlantik təhlükəsizliyin mühüm bir sütunu olmaqda davam edir. Biz Əfqanıstanda uğurun əldə edilməsi məqsədinə bağlıyıq və NATO-nun İraqda effektiv təhlükəsizlik sektoru qurulması sahəsində göstərdiyi səylər bizi daha da ruhlandırır. Bundan başqa, biz terrorçuluq, enerji infrastrukturlarına qarşı təhdidlər, piratlıq və qaçaqmalçılıq kimi çağırışlardan doğan təhlükələri görürük. Eyni zamanda qeyd etmək lazımdır ki, Avro-Atlantik təhlükəsizlik natamam yerinə yetirilmiş bir vəzifə olaraq qalır. Avro-Atlantik təhlükəsizlik bölünməzdir. Burada heç bir ayırıcı xəttə və təsir dairələrinə yer olmamalıdır. Biz ciddi təhlükəsizlik məsələləri, o cümlədən, NATO tərəfdaşlarının təhlükəsizliyinə birbaşa təsir edən Avro-Atlantik məkandakı regional münaqişələrlə ciddi məşğul olduğumuz halda, bu məkanda uzunmüddətli sülh və təhlükəsizlik əldə oluna bilər. Və buna ancaq beynəlxalq hüququn norma və prinsipləri o cümlədən, SNT Çərçivə Sənədində əks olunmuş suverenlik, ərazi bütövlüyü və siyasi müstəqilliyə hörmət kimi prinsiplər əsasında ortaq səylər vasitəsi ilə nail olmaq olar.

Bu gün Alyans öz gələcəyi üçün yeni strategiya axtarışındadır. SNT-nin ərsəyə gəlməsinin on beşinci ildönümü bu təhlükəsizlik mexanizminin günümüzün tələblərinə və gələcək çağırışlara uyğunlaşdırmaq üçün münasib vaxt ola bilər. Biz əminik ki, gücləndirilmiş siyasi həmrəylik, praktiki uyarlıq və paylaşılan dəyərlər vasitəsi ilə SNT daha da inkişaf etdirilə bilər. Azərbaycan hamını ehtiva edən və şəffaf müzakirələrin gedişində bu prosesə töhfə verməyə hazırdır.

cənab Elmar MƏMMƏDYAROV
Azərbaycan Respublikasının xarici işlər naziri





## cənab Yaap de Hoop Sxeffer

Əziz oxucu,

Mən çox şadam ki, Azərbaycan özünün SNT proqramında iştirakının 15-ci ildönümünü ictimaiyyət üçün maraqlı olan, geniş həcmli bir broşür ilə qeyd etmək təşəbbüsü göstərib.

NATO-Azərbaycan əlaqələri təkcə mənim Baş Katib kimi işlədiyim müddətdə deyil, uzaq perspektivdə əhəmiyyətli dərəcədə inkişaf etmişdir. 1994-cü ildə cəmi bir neçə zabitin NATO-nun kursları və təlimlərində iştirakı ilə başlamış təmaslar böyüyərək müxtəlif sahələri əhatə edən möhkəm və uğurlu tərəfdaşlığa çevrilmişdir.

Bu gün Azərbaycanın qoşunları Alyans və digər tərəfdaşların qoşunları ilə çiyin-çiyinə Əfqanıstanda ISAF əməliyyatında xidmət edir. Azərbaycanlı zabitlər öz xidmətlərində fərqlənirlər və Əfqanıstana sülh və sabitliyin bərqərar olmasına onların töhfəsi Müttəfiqlər və Tərəfdaşlar tərəfindən yüksək qiymətləndirilir.

Azərbaycanın ISAF-a töhfəsi hər şeydən öncə Azərbaycanın Avro-Atlantik məkanında təhlükəsizlik və sabitliyin əldə edilməsi sahəsində daha böyük məsuliyyəti öz üzərinə götürmək əzmindən xəbər verir. Eyni zamanda bu, illərlə aparılmış gərgin əməyin nəticəsidir. Azərbaycan qoşunlarının NATO-nun rəhbərlik etdiyi bir əməliyyata uğurlu cəlb olunması üçün tələb olunan qarşılıqlı hərbi uzlaşma bir günün içində əldə olunmayıb. Bu, NATO ilə Azərbaycan arasında on beş il ərzində planlı şəkildə aparılmış praktiki əməkdaşlıq sayəsində ərsəyə gəlmişdir.

Azərbaycan və NATO rəsmilərinin bu nəşrdə verdikləri çoxsaylı məqalə və yazılar Azərbaycan və NATO-nun əməkdaşlıq etdiyi müxtəlif sahələr haqqında mənzərə yaradır. Bizim əməkdaşlığımızın hərbi sahə ilə yanaşı, fövqəladə hallara hazırlıq, elm, təhlükəli maddələrin və partlamamış hərbi sursatların zərərsizləşdirilməsi kimi sahələri əhatə etməsi bəzi oxucuları təəccübləndirə bilər. Hərbi sahə ilə yanaşı bu sahələr də Azərbaycan və NATO-nun uğurla əməkdaşlıq etdiyi sahələrdir.

İslahatlar bizim əməkdaşlığımızın başqa bir əhəmiyyətli sahəsidir. Alyans müdafiə sektorunun islahatı və müasirləşdirilməsi, demokratik təsisatlar quruculuğu və bu təsisatların hərbi və müdafiə ilə əlaqəli digər qurumların üzərində tam nəzarət etməsini təmin etməsi sahəsində Azərbaycanın səylərini dəstəkləyir. Bu iş FTƏP-ın mərkəzində dayanır və bu broşürdəki məqalələrin göstərdiyi kimi, bu sahədə əməkdaşlıq uğurludur. Əlbəttə bunun kimi geniş və mürəkkəb sahədə görülməli işlər qalır. Həm NATO, həm Azərbaycan səylərini islahatlardan nəticələrin əldə edilməsinə yönəltməkdə davam edəcək. Bununla bağlı ictimaiyyətin dəstəyi çox vacibdir. Ümid edirəm ki, bu nəşr NATO-Azərbaycan əlaqələrinə və praktiki əməkdaşlığına olan ictimai marağa töhfə verəcək və əminəm ki, əlaqələrimiz və əməkdaşlığımız dərinləşməkdə və möhkəmlənməkdə davam edəcək.

cənab Yaap de Hoop SXEFFER
NATO-nun Baş Katibi
06 iyul 2009-cu il



## general-polkovnik Səfər Əbiyev

Əziz oxucu,

On beş il öncə, 1994-cü ilin may ayında, Azərbaycan NATO-nun yeni yaranmış “Sülh Naminə Tərəfdaşlıq” proqramına qoşulmaq üzrə Çərçivə Sənədini imzaladı. Bu tarixdən etibarən Azərbaycan, demokratik dəyərləri bölüşməklə, etibarlılıq nümayiş etdirməklə və birgə inkişaf planlarının məqsədlərini yerinə yetirməklə, Avro-Atlantik Qurumlar və xüsusən də NATO ilə sıx əməkdaşlığa və inteqrasiyaya öz marağının ifadə edilməsində olduqca səmimi olmuşdur.

1991-ci ildə öz müstəqilliyini yenidən bərpa edəndən bəri, Azərbaycan NATO ilə əməkdaşlığın inkişafına xüsusi əhəmiyyət vermişdir. Eyni dəyərlərə önəm verən demokratik ölkələrin daxil olduğu Alyans ilə yaxın əlaqələrin qurulması Cənubi Qafqaz da daxil olmaqla bütün Avro-Atlantik məkanda ümumi təhlükəsizlik və beynəlxalq hüquq prinsiplərinin yerinə yetirilməsi kontekstində nəzərdə tutulmuşdur. Sülh Naminə Tərəfdaşlığa və Şərqi Avropada yeni təhlükəsizlik siyasətinə başlayaraq Müttəfiq Ölkələr 1994-cü ilin yanvar ayında qəbul edilmiş Brüssel Zirvə Toplantısının Bəyannaməsində Cənubi Qafqazda ərazi qazancları üçün gücün tətbiq edilməsini ittiham etmiş və Qafqaz dövlətlərinin ərazi bütövlüyü və suverenliyinə olan ehtiramlarını bir daha təsdiq etmişlər. 1994-cü ilin may ayında, Azərbaycan SNT-yə qoşulması üçün Çərçivə Sənədini imzalamışdır. Həmin illərdə Azərbaycan olduqca çətin təhlükəsizlik və iqtisadi vəziyyətdə idi. Dağılmış vəziyyətdə olan keçmiş sovet iqtisadiyyatı və sosial infrastrukturundan ağır əziyyət çəkən Azərbaycan təxminən özünün 20 faiz ərazisində, bir milyon əhaliyə qarşı işğal və böyük miqyaslı etnik təmizləmə ilə yekunlaşmış, Ermənistanın silahlı təcavüzünün nəticələrinin aradan qaldırılmasına vadar edilmişdi.

Bütün bunlara baxmayaraq, 1996-cı ildən bəri Azərbaycan SNT çərçivəsində daha fəal siyasətə başlamışdır. Bu tarixdən etibarən Azərbaycanın səyləri, Alyansla effektiv və qarşılıqlı-faydalı tərəfdaşlığa yönəlmişdir. Özünün bir çox institutlarını ilk dəfə yaradan gənc bir ölkə kimi, NATO ilə əməkdaşlığa, xüsusən də hərbi uyarlılıq və müdafiə islahatları sahələrinə böyük marağımız olmuşdur. Beynəlxalq və hərbi əməkdaşlığın müxtəlif formaları əsasında biz əhəmiyyətli təcrübəni əldə etmiş adi SNT ölkəsindən etibarlı Tərəfdaş və təhlükəsizlik təminatçısına aparan uzun bir yol keçmişik.

İlkin Sülh Naminə Tərəfdaşlıq fəaliyyətləri SNT-nin Planlaşdırma və Analiz Prosesi (PAP) çərçivəsində planlaşdırma prosesləri ilə davam etdirilmişdir. Bu addım Azərbaycan Silahlı Qüvvələrinin yeni tələblərə uyğunlaşdırılmasına, beynəlxalq hərbi əməkdaşlıqda və NATO-nun başçılığı altında aparılan sülhə dəstək əməliyyatlarında Azərbaycanın iştirakına işarə idi. NATO ilə hərbi uyarlığın inkişafında, Kosovo və Əfqanıstanda NATO-nun rəhbərliyi altında aparılan sülhə-dəstək əməliyyatlarına, eyni zamanda İraqdakı beynəlxalq koalisiya əməliyyatlarına qatılması üçün Azərbaycan qüvvələrinin hazırlığında PAP olduqca məhsuldar olmuşdur. Azərbaycan, NATO-nun başçılığı altında aparılan sülhə-dəstək əməliyyatlarına qüvvələr göndərməklə 1999-cu ildən 2008-ci ilədək Kosovada KFOR-un tərkibində və 2002-ci ildən terrorizmlə mübarizə və Əfqanıstanda bərpa işlərində iştirak üçün ISAF-a qoşulmaqla Avro-Atlantik təhlükəsizliyə əhəmiyyətli töhfəsini verir. Bu əməliyyatlarda qazanılan təcrübə bizim üçün mühüm əhəmiyyət kəsb edir. Biz bu yaxınlarda ISAF-dakı qüvvəmizi iki dəfə artıraraq, onu bir bölüyə çatdırmışıq və Əfqanıstana hərbi tibb mütəxəssislərimizi göndərmək niyyətindəyik. Hərbi töhfələrdən başqa biz, geniş humanitar yardımları nəzərə almaq və Əfqanıstandakı əməkdaşlığımızı daha da genişləndirmək əzmindəyik. Bundan başqa Azərbaycan, Əfqanıstan əməliyyatı üçün öz hava məkanını açıq elan etmiş və öz ərazisində yanacaq doldurmağa icazə vermiş əsas ölkələr sırasındadır.

Daha vacibi odur ki, təlim proqramlarında, sülhməramlı missiyalarda və təlimlərdə iştirak imkanları ilə SNT proqramı NATO həmkarları ilə tam uyarlı hərbi zabitlərin yeni nəslinin inkişafına şərait yaradır. Digər Tərəfdaşlarla olduğu kimi Azərbaycanla da əməkdaşlığın dərinləşdirilməsində NATO-nun əsas yanaşması, milli müdafiə strukturları üçün Alyansın təcrübəsini öyrənmək imkanı yaratmaqdan savayı, həm də NATO-ya üzv dövlətlər ilə ikitərəfli hərbi əməkdaşlığın inkişafına yardım etməkdən ibarətdir.

Azərbaycan NATO-nun 2002-ci il Praqa Zirvə Toplantısında Alyans tərəfindən Tərəfdaşlara yeni SNT mexanizmi kimi təklif edilmiş FTƏP-ə qoşulmaq niyyətini bəyan edən birincilər sırasında olmuşdur. 2004-cü ildən başlayan FTƏP prosesi hərbi və müdafiə sahəsində islahatlara və NATO standartlarının tətbiqi proseslərinə təkan vermiş və onları daha da sürətləndirmişdir. Müdafiə və təhlükəsizlik sektorlarının islahatlarına NATO-nun dəyərli yardımı üçün effektiv çərçivənin təmin olunmasında FTƏP əhəmiyyətli rol oynayır. Azərbaycan Avro-Atlantik siyasi və müdafiə inteqrasiyasını nəzərdə tutmaqla bütün vətəndaşlarının yüksək səviyyəli təhlükəsizliyinə zəmanət verə biləcək müfəssəl milli təhlükəsizlik sisteminin yaradılmasına çalışır. Biz müdafiə sahəsində Azərbaycanın cari strateji FTƏP məqsədi olan, müdafiə və təhlükəsizlik sisteminin müxtəlif elementləri arasında ahəngdar işçi əlaqələri yaradırıq və qurumlararası ardıcıl, məqsədyönlü, rasional və səmərəli çərçivəni möhkəmləndiririk.

1997-ci ildən etibarən, Azərbaycan Silahlı Qüvvələrinin hərbi təhsil müəssisələri NATO standartlarına uyğun təhsil proqramı ilə hərbi kadrlar hazırlayır. 2007-ci ildən isə Silahlı Qüvvələrin Quru Qoşunları, Hərbi Hava Qüvvələri və Hərbi Dəniz Qüvvələrinin ştat strukturu NATO standartlarına uyğunlaşdırılmış, bütün təlimlər, hazırlıq proqramları NATO sənədləri və proseduraları əsasında həyata keçirilir.

Hərbi və müdafiə sahəsində Azərbaycan NATO/Azərbaycan birgə proqramları, xüsusən də FTƏP-də göstərilmiş ölçülərə riayət edərək, SNT-nin təmin etdiyi alət və mexanizmlərdən məharətlə istifadə edir. Biz bu ölçülərin səmərəli olması və keçən 15 il ərzində Azərbaycanda inkişaf etdirilmiş və gücləndirilmiş demokratik şərtlər altında sınaqdan keçmələri faktından məmnunuq.

Azərbaycan hər zaman NATO-ya şəffaf və etibarlı münasibət bəsləmişdir. Buna görə də Azərbaycan əvvəlcədən yerinə yetirə bilməyəcəyi vədlər vermir. Azərbaycan özünün siyasi, müdafiə, təhlükəsizlik, maddi-texniki, maliyyə, insan və digər ehtiyatlarının imkan yaratdığı öhdəliklər çərçivəsində müvafiq məqsədləri yerinə yetirir. Balkan və Əfqanıstanda NATO-nun başçılığı altında aparılan sülhməramlı və İraqdakı çoxmillətli əməliyyatlarda sülhməramlı qüvvələrlə iştirak etməklə, Azərbaycan siyasi şəraitə, müyəssər ehtiyat və imkanlara müvafiq olaraq beynəlxalq təhlükəsizliyə əhəmiyyətli töhfələr vermişdir.

2009-cu il Müdafiə Nazirliyi üçün olduqca əhəmiyyətli ildir. Azərbaycan Silahlı Qüvvələrinin və ümumilikdə, ölkənin milli müdafiə sisteminin gələcək uzunmüddətli inkişafı üçün biz reallığa əsaslanan möhkəm və dayanıqlı baza yaratmağa nail olmuşuq. Cari il, Azərbaycanla Alyans və NATO-nun üzv dövlətləri arasında hərbi əməkdaşlığın dərinləşdirilməsi və genişləndirilməsi vasitəsi ilə, onlarla hərbi uzlaşmanın gücləndirilməsi və müdafiə sisteminin müasir standartlar əsasında yenidən təşkili və inkişafı baxımından böyük əhəmiyyət kəsb edir.

Cənubi Qafqaz regionunda baş verən münaqişələrin təhlükəsizlik şəraitində yaratdığı gərginliklərə baxmayaraq, Azərbaycan beynəlxalq enerji, kommunikasiya və nəqliyyat layihələrini həyata keçirməklə, regional sabitliyə və xoş güzərana öz töhfələrini artıracaqdır. Azərbaycan beynəlxalq terrorizmlə mübarizəni və NATO-nun başçılığı altında aparılan əməliyyatlarda iştirakını davam etdirəcəkdir.

Beləliklə, Azərbaycan etibarlı Tərəfdaş kimi, beynəlxalq sülhə və təhlükəsizliyə zəmanət verilməsində iştirak etməklə, özünün bütün səylərini səfərbər etməkdədir.

general-polkovnik Səfər ƏBİYEV
Azərbaycan Respublikasının müdafiə naziri

# İldönümü qeydləri



## İldönümü qeydləri cənab Jan Fransua Büro

### Sülh və təhlükəsizlik bizim missiyamızdır

On beş il əvvəl Azərbaycan və NATO siyasi əməkdaşlıq, silahlı qüvvələrin transformasiyası, demokratiya və qanunun aliliyinin təşviq edilməsinə yönəlmiş tərəfdaşlıq münasibətlərinin qurulması barədə razılığa gəldilər. Bu ortaq məqsəd faydalı nəticələr doğurmuşdur. Azərbaycan hazırda NATO-nun rəhbərlik etdiyi əməliyyatlarda konkret və əhəmiyyətli uğurları ilə Avro-Atlatika məkanında təhlükəsizliyi təmin edən tərəfdaşlar sırasındadır. Azərbaycan Respublikasının Prezidenti Zati Aliləri cənab İlham Əliyev 2009-cu ilin aprel ayında Azərbaycanın yeni FTƏP sənədi üzrə müzakirələri ilə bağlı Şimali Atlantika Şurasında təqdim etdiyi mövqe münasibətləri möhkəmləndirmək və ortaq nailiyyətlər əldə etmək üçün ortaq iradədən xəbər verirdi.

Bizim ölkələrimizin terrorçuluq, kiber hücumlar, enerji təhlükəsizliyinə qarşı təhdidlər, kütləvi qırğın silahlarının yayılması və qaçaqmalçılığı kimi ortaq problemlərlə getdikcə daha çox üzləşdiyi bir dövrdə NATO ölkələri və tərəfdaşlar öz əməkdaşlıqlarını daha da gücləndirməyə çalışırlar. Belə ki, heç bir ölkə bu çağırışların öhdəsindən təkbaşına gəlməyə qadir deyil. Ortaq iradə, paylaşılan baxışlar, praktiki hərbi əməkdaşlıq bu risklərə qarşı bizim ən yaxşı cavablarımızdır. Yeri gəlmişkən, bu risklər bizim vətəndaşların gündəlik həyatları ilə həmişə olduğundan daha çox əlaqəlidir.

Vətəndaşlarımız üçün sülh və sabitliyi təmin etmək həmişə olduğundan daha çox səylər tələb edir. Bizim vətəndaşlar NATO-Azərbaycan əlaqələrinin ölkələri və özləri üçün nə dərəcə faydalı olduğunu dəyərləndirərkən bundan agah olmalıdırlar. Bu səbəbdən biz azərbaycanlı tərəfdaşlarımız ilə birlikdə qərar aldıq ki, ortaq səylərimiz barədə ən düzgün təsəvvür yaratmaq üçün məlumat imkanlarımızın genişləndirilməsi böyük əhəmiyyət kəsb edir.

Bu mənim təqdim etməyə çox məmnun olduğum nəşrin əsas məqsədidir. Bu, bizim əldə etdiyimiz tərəqqini, bizim atmağa hazır olduğumuz növbəti addımları göstərir və yekunda ümid və əminlik ismarıcı verir: dünya getdikcə daha artıq risk və çağırışlarla üzləşsə də Azərbaycanın NATO ilə həyata keçirməyi qərara aldığı tərəfdaşlıq məhsuldar olacaq, bu ölkənin vətəndaşları üçün daha artıq təhlükəsizlik gətirəcək və ən nəhayət, ortaq nailiyyətlərin çağırışları üstələyəcəyini göstərəcək.

Sülh və təhlükəsizlik heç vaxt öz-özünə yaranmır: xalqlarımızın və vətəndaşlarımızın mənafeyinə uyğun daha sıx inteqrasiya olunmuş Avro-Atlantik əməkdaşlığı uğrunda çalışarkən tarixin dərsi hələ də şüurlarımızdadır. Bu, NATO-nun növbəti Strateji Konsepsiyası üzrə bizim qitədə və başqa məkanlarda sülh və təhlükəsizliyin təşviq olunması üzrə ortaq iradəmizə tərəfdaşlarımızı qatan, geniş və şəffaf müzakirələrin başlanmasını qərara almış NATO-nun Strasburq-Kehl Sammitinin ismarıcıdır.

Soyuq müharibənin başa çatmasından iyirmi il sonra NATO böyük ölçüdə transformasiya olmuş və nəzərlərini gələcəyə, sülh və sabitliyə yönəldib. Bu baxımdan 1989-cu il və sonra doğulmuşlar xoşbəxtdirlər. Azərbaycan anlayır ki, NATO ilə tərəfdaşlığı məhsuldar nəticələr doğuracaq və bütöv regionun daha dinc və təhlükəsiz olmasına yardım edəcək.

cənab Jan Fransua BÜRO
NATO Baş Katibinin ictimai diplomatiya üzrə müavini





## İldönümü qeydləri cənab Robert Simmons

### NATO-Azərbaycan tərəfdaşlığı on beşinci ildönümündə

İldönümüləri təbriklər və bayramlarla müşayiət olunur. Amma ildönümüləri indiyədək əldə olunmuş nailiyyətləri və gələcəkdə nələr edilə biləcəyini nəzərdən keçirmək üçün də gözəl imkan yaradır. 1994-cü ildə mərhum Prezident Heydər Əliyev SNT Çərçivə Sənədini imzalayaraq NATO ilə Azərbaycan arasında praktiki əməkdaşlıq və siyasi dialoqun əsasını qoymuşdur. Kövrək qədəmlərlə başlamış bu əlaqələr hazırda əsl tərəfdaşlığa çevrilmişdir.

Bu gün - Azərbaycanın SNT proqramına qoşulmasının on beşinci ildönümündə Azərbaycan qoşunları Müttəfiqlər və digər Tərəfdaşların qoşunları ilə birlikdə NATO-nun rəhbərliyi altında Əfqanıstanda Təhlükəsizliyə Yardım üzrə Beynəlxalq Qüvvələrdə xidmət edir Azərbaycan və NATO FTƏP çərçivəsində müdafiə islahatları və demokratik təsisatlar quruculuğu sahəsində yaxından əməkdaşlıq edir; Azərbaycanın yüzlərlə nümayəndəsi hər il NATO-nun müxtəlif tədbirlərində iştirak edir; və regional təhlükəsizlik məsələləri üzrə yüksək səviyyəli davamlı siyasi dialoq bizə Avro-Atlantik təhlükəsizlik üzrə paylaşılan anlayış yaratmağa imkan yaradır.

Bu uğurlar bizim ortaq maraqlarımıza və ortaq hədəflərimizə yetişmək üçün birgə işləməyə dair ortaq qətiyyətimizə söykənir. Bu qətiyyət özünü təkcə Azərbaycanın Əfqanıstanda sülh və sabitliyin təmin olunmasına əhəmiyyətli yardımı ilə deyil, həm də NATO və Azərbaycanın SNT vasitəsi ilə cəlb olunduqları müdafiə islahatları, demokratik təsisatlar quruculuğu, ortaq standartlar və modernizasiya sahəsində uzunmüddətli fəaliyyət ilə özünü göstərir. Bir çox hallarda bu işlər ictimaiyyətin birbaşa diqqətindən kənarda - hökumətdə, parlamentin koridorlarında, nazirliklərin daxilində, universitetlərdə, akademiyalarda və silahlı qüvvələrin təlim mərkəzlərində həyata keçirilir. Amma bu fəaliyyətlər NATO-Azərbaycan tərəfdaşlığının və Azərbaycanın Avro-Atlantik institutlara inteqrasiyasının gücləndirilməsinə ictimai görüntüsü böyük olan tədbirlər qədər böyük töhfə verir. NATO-Azərbaycan əməkdaşlığının Dövlət Sərhəd Xidməti, Fövqəladə Hallar Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Milli Elmlər Akademiyası və Ərazilərin Minalardan Təmizlənməsi üzrə Dövlət Agentliyi daxil olmaqla çoxlu sayda nazirlik və qurumları ehtiva etməsi məndə böyük təsir buraxmışdır və əminəm ki, belə də davam edəcək.

On beş illik ortaq səylər NATO-Azərbaycan tərəfdaşlığının gələcəkdə gücləndirilməsi və dərinləşdirilməsi üçün möhkəm özül yaratmışdır. Əminəm ki, həm Alyans, həm də Azərbaycan öz əlaqələrini yüksək prioritet kimi saxlayacaqlar və bu özünü praktiki addımlarla göstərməkdə davam edəcək. Avro-Atlantik məkanda təhlükəsizlik bölüşülən məsuliyyətdir və Azərbaycan təkcə təhlükəsizlik "istehlakçısı" deyil, həm də "yaradıcısı" olduğunu artıq nümayiş etdirmişdir. Azərbaycanın rolu bu mənada daha da artacaq və bizim tərəfdaşlığımız Azərbaycana beynəlxalq ictimaiyyətin Əfqanıstandakı və ya hər hansı başqa məkandakı səylərinə töhfə verməyə imkan yaratmaqda davam edəcək. İnstitusional və müdafiə islahatları üçün FTƏP çərçivəsində yaxşı zəmin yaradılmışdır. Amma qarşıda görülməli işlər daha çoxdur. Bizim Azərbaycanı Avro-Atlantik strukturlara və standartlara yaxınlaşdırmaq kimi ortaq məqsədimiz bu sahədə gələcək uğurlu fəaliyyət üçün əsas yaradır.

On beşinci ildönümündə NATO və Azərbaycan gələcəkdə daha sıx tərəfdaşlıq üçün əsas yaratmış uğurlu keçmişə baxa bilərlər. Azərbaycan SNT-də on beş illik iştirakı ilə əldə etdiyi nailiyyətləri və Alyansın etibarlı tərəfdaşı kimi hazırda oynadığı rol münasibəti ilə təbrik edilməyə layiqdir. Əminəm ki, bu münasibətlər sülh, təhlükəsizlik və sabitliyin tərəfdaşlıq vasitəsi ilə necə gücləndirilə biləcəyinə nümunə olmaqda davam edəcək.

cənab Robert SIMMONS
NATO Baş Katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi





# Admiral Ciampaolo Di Paola

## NATO, 60 İllik Uğurun astanasında – Qlobal Maraqları və Qlobal Tərəfdaşları olan Alyans

NATO bu il özünün 60 illik fasiləsiz müvəffəqiyyətini qeyd etdi və Strasburq və Kehl Sammitində bir yerə toplaşmış Hökumət və Dövlət Başçıları, bizim böyük ittifaqın dünya arenasında oynadığı rol üçün məğruriyyət hissi keçirtdilər.

1949-cu ildə NATO-nun təməlini yaratmış Vaşinqton Müqaviləsinə ilk olaraq imza atanlar, bu gün, Əfqanıstan, İraq və Kosovo, bütün dünyada aparılan əməliyyatlarda, Azərbaycan da daxil olmaqla, bir çox başqa millətlərlə birgə fəaliyyət göstərən təşkilatı tanımaq iqtidarında belə olmazlar. NATO, eyni zamanda bir çox tərəfdaş və müttəfiqlərlə birgə, dünyada son zamanlar baş almış dəniz quldurluğu bəlasına adekvat cavab vermək səylərini həyata keçirir.

Soyuq Müharibə dövrünün əsas xüsusiyyətlərindən biri, Qarşılıqlı Məhv Etmə nəzəriyyəsi idi. Böyük qüvvələr Dəmir Pərdənin hər iki tərəfindən bir-birinə qarşı elə miqyasda sıraya düzülmüşdü ki, belə konfliktin sonunda, hansı növ dünyanı görəcəyimizi, həqiqətdə heç kəs təsəvvür etmirdi. Qarşısını alma bir şüar idi və heç bir tərəf, çox güman ki, məntiqi sona çatdıra bilməyəcəyi nəyisə başlamaq istəmirdi. Öz əqrəbləri ilə gecə yarısına yaxın Qiyamət Günü Saatını və ikinci əqrəbin, möhtəşəm dövlətlərin strateji açılma dövrünə daxil olacaqlarına işarə edən, saat 12-yə daha da yaxınlaşmasını əks etdirən təsvirə baxmağım mənim yadıma düşür.

İndi isə vəziyyət tam olaraq fərqlidir. Müəyyən müddətdən sonra biz Balkanlarda baş vermiş hadisələrə cəlb olunduq. Bu NATO üçün yeni bir zərurət idi və onun tam olaraq anlaması və həyata keçirilməsi üçün bizdən müəyyən bir zaman tələb edilirdi. Lakin biz buna nail olduq. Mən israr edərdim ki, bundan əvvəlki bir çox illərə nisbətən, Balkanlar indi daha sabitdir. Biz, mövcud olmuş yanğından tam şəkildə kənarlaşmamışıq, lakin regionda üstünlük təşkil edən nifrətin və konfliktin közərən yanğısı aydın şəkildə azalmaqdadır. Biz həqiqi inkişafı və regiondakı bir çox tərəflər arasındakı barışığı görürük.

Təəssüf ki, 2001-ci ildə Nyu-Yorkda baş vermiş hücumlar, bizim buna qədər böyük sülhə və razılığa doğru irəliyə yönəlmiş yolumuzu dəyişdirdi. O vaxtdan bəri biz, ölkə və millətlərdən irəli gəlməyən təhdidlərlə qarşı-qarşıya durmuşuq. Biz, öz sərhədlərimizə olan təhdidlərə qarşı mübarizə dövründən uzaqlaşmışıq; indi təhdidlərin sərhədi yoxdur və onlar bütün istiqamətlərdən gəlir. Qeyri-Dövlət Aktorları – hətta kompüterlə olan fərdlər – bizim quruluşumuza hücum edə bilmə imkanları səbəbindən, yaşayış tərzimizi dağıtmaq üçün böyük risklər yarada bilərlər; onlar bizi daxildən bölür, onlar bizim birliyimizi hədələyir və bizi bir-birimizə bağlayan dəyərlərimizi itirmək təhlükəsi ilə üzləşirik. Bu yaxınlardakı maliyyə böhranının sürətinin və təsirinin şahidi olmağımız kifayətdir ki, yaşamağımız qloballaşmış iqtisadiyyat və dünyanın, özlərini məslək, etiqad, din, inam və ya mədəniyyət ilə təcrid etməyi və ayırmağı arzulayanlar üçün eyni imkanları təklif etdiyini başa düşək.

Bu səbəbdən də bizim üçün, həm İttifaqın daxilində və həm də ondan kənarda, tərəfdaşlığımızı gücləndirmək böyük əhəmiyyət kəsb edir. NATO gələcəyə baxmalı və yeni təhdidlərə istənilən yerdə adekvat cavab verilməsi üçün, onun edə biləcək imkanlar üzrə sorğusuna, ölkələrin hazırlığı baxımından Alyans əmin olmalıdır. Nəticə etibarı ilə NATO-nun regional yanaşması, öz özəyində, Alyansla eyni dəyərləri və / və ya maraqları bölüşdürən tərəfdaşlar ilə birgə cəlb olunması imkanlarına malikdir.

Azərbaycan, qlobal təhlükələri ön hissədə qarşılamaq üçün, NATO-nun cəhdlərinə doğru yönəlmiş tərəfdaşlardan biridir. Keçmişdə öz çətinliklərinə malik Qafqaz regionunun bütün tərəfləri ilə çalışmaq, bizi irəliyə apara bilən yeganə yoldur. Azərbaycanın 1997-ci ildən bəri Planlaşdırma və Analiz Prosesi və Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planındakı nailiyyətləri, silahlı qüvvələrinizin və sistemlərinizin inkişafının NATO-nun əsas dəyərlərinə bərabər uyğunlaşmasına əmin olunması üzrə Sizin ölkənin göstərdiyi səyləri sübut edir. Cənubi Qafqaz və Moldova üzrə "Clearing House" mexanizmi, Azərbaycan, Gürcüstan, Ermənistan və Moldovanın yardım ehtiyaclarına müttəfiqlərin dəstək verməsinə imkan yaratması baxımından olduqca faydalıdır.

Daxildə isə, Azərbaycan çərçivəsində, Müdafiə İslahatları və Əməliyyat İmkanları Konsepsiyası çərçivəsindəki əhəmiyyətli nailiyyətlər, bunlarla əlaqəli olan və NATO-nun dəstəyi ilə aparılan Hərbi Təlim və Təhsil Sisteminin İcmalı, NATO üçün effektiv müttəfiq olacaq daha bacarıqlı və yaxşı təlim almış hərbçiləri hazırlayacaqdır.

Bundan başqa Azərbaycan, Avropa və Avro-Atlantik siyasi, təhlükəsizlik, iqtisadi və digər institutlara böyük inteqrasiyanı, özünün strateji məqsədi kimi göstərmişdir. Geniş strateji niyyət Alyansın əsas xətti ilə üst-üstə düşür; NATO və Avropa İttifaqının Hərbi Qərargahı, bu günün reallığını əks etdirən daha yaxın əlaqələri inkişaf etdirir. Dünya böhranına hər hansı bir ölkə və ya təşkilat tərəfindən təcriddə cavab verilməsi təsəvvür edilməzdir. NATO və Avropa İttifaqının, Birləşmiş Millətlər Təşkilatının mandatı çərçivəsində digərləri ilə yanaşı çalışması, uzun müddətli müvəffəqiyyətin yeganə həllidir.

Azərbaycanın NATO əməliyyatlarına indiyə qədər olan dəstəyi, artıq ölkənizin regional və dünya arenasında səylərini və imkanlarını nümayiş etdirmişdir. NATO və onun müttəfiqləri ilə uyarlılığa doğru aparılan iş, eyni zamanda bu rolun əhəmiyyətli hissəsini formalaşdıracaq.

Bəs biz haraya gedirik? Bizim qarşımızda hansı gələcək açılır?

NATO-nun Hərbi Strukturları bu yaxınlarda Çox Şaxəli Gələcəklər Layihəsi adlanan işin əhəmiyyətli hissəsini başa çatdırmışlar ki, bu da qarşıdan gələn illər ərzində bizim üzləşəcəyimiz mümkün gələcəklər silsiləsinin planlaşdırılması məqsədini daşıyır. Layihə düşünülməmiş tərzdə nəyinsə öncədən xəbər verilməsinə cəhd göstərmir, lakin o, NATO və ölkələrin avadanlıq proqramları, təlim və gələcəyə hazırlığı üzrə qərar qəbul edilməsinə yardım göstərilməsi üçün, təhdid və imkanların üzə çıxarılması məqsədini daşıyır. Bu, hazırlığın vacib hissəsi, əməliyyatlara Müfəssəl Yanaşmanın çevikliyini və strukturlaşdırılmasını təşkil edir.
Layihə, bu ilin əvvəlində, siyasi rəhbərlik tərəfindən bizə verilmiş digər vacib sənədə olan dəstəyimizə yardım edəcək. Bu ilki Zirvə Toplantısında qəbul edilmiş Alyansın Təhlükəsizliyi üzrə Bəyannamə, NATO-nun yeni Strateji Konsepsiyası üzrə işin aparılması üçün əsas yaradır. Bu sənəd tamamilə siyasi xarakter daşıyır və NATO-nun Hərbi Səlahiyyətləri, strateji istiqamətlərin təyinatında, siyasi Rəhbərliyə dəstək olmaq məqsədilə əlindən gələni edəcəkdir. İnanıram ki, yeni Strateji Konsepsiya, bu günün reallığını əks etdirməklə, bir daha Demokratiyanın, Azadlığın və Hüquq Normalarının əsas dəyərlərinə əsaslanacaq. Bu dəyərlər Alyansın özəyindədir və heç bir zaman dəyişməyəcəkdir. Ətrafımızdakı geo-strateji təhlükəsizlik dəyişəcəkdir, lakin əsas dəyərlər yox. Konsepsiyanın işlənilməsinə yanaşma, onun özü kimi vacibdir. Əgər biz irəliyə aparan müfəssəl yolu seçiriksə, onda bu yanaşmada, biz, həm Alyansın daxilində və həmdə ondan kənarda, Tərəfdaşlar daxil olmaqla, bütün fikirləri əks etdirməliyik.

Yekun sənədin cari Strateji Konsepsiyaya oxşarlığını qeyd etmək olar, lakin mən qətiyyətlə inanıram ki, onun arxasında duran düşüncə və müzakirələr tamamilə müxtəlif olacaqdır. Bu köhnə evin sadəcə yenidən bərpasına oxşamayacaqdır; bu yeni struktur təməlindən qurulmalıdır. Ümidvaram ki, bu sənəd, qloballaşmış dünyada, bizim harada olmağımızın tam dərk olunmasına əsaslanacaqdır. Əlbəttə ki, biz Müqavilənin 5-ci Maddəsinin müasir anlayışını necə başa düşməyimizi nəzərdən keçirəcəyik. Bu Alyansın əsas prinsipi olacaq, lakin biz təhdidlərin mənbəyini aydınlaşdıracağıq.

NATO-nun Baş Katibi qeyd etmişdir ki, Alyans qlobal olmağa can atmır, lakin biz qlobal marağı olan Alyansıq və bu o deməkdir ki, gələcəyin təhdidlərinə cavab verilməsində bizim qlobal tərəfdaşlığa ehtiyacımız var. Azərbaycan artıq böyük regional liderliyi nümayiş etdirmişdir, və özünü bu yeni mənzərədə və bizim özəl dəyərlərimizin müdafiəsi üzrə kollektiv səylərimizdə, iradəli və bacarıqlı tərəfdaş kimi təqdim etmişdir. Mən Sizin ölkə və Sizin regiondakı digərləri ilə, böyük anlaşığa, tolerantlığa, regional və beynəlxalq sülhə yönəlmiş gələcək birgə işlərimizə ümid bəsləyirəm.

Admiral Ciampaolo DI PAOLA,
NATO Hərbi Komitəsinin Sədri

# Çıxışlar

**Müdafiə Siyasəti və Strategiyası üzrə SNT Konfransında Azərbaycan və NATO yüksək rütbəli rəsmiləri tərəfindən edilmiş çıxışlar**
**1 Oktyabr 2009-cu il, Bakı, Azərbaycan**



## Çıxışlar cənab Araz Əzimov

Çox sağ olun. İlk əvvəl onu qeyd edim ki, NATO və Avro-Atlantik təhlükəsizlik məsələlərinə həsr olunmuş konfranslarda iştirak etmək mənin üçün sadəcə bir vəzifə deyil, bu, həm də çox xoşdur. İcazə verin bu əhəmiyyətli konfransda iştirak edən bütün həmkarlarımı və qonaqları səmimi salamlayım. Biz NATO Baş Katibinin bu yaxınlarda başladığı NATO-nun strategiya sənədinin hazırlanması prosesinə töhfə verməkdən çox məmnunuq. Düşünürəm ki, bu sənəd NATO sənədlərinin iyerarxiyasında təsisedici Vaşinqton Müqaviləsindən sonra ən əhəmiyyətli sənəddir.

Azərbaycanın nöqteyi-nəzərinə görə, bu proses sadəcə İttifaq çərçivəsində qalmamalıdır və çox müsbət haldır ki, tərəfdaş dövlətlər də təkcə iştirakçı kimi deyil, həm bu kimi tədbirlərin ev sahibi kimi prosesə töhfə verməyə dəvət edilir. Biz hamımız bilirik ki, biz indi başlanğıcdayıq. Biz bilirik ki, müxtəlif ideyaların və konsepsiyaların inkişaf etdirilməsi üçün bir çox seminarlar və konfranslar keçirilməlidir. Daha sonra bunların uğurlu nəticəsi olaraq, müəyyən layihələr Baş Katibə təqdim ediləcək ki, o da bu layihələrin əsasında öz layihəsini irəli sürəcəkdir. Yəni biz hələ lap başlanğıcdayıq. Amma yəqin ki, biz zamanın tələbi olan Strateji Konsepsiyanın hazırlanması üçün üzərimizə məsuliyyət götürməyə tam hazırıq. Bilirik ki, NATO son 10 ildə Strateji Konsepsiyasında hər hansı dəyişiklik etməmişdir. Bu gün bu prosesin başlanması zamanında atılmış bir addımdır. Bu, heç də qəribə təsadüf deyil ki, biz bununla eyni zamanda ATƏT çərçivəsində də Avropa təhlükəsizlik arxitekturası və ya Avropa təhlükəsizlik müqaviləsi ilə bağlı başqa bir strategiyanın hazırlanması prosesinin getməsinin şahidi oluruq. Düşünürəm ki, bu iki proses təkcə zaman etibarilə üst-üstə düşmür, eləcə də onlar arasında sıx qarşılıqlı əlaqə vardır.

İndiki məqamda biz ilk əvvəl bir suala cavab tapmalıyıq – NATO-nun Avro-Atlantik təhlükəsizlik üçün strategiyası ümumi sistemdə NATO-nun mərkəzi roluna əsaslanan mərkəzçi yanaşmaya əsaslanacaqdır, yoxsa bununla kifayətlənməyərək, müxtəlif ölkələri və müxtəlif qurumları da əhatə edən çevik və koordinasiya edilən geniş bir sistem anlayışı qəbul ediləcəkdir.

Mənim ölkəm və digər bəzi ölkələr üçün sistemli yanaşma Avro-Atlantik təhlükəsizlik konsepsiyasına ən önəmli yanaşmadır. Çünki bizimlə NATO üzv-dövlətləri arasındakı status fərqliliyi bizim üçün çox həssas vəziyyət yaratmaqdadır. Biz Avro-Atlantik təhlükəsizlik məkanındakı hazırkı şəraitdə təhlükəsizlik məsələlərini nəzərdən keçirəndə, bu, xüsusilə belədir. Hesab edirəm ki, bu proses boyunca biz böhranlar və NATO-nun həyata keçirdiyi əməliyyatlar da daxil olmaqla, xüsusilə Əfqanıstan əməliyyatı, təhlükəsizliyin bütün mümkün elementlərini və aspektlərini ətraflı nəzərdən keçirməliyik.

Bu böhranlardan və əməliyyatlardan çıxarılmış dərslər NATO və onun əməliyyatlarının effektivliyini artırmaqda faydalı olmalıdır. NATO və üzv olmayan ölkələr, xüsusilə də bütün Avro-Atlantik məkandakı və digər regionlardakı tərəfdaşlar arasındakı əməkdaşlıq Avro-Atlantik təhlükəsizlik məkanının bölünməzliyini və bütünlüyünü təmin etmək baxımından ən həlledici məqamdır.

Son 20 ildə biz bir sıra hadisələrin şahidi olmuşuq. Biz NATO-ya yeni üzv dövlətlərin qəbul edilməsini görmüşük. Amma eyni zamanda biz bəzi böhranların və gərgin hadisələri görmüşük. 2008-ci ilin avqust hadisələri göstərdi ki, heç kim tam təhlükəsiz deyil və bəzi hallarda Vaşinqton Müqaviləsi də köməyə çatmır, Tərəfdaşlıq isə təhlükəsizliyi təmin etmək üçün yetərli deyildir. Ona görə yeni bir inkişafa ehtiyac vardır. Sülh Naminə Tərəfdaşlıq artıq yalnız üzvlüyə hazırlamaq üçün bir mexanizm olaraq görülməməlidir. Biz SNT-nin 1994-cü ilin yanvarında ortaya atılan ilkin ideyasıyla məhdudlaşmamalıyıq. Biz bu tərəfdaşlığı artıq mövcud olan münasibətlər sistemi olaraq qəbul edərək, onu daha da inkişaf etdirməli və NATO və müxtəlif səbəblərə görə - geosiyasi, iqtisadi, zamanla və ya coğrafiya ilə bağlı - NATO-ya üzv ola bilməyən dövlətlər arasında yeni tipli münasibətlər qurmalıyıq. Biz Avro-Atlantik məkandakı institutlar arasındakı münasibətləri də nəzərdən keçirməliyik.

Biz Avro-Atlantik məkanın bloklara bölünməsi ehtimalından narahatıq. Bu, baş verərsə, Azərbaycan kimi ölkələr çox çətin vəziyyətə düşəcəkdir. Nəticə etibarilə, təhlükəsizlik vakuumu yarana bilər. Belə olan təqdirdə, bu ölkələrin təhlükəsizlik siyasətləri təcili dəstəyə ehtiyac duyacaqdır. Bu nöqteyi-nəzərdən, ən effektiv dəstək ittifaqlara qoşulmamış Avropa və Avro-Atlantik ölkələrinə təhlükəsizlik qarantiyalarının verilməsi olardı. Hamının tanıdığı və bağlı qaldığı belə təhlükəsizlik qarantiyaları heç olmasa müstəqil müəyyənləşdirilə və proqnozlaşdırıla bilən və məsuliyyətli təhlükəsizlik siyasətləri üçün hüquqi baza rolunu oynayardı. Eyni zamanda, müxtəlif institutlar arasındakı münasibətlər bu gün bizim gördüyümüzdən fərqli olaraq, bir-birləri ilə daha az rəqabət etməlidirlər. Bunu deməklə yanaşı, mən bu institutlar arasındakı çətinlikləri də anlayıram.

Biz bir-birinə rəqib olan imkanların və hərbi qurğuların artmasını müşahidə edirik. Həmçinin biz səlahiyyət sahələri və ayrı-ayrı böhranlara müdaxilə etməklə bağlı rəqabəti müşahidə edirik. Biz bir qurumun digər qurumun fəaliyyətinə olan tənqidi münasibətini də müşahidə edirik. Biz effektivlik məsələləri ilə bağlı tənqidləri eşidirik və bu bəzən üzv olmayan dövlətlər üçün siyasi çətinliklər yaradır. Azərbaycan bunu öz təcrübəsindən bilir, çünki biz Əfqanıstandakı ISAF əməliyyatına töhfə veririk, biz İraqda olmuşuq, və biz Kosovada olmuşuq, sonra isə siyasi səbəblərə görə qüvvələrimizi Kosovadan çıxarmışıq. Amma o vaxtdan etibarən biz Əfqanıstandakı qüvvələrimizin sayını artırırıq. Biz sözlə, biz bu gün ordayıq və hesab edirik ki, biz daha fəal şəkildə bu prosesin bir hissəsi olmalıyıq.

Digər məsələ Avro-Atlantik məkanların gələcək əlaqəliliyi və NATO üzv və qeyri-üzv dövlətlərinin iştirakı ilə qurulacaq təhlükəsizlik sisteminin səmərəliliyidir. Biz yalnız siyasi yekdillikdən, əvvəl qeyd etdiyim kimi ümumi məqsədlərdən asılı deyilik, anladığımız kimi NATO-nun strateji məqsədi yalnız NATO-nun Avro-Atlantik məkanlarda mərkəzi rolunu vurğulamaq, sübut etmək və mümkünlüyünə yol açmaqdan ibarət olmamalıdır, əsas məqsəd Avro-Atlantik məkanların özünün təhlükəsizliyi olmalıdır. Məqsəd bu cür təhlükəsizliyə yardımçı və dəstəkləyici sistemin qurulması olmalıdır.

Ümumi məqsədlər və bununla bağlı ümumi anlayış mövcud olduğu halda, biz siyasi yekdillikdən danışa bilərik. Təhlükəsizlik təminatlarının öz yerində olduğu və müəyyən qanunvericilik tədbirlərinin təmin edildiyi halda, biz hüquqi yekdillikdən və mövqelərin yaxınlaşdırılmasından danışa bilərik, lakin bu təcrübi qarşılıqlı uyarlılıq ilə dəstəklənməlidir. İttifaq üzvləri və tərəfdaşlar arasında etibara əsaslanan hərbi və hərbi-texniki əməkdaşlıq və mübadilə qənaətbəxş səviyyədə olmadığı halda, həmçinin kəşfiyyat məlumatlarının və texnologiyaların mübadiləsi qənaətbəxş səviyyədə olmadığı halda, fikrimcə təcrübi qarşılıqlı uyarlılıq kifayət qədər güclü olmayacaq və sonda daha çox avqust-gərginlikli münasibətlər sınağı ilə üz-üzə qalacaq və fikrimcə strategiyanın bəyan edilmiş məqsədinə nail ola bilməyəcəyik.

Fikrimcə, təcrübi qarşılıqlı uyarlılıq yalnız üzvlüyə açıq qapılar siyasətinə deyil, həmçinin, tərəfdaşlığa açıq qapılar siyasətinə əsaslanmalıdır. Tərəfdaşlıq daha çox üzvlüyə hazırlıq yolu kimi nəzərdən keçirilir. Lakin, biz yeni vəziyyətlərə hazır olmalıyıq.

Əsas konseptual çəkişmə və yanlışlıq ötən il baş verdi: mümkün genişlənmə prosesi çərçivəsində münasibətlərin mövcud durumunun düzgün qiymətləndirilməməsi və NATO üzvlərinin hüquqi çərçivə yaradılmamış bu cür çağırışı ram etməyə hazır olmaması. Beləliklə, bu prosesdə çətinlik həm hüquqi boşluqlardan, həm SNT doktrinasının köhnəlməsindən, eləcə də təcrübi qarşılıqlı uyarlılığın qənaətbəxş səviyyədə olmamasından irəli gəlir.

Həmçinin, biz SNT çərçivəsində tədbirlərinin keyfiyyətini artırmalıyıq, çünki 2008-ci il avqust böhranı islahatların səmərəliliyinə, konseptual məsləhətlərin səmərəliliyinə, öz vaxtında dəyərli olduğu kimi tanınan və sınaq zamanı özünü doğrultmayan bu məşvərətçi dəstəyin səmərəliliyinə dair təbii məntiqi suallar qoymuşdur .

Mənim ölkəm də daxil olmaqla, bir çox dövlətlərin təhlükəsizlik birlikləri NATO-nun Beynəlxalq Katibliyi və NATO dövlətlərinin mütəxəssisləri ilə birlikdə tərəfdaşlığın konseptual inkişafı imkanlarını və islahatlar siyasətini yenidən nəzərdən keçirməyə və təhlil etməyə hazırdır. NATO tərəfindən təklif olunan təhlükəsizlik islahatları siyasətinin konseptual elementlərinin sütununu üzə çıxarmaq məqsədilə NATO ilə bu cür tədbir faydalı olacaq. 2008-ci il avqust hadisələrinin, Əfqanıstan təcrübəsinin, həmçinin NATO dövlətlərinin cəlb olunduğu ən son və aşkar böhran və təcrübələrin dərslərinin öyrənilməsi yalnız üzv deyil, tərəfdaş dövlətlərdə də milli təhlükəsizlik sistemlərin səmərəliliyinin təkmilləşdirilməsi üçün təcrübi tədbirlər ilə müşayiət olunmalıdır.

Bunlar mənim son qeydlərim idi. Hamınıza iştirakınıza və diqqətinizə görə minnətdaram. Təşəkkür edirəm, cənab Sədr.

cənab Araz Əzimov
Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini







## NATO-nun Yeni Strateji Konsepsiyası yolunda

Cənab Nazir müavini Əzimov, maraqlı çıxışınıza görə çox sağ olun.

Bu konfransa ev sahibliyi etməsi və qonaqpərvərliyə görə biz Azərbaycanın hakimiyyət orqanlarına minnətdarıq. Konfransda iştirak səviyyəsindən çox məmnunuq və əminik ki, məhsuldar müzakirələrimiz olacaq.

Öz çıxışımda mən transformasiya və onun tərəfdaşlığa mümkün aidiyyatına diqqəti yönəltməklə Alyansın yeni Strateji Konsepsiyasının hazırlanması üzrə fikirlərimi ifadə edəcəyəm.

Yeni konsepsiya NATO-nun gələcək fəaliyyətinin formalaşdırılmasında əhəmiyyətli bir siyasət sənədi olacaq. Bu, Alyansa əməliyyatlardakı fəaliyyətini təkmilləşdirmək, daha yaxşı qabiliyyətlər əldə etmək və tərəfdaşlıqlarını gücləndirməkdə yardım edəcək.

Baş Katibin tez-tez vurğuladığı kimi, Strateji Konsepsiya ilə bağlı hazırda davam edən məsləhətləşmə prosesi NATO-nun indiyə qədər həyata keçirdikləri sırasında ən açıq və hamını ən çox ehtiva edən olmalıdır.

**Tarixi kontekst**
İcazə verin Strateji Konsepsiya üzrə cari işin bəzi tarixçəsi barədə Sizə məlumat verim. Soyuq müharibənin başa çatmasından sonra NATO iki strateji konsepsiya qəbul etmişdir.

Bunlardan birincisi, Berlin divarlarının yıxılmasından cəmi iki il sonra - 1991-ci ildə qəbul edilmişdir. Bu konsepsiya diqqəti müstəsna olaraq ərazi müdafiəsinə yönəltmə yanaşmasından müəyyən qədər kənara çıxmağa başlayır və təhlükəsizliyin daha geniş tərifi üzrə və onun dialoq, əməkdaşlıq, böhranların idarə edilməsi və münaqişələrin önlənməsi metodları daxil olmaqla necə təmin edilməsi üçün daha geniş konsepsiya verirdi. Bu səbəbdən o, NATO-nun siyasi və müdafiə fəaliyyətlərinə dərin təsir buraxmışdır. Bununla yanaşı, 1991-ci ildə Strateji Konsepsiyanın qəbul olunmasından az sonra Sovet İttifaqı dağıldı və Yuqoslaviyanın çaxnaşmalı parçalanması NATO-nun ilk sülhü qoruma və sülh yaratma əməliyyatına və Avropa Təhlükəsizlik və Müdafiə İdentikliyinə marağın artmasına gətirib çıxardı. Bu və digər hadisələr NATO-nun strategiyasında dəyişikliklər edilməsini zəruri etdilər.

Soyuq müharibədən sonrakı ikinci Strateji Konsepsiya 1999-cu ildə qəbul olunmuşdur. Bu sənəd və Alyansın təhlükəsizlik vəzifələrində davamlılıq və dəyişiklik arasında diqqətlə hazırlanmış tarazlıq saxlayır, amma böhranlara cavab əməliyyatlarına daha artıq vurğu verir. Bu sənəd həmçinin keçmiş Varşava Müqaviləsi Təşkilatı ölkələri ilə əməkdaşlığın daha artmasının əhəmiyyətini vurğulayırdı. Sənəd NATO-nun açıq qapı siyasətini təsdiq edir. 1999-cu il Konsepsiyası əməkdaşlıq və tərəfdaşlığı fundemantal təhlükəsizlik vəzifəsi kimi təsvir edir. Sənəddə həmçinin, çəkindirmə və kollektiv müdafiədən tutmuş böhranlara cavab əməliyyatlarına qədər öngörülən vəziyyətlərdə effektiv ola biləcək hərbi qabiliyyətlərlə bağlı tələblər qoyulur.

2006-cı ildə 1999-cu ilin Strateji Konsepsiyası Alyans daxilində qabiliyyətlərin sonrakı inkişafı üçün çərçivə yaradan Müfəssəl Siyasi Rəhbər Sənəd ilə daha da gücləndirilmiş və əlavə edilmişdir. Müfəssəl Siyasi Rəhbər Sənəd ölkələrin sahib ölkənin qismən və ya heç bir dəstəyi olmadan, strateji uzaqlıqda geniş spektrli hərbi əməliyyatlar aparmağa qadir, açıla bilən, saxlanıla bilən və çevik qüvvələr yaratmaları və ortaya çıxartmalarına ehtiyacı vurğulayır. Müfəssəl Siyasi Rəhbər Sənəd Alyansın müdafiə transformasiyası baxımından vacib sənəddir. Bu həmçinin, bizim diqqətimizin uzaq məsafələrdə böhranlara cavab əməliyyatlarının aparılması üçün kifayət qədər qabiliyyətləri – taktiki və strateji hava daşımaları, rabitə, arxa cəbhə təminatı və quru qüvvələrinin istifadəliliyini təmin etməyə yönəlməsinin arxasındakı əsas faktordur. Bu məsələyə az sonra qayıdacağam.

Digər əsas siyasət sənədi – NATO-nun qüvvə planlaması prosesinin əsası olan 2006-cı il

Nazirlər Təlimatı – o cümlədən, NATO-nun hərbi ambisiyasının səviyyəsini təsbit edir. Bu ambisiya səviyyəsi Alyansın apara bilməli olduğu əməliyyatların sayı və növünü müəyyən etdiyinə görə o bizim qabiliyyətlərimizin qiymətləndirilməsi üçün standart qoyur. Nazirlər Təlimatı müttəfiqlərin eyni zamanda bir neçə əməliyyat aparmağa qabil olmasını öngörür – müəyyən dərəcədə isə NATO üçün Soyuq Müharibə dövründə olduğundan daha çox tələbkar rol müəyyən edir.

1999-cu il Strateji Konsepsiyası və ona əsaslanan sənədlər NATO-nun məqsəd və hədəfləri üzrə aydın baxış verir. Bununla belə, son on ildə baş vermiş dəyişikliklərə cavab olaraq strategiyamızın uyğunlaşdırılması üçün vaxt yetişmişdir.

Əlbəttə təhlükəsizlik vəziyyətinin özü də dəyişmişdir. ABŞ-a qarşı 11 sentyabr 2001-ci il hücumları beynəlxalq ictimaiyyətinin böyük hissəsinin baxışını dəyişmişdir. NATO müttəfiqlərinin sayı 16-dan 28-ə çatmış və NATO Avropanın hüdudlarından çox uzaqda əhəmiyyətli əməliyyatlara cəlb olunmuşdur. Bundan əlavə, biz indi çoxlu sayda yeni risk və təhdidlərlə üzləşirik. Bunlar sırasına terrorçuluq, tənəzzül etmiş dövlətlər, kütləvi qırğın silahlarının yayılması, kiber müdafiə, həyati əhəmiyyətli enerji resurslarına qarşı risklər və piratlıq daxildir. Və biz hazırda iqlim dəyişikliyinin mümkün təhlükəsizlik təsirlərini müzakirə etməyə başlayırıq.

**Yeni Strateji Konsepsiya nə etməlidir?**

Hesab edirəm ki, yeni Strateji Konsepsiya meydana çıxan təhlükəsizlik mühitində NATO-nun oynaya biləcəyi və oynamalı olduğu rolu inandırıcı şəkildə əks etdirməlidir. Bu, NATO-nun əsas fəaliyyətləri, o cümlədən, onun zəruri kollektiv müdafiə roluna xidmət edən və uzaq məsafələrdə böhranlara cavab əməliyyatları və Alyansın strateji çevrəsindəki tərəfdaşları ilə təkamül edən əlaqələri ilə bağlı fəaliyyətləri arasında yeni balans tapmalı olacaq.

Real təsirə malik olmaq və lazımlı olmaq üçün, hesab edirəm ki, yeni Strateji Konsepsiya aşağıdakı vacib məsələləri nəzərdən keçirməlidir: yeni strateji çağırış və təhdidlər; Şimali Amerika və Avropa arasında əlaqə; kollektiv müdafiənin gələcəkdə mənası; 5-ci maddə və qeyri-5-ci maddə böhranlarına cavab arasında yeni balans; böhranlara cavab ilə bağlı müfəssəl mülki-hərbi yanaşmaya NATO-nun məzmunlu töhfəsi; müdafiə transformasiyası; genişlənmənin gələcəyi; tərəfdaşlıq və əməkdaşlıqların gələcəyi: və Rusiya ilə əlaqələr. Müttəfiqlərin Çin və Hindistan kimi beynəlxalq arenaya çıxan güclərlə gələcəkdə münasibətlərə toxunmaq istəyib-istəmədikərini görəcəyik. İcazə verin bu məsələlərin bəzilərinin üzərində bir qədər dayanım.

2001-ci ilin sentyabrında ABŞ-a qarşı hücumlar tarixdə ilk dəfə olaraq Vaşinqton Müqaviləsinin 5-ci maddəsinin işə salınmasına gətirib çıxardı. Hələ bu sözün ənənəvi hərbi mənasında hücum deyildi. Buna oxşar olaraq, iki il əvvəl Estoniyada baş vermiş hadisələrin göstərdiyi kimi bir kiber hücum bir nəfər də olsun əsgərin sərhədi keçmədən ölkənin iqtisadiyyatı və fəaliyyət göstərmə qabiliyyətini iflic edə bilər. Bu ilin əvvəlində gördüyümüz kimi, bir ölkənin enerji təchizatının pozulması heç bir ənənəvi hərbi iştirak olmadan ölkənin iqtisadi və ictimai həyatı üçün dramatik nəticələrə gətirib çıxara bilər.

11 sentyabr təcrübəsi müttəfiq ölkələrin hökumətlərində NATO-nun təhdidlərlə, haradan gəlməsindən asılı olmayaraq məşğul ola bilməli olduğu qənaətini yaratdı. Daha geniş götürsək, bütün müttəfiqlər, bəlkə xüsusilə Alyansın periferiyasındakı müttəfiqlər, Alyansın onların təhlükəsizliyi üçün ən yaxşı qarantiya olduğuna əmin olmalıdırlar. Beləliklə, mən gözləyirəm ki, Alyans 5-ci maddənin mərkəzi rolunu bir daha təsdiq edəcək, amma eyni zamanda hazırkı strateji mühitdə necə görünməli olduğunu təsbit edəcək. Nəticə etibarı ilə yeni təhdidlər bu günkü "kollektiv müdafiə"nin aydın başa düşülməsinə ehtiyacı artırırlar.

Hazırkı əməliyyatlarını uğurla aparmaq və yeni təhlükəsizlik təhdidlərini qarşılamaq üçün Alyans özünün müdafiə qabiliyyətlərinin transformasiyası sahəsində əhəmiyyətli uğur əldə edib və belə də davam edir. Yeni Strateji Konsepsiya bu məqsədi yenidən bəyan etməli və buna necə çatmalı olduğumuzu göstərməlidir. Aydındır ki, o, islahat edilmiş müdafiə planlaşdırılması prosesi və NATO-nun rəhbərlik etdiyi əməliyyatların maliyyələşdirilməsi daxil olmaqla transformasiya fəaliyyətlərinin davam etdirilməsi üzrə səyləri əks etdirəcək. Bu səylər əlbəttə, əməliyyatların dəstəklənməsinə, yəni, ortaq maliyyələşdirmə vasitəsi ilə yükün paylaşılması və NATO Cavab Qüvvələrini real əməliyyatlara göndərməyə hazırlamağa yönəlməlidir. Bizim yeni təhdidlərlə məşğul olmaq qabiliyyətlərimiz daha da inkişaf etdirilməlidir.



Alyansın son on ildəki əməliyyatlarından öyrənilmiş dərslər göstərir ki, bu günün təhlükəsizlik çağırışları beynəlxalq ictimaiyyətin müfəssəl yanaşmasını tələb edir. Bu, Balkanlarda və ya Əfqanıstanda olmasında asılı olmayaraq, əməliyyatlarımızın uzun müddətli sülh və sabitliyə imkan yaradacaq şəkildə mümkün qədər tez başa çatdırılması üçün hərbi və mülki qabiliyyətlərin ahəngdar şəkildə bir araya gətirilməsini tələb edir. Bu, təhlükəsizlik olmadan inkişafın və inkişaf olmadan təhlükəsizliyin mümkün olmaması kimi sadə fakta əsaslanır.

Ona görə də yeni Strateji Konsepsiya heç bir beynəlxalq institutun özünəyetərli olmadığını və NATO-nun bütün təhlükəsizlik məsələləri, məs. Əfqanıstan ilə təcrid olunmuş şəkildə məşğul ola bilməyəcəyini aydın göstərməlidir. BMT və Ai kimi başqa təşkilatlarla gücləndirilmiş əməkdaşlığın uğur əldə etmək üçün zəruri olması şübhəsiz, mətndə vurğulanacaq. Ötən il imzalanmış NATO-BMT Bəyannaməsi bu istiqamətdə ümidverici addımdır.

Eyni zamanda, Aİ-nin 1999-cu il Strateji Konsepsiyasının istinad etdiyi Avropa Təhlükəsizlik və Müdafiə İdentikliyindən daha irəli olan Avropa Təhlükəsizlik və Müdafiə Siyasətinin inkişaf etdirilməsindəki tərəqqisi NATO və Aİ arasında sıx əməkdaşlığın və tamamlayıcı səylərin və təqdim edilən qabiliyyətlərin potensial faydasını göstərir. Amma iştirak formatı, ümumi anlaşmanın olmaması və eləcə də arzu edilən əməkdaşlığın əhatə dairəsi səbəbindən tərəqqi əldə etmək çətin olaraq qalır.

Amma təkcə 21 üzvü deyil, həm də dəyərlər və məqsədləri paylaşan bu iki təşkilat arasında əməkdaşlıq bir cah-cəlal deyil, zərurətdir. Ümid edirəm ki, yeni Strateji Konsepsiya bütün tərəflərin NATO-Aİ münasibətlərindəki bütün potensialı tam olaraq açmaq ilə bağlı siyasi öhdəliklərində artım ilə üst-üstə düşəcək.

Tərəfdaşlıqları sırasında NATO-nun Rusiya ilə çox əhəmiyyətli, amma etiraf etmək lazımdır ki, mürəkkəb münasibətləri vardır. Bu münasibətlər bir sıra məsələlər üzrə ciddi fikir ayrılıqlarından zərər çəkmişdir. Amma Baş Katibin 18 sentyabrdakı çıxışında göstərdiyi kimi, NATO-Rusiya əlaqələri seçim məsələsi deyil, bir zərurətdir. NATO və Rusiya Əfqanıstanın sabitləşdirilməsi, silahlara nəzarət, tərksilah və KQS-ın yayılmaması kimi bir sıra təhlükəsizlik maraqlarını paylaşırlar. Biz problemlərin həll edilməsi və praktiki əməkdaşlıq yaratmaq naminə NATO-Rusiya Şurasından bütün məsələlər - təkcə razılaşdığımız deyil, həm də fikir ayrılığımızın olduğu məsələlər üzrə - siyasi dialoq üçün bir forum kimi istifadə etməyə sadiqik.

NATO həmçinin yeni çağırışlarla bağlı öz yanaşmasını müəyyən etməlidir. Biz gördük ki, kiber hücumlar və ya enerji təchizatının kəsilməsi ölkənin təhlükəsizliyini təhdid edə bilər. Kiber hücumların və ya enerji təchizatının kəsilməsinin ölkənin təhlükəsizliyinə təhdid yaratdığını gördük. Biz dəniz quldurluğunun mütəşəkkil cinayətkarlığın bir forması kimi böyük təhlükəsizlik çağırışı olaraq geri qayıtmasının şahidi oluruq. Eyni zamanda İranın nüvə proqramı KQS-in yayılması kimi təzyiq edən çağırışa nümunə olmaqda davam edir.

**Nəticələr**

İcazə verin yekunlaşdırım: NATO özünün siyasi və hərbi siyasətini, strukturları və prosedurlarını əhəmiyyətli dərəcədə transformasiya etmişdir. Amma transformasiya davamlı bir prosesdir və ona görə də təşkilatın özü səviyyəsində davam etməlidir. Eyni zamanda hamıya aydın olmalıdır ki, söhbət təkcə bir təşkilat kimi NATO-dan getmir; müttəfiqlərin və tərəfdaşların hər birinin müdafiə qurumları və silahlı qüvvələrinin yeni çağırış və təhdidlərə uyğunlaşmağa dair iradə və qabiliyyətləri daha əhəmiyyətlidir.

1999-cu il Strateji Konsepsiyasını hazırlayarkən 11 sentyabr hücumlarını proqnozlaşdıra bilmədiyimiz kimi, qarşıdan gələn 5-10 il ərzində nə baş verəcəyini də proqnozlaşdıra bilmərik. Amma tərəfdaşlıq və əməkdaşlığın Alyans üçün fundamental təhlükəsizlik vəzifəsi olaraq qalacağı yəqindir.

Bunun kontekstində bu konfrans bizə Strateji Konsepsiyada əks olunacaq strateji mühitdəki dəyişikliklər nəzərə alınmaqla transformasiyanın xüsusiyyətləri və tərəfdaşlığa mümkün təsiri üzrə müzakirələr aparmağa imkan verir.

Mən konfransımızın Sədr Hesabatını 14 oktyabr tarixində AATŞ səfirlərinə təqdim edəcəyəm. İnanıram ki, bu hesabat vasitəsi ilə konfransımız NATO-nun yeni Strateji Konsepsiyasının hazırlanması prosesinə töhfə verəcək.

Çox sağ olun.

cənab Yiri ŠEDIVÝ
Müdafiə Siyasəti və Planlaşdırma üzrə
NATO Baş Katibinin Müavini

I.I

# FƏSİL I: AZƏRBAYCAN – NATO ƏMƏKDAŞLIĞINA GİRİŞ

Fəsil I | Bölmə I

## Azərbaycan-NATO əməkdaşlığı haqqinda ümumi arayiş

«Azərbaycan Respublikası Avropa və Avro-Atlantik məkanda qeyri-sabitliyin, münaqişələrin və təhdidlərin aradan qaldırılmasında NATO ilə birgə işləyir və təhlükəsizliyin bölünməzliyi prinsipinə zidd olan coğrafi və siyasi ayrı-seçkilik olmadan Avropa və yerləşdiyi regionda vahid təhlükəsizlik sisteminin qurulması yükünü bölüşmək əzmindədir».

Milli Təhlükəsizlik Konsepsiyası, 23 may 2007

**Giriş**

Azərbaycan-NATO ilk təmasların tarixi Azərbaycanın Mərkəzi və Şərqi Avropanın və keçmiş Sovet İttifaqının 37 dövləti ilə birlikdə yeni yaradılmış məşvərətçi foruma – Şimali Atlantika Əməkdaşlıq Şurasına (ŞAƏŞ) (sonralar, 1997-ci ildə Avro-Atlantik Tərəfdaşlıq Şurasına (AATŞ) çevrilmişdir) qoşulduğu 1992-ci ilin mart ayına təsadüf edir.

Azərbaycan Respublikası ilə NATO arasında məzmunlu tərəfdaşlığın əsası Azərbaycan Respublikasının Prezidenti Zati-Aliləri cənab Heydər Əliyevin 4 may 1994-cü il tarixində SNT Çərçivə Sənədi imzalaması ilə qoyulmuşdur.

Azərbaycan Respublikası NATO ilə tərəfdaşlığı onun Avro-Atlantik strukturlara inteqrasiya strateji məqsədinə xidmət edir. Azərbaycan NATO ilə tərəfdaşlığında əsas istiqamətlər siyasi dialoq, sülhü dəstəkləmə əməliyyatlarında iştirak və əsas vurğusu müdafiə məsələlərinə yönələn geniş spektrli məsələlər üzrə praktiki əməkdaşlıqdan ibarətdir. Azərbaycan-NATO tərəfdaşlığı fərdi əsaslarla qurulub. Eyni zamanda, Azərbaycan AAŞT-nin işində də fəal iştirak edir.

Azərbaycan SNT Çərçivə Sənədi və fərdi tərəfdaşlığının əsas sənədlərində əks olunmuş məqsəd və prinsiplərin yerinə yetirilməsi məqsədi ilə müvafiq tərəfdaşlıq mexanizmlərindən fəal istifadə edir. Azərbaycanın NATO ilə fərdi tərəfdaşlığının məqsəd və prinsiplərini müəyyən edən əsas milli sənədlər sırasında 1996-cı ildə hazırladığı SNT Təqdimat Sənədi, 2004-cü ildə hazırladığı FTƏP Təqdimat Sənədi və 2007-ci ildə qəbul olunmuş Milli Təhlükəsizlik Konsepsiyası qeyd edilməlidir. Bu sənədlərdə Azərbaycan Respublikası demokratikləşmə, müdafiə və təhlükəsizlik sektoru islahatı, hərbi qüvvələrin NATO standartlarına uyğun inkişaf etdirilməsi, NATO əməliyyatlarında iştirak, fövqəladə hallara hazırlıq, terrorçuluğa qarşı mübarizə, eləcə də ətraf mühit və ictimai diplomatiya sahələrində əməkdaşlıq niyyətini ifadə etmişdir.

Qeyd edilən sahələrdə praktiki əməkdaşlığa imkan verən Fərdi Tərəfdaşlıq Proqramı (FTP), PAP və FTƏP mexanizmlərindən istifadə edilir. FTP əsasən NATO strukturları və üzv ölkələri və bəzi tərəfdaş ölkələr tərəfindən təşkil edilən, hazırlığın artırılmasına və ekspert müzakirələrinə xidmət edən tədbirlərdə (hərbi təlim, kurs, konfrans və s.) iştiraka şərait yaradır. Azərbaycan 1996-cı ildən başlayaraq, hər il FTP çərçivəsində orta hesabla 200-dən artıq tədbirdə iştirak edir.

Digər mühüm mexanizm, NATO qüvvələrinin iştirakı ilə çoxmillətli əməliyyatlara və hərbi təlimlərə göndərilə biləcək qüvvələri müəyyən etmək və qiymətləndirməkdə tərəfdaşlara yardım etməyi nəzərdə tutan PAP-dır. PAP ilə tərəfdaş ölkəyə NATO təcrübəsinə uyğun

müdafiə planlamasının təşkil edilməsinə də yardım edilir. Azərbaycan hazırda əməliyyatlara hazırlıq və müdafiə islahatları üzrə "tərəfdaşlıq məqsədi" adlanan bir çox konkret tədbir həyata keçirir. Azərbaycan, tərəfdaşların əməliyyata hazırlığını daha effektiv təşkil etməyə yardım məqsədi ilə 2002-ci ildə təsis edilmiş Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) adlanan spesifik mexanizmdə davamlı tərəqqi əldə edir.

Azərbaycanın 2004-cü ildə qoşulduğu FTƏP ikitərəfli tərəfdaşlığı sistemləşdirməyə və eləcə də qarşılıqlı maraq doğuran istənilən məsələ ilə bağlı əməkdaşlıq tədbiri razılaşdırmağa imkan verir. Azərbaycan 2005-2007-ci illəri əhatə edən I dövrə FTƏP-i başa çatdırmış, hazırda 2008-2010-cu illəri əhatə edən II dövrə sənədini yerinə yetirir.

Aşağıdakı sahələr Azərbaycan-NATO tərəfdaşlığının əsas istiqamətlərini təşkil edir:

**Siyasi dialoq**
Azərbaycan-NATO dialoqu ilk günlərdən dərin məzmunlu və sıx olmuşdur. Siyasi dialoq Azərbaycan və NATO rəsmilərinin davamlı təmasları, Zirvə Toplantılarında iştirak və NATO+1 formatında aparılan müntəzəm müzakirələr ilə həyata keçirilir. 1994-cü ildən başlayaraq Azərbaycan Respublikasının Prezidenti indiyə qədər beş dəfə (1994, 1996, 2004, 2006, 2009) NATO mənzil-qərargahına səfər etmiş, beş dəfə (1997, 1999, 2002, 2004, 2008) AATŞ Zirvə Görüşlərində iştirak etmişdir. NATO-nun Baş Katibi indiyədək dörd dəfə (1998, 2001, 2003, 2004) Azərbaycana səfər etmişdir.

«Azərbaycan Respublikası Avro-Atlantik Tərəfdaşlıq Şurası və NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramı çərçivəsində NATO ilə mümkün olan tərəfdaşlıq vasitələrindən tam gücü ilə istifadə edir. Bu baxımdan Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı NATO ilə əməkdaşlığın yaxın və orta perspektivdə daha da gücləndirilməsi yolunda mühüm bir vasitədir. Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planından Azərbaycan Respublikasının təhlükəsizlik sektorunun islahatlar yolu ilə NATO standartlarına yaxınlaşdırılması və siyasi dialoqun inkişaf etdirilməsi üçün bir mexanizm kimi bundan sonra da istifadə olunacaqdır».

Milli Təhlükəsizlik Konsepsiyası, 23 may 2007

Hazırkı siyasi dialoq zamanı Avro-Atlantika məkanında təhlükəsizlik, Cənubi Qafqaz regionunda vəziyyət, Ermənistan-Azərbaycan münaqişəsi, Əfqanıstan məsələsi, enerji təhlükəsizliyi kimi aktual məsələlər müzakirə olunur, eləcə də praktiki əməkdaşlığın vəziyyətinə qiymət verilir. Qarşılıqlı anlayışa əsaslanan, yüksək səviyyəli siyasi dialoq praktiki əməkdaşlıq sahəsində tərəqqini təşviq edir.

**NATO-nun rəhbərlik etdiyi sülhü dəstəkləmə əməliyyatlarında iştirak**
Azərbaycan Respublikası Avro-Atlantik məkanda təhlükəsizliyin bölünməzliyi prinsipindən çıxış edərək, BMT Təhlükəsizlik Şurasının qətnamələri ilə sanksiyalaşdırılmış, NATO-nun rəhbərlik etdiyi sülhü dəstəkləmə əməliyyatlarında iştirak edir.

Azərbaycan 1999-2008-ci illərdə NATO-nun Serbiyanın Kosovo əyalətindəki əməliyyatında (KFOR) iştirak etmiş, 2008-ci ildə bu bölgədə siyasi vəziyyətin dəyişməsindən sonra öz qüvvələrini oradan çıxarmışdır.

Azərbaycan 2003-cü ildən NATO-nun Əfqanıstandakı əməliyyatında (ISAF) iştirak edir. Azərbaycan ISAF-da iştirakını davamlı genişləndirir. Hazırda Azərbaycanın 90 nəfərlik birliyi ISAF əməliyyatının tərkibində xidmət edir. Azərbaycan Əfqanıstanda sülh və sabitliyin bərqərar olunması üzrə NATO çərçivəsində və digər beynəlxalq siyasi proseslərdə yaxından iştirak edir və Əfqanıstan hökuməti ilə müntəzəm təmaslar saxlayır.

**Praktiki əməkdaşlıq**
Azərbaycan-NATO tərəfdaşlığının əsas sütunlarından olan praktiki əməkdaşlığın əsas istiqamətləri sırasına aşağıdakılar daxildir:

- **Müdafiə və təhlükəsizlik sektoru islahatları**
Qeyd edilən sahədə islahatlarda əsas məqsəd NATO standartlarının tətbiqi ilə mülki-demokratik nəzarət altında, effektiv və ölkənin ehtiyaclarına uyğun ölçüdə müdafiə və təhlükəsizlik sektorunu inkişaf etdirməkdir. NATO tərəfi bu sahədə əsasən ekspertiza xarakterli yardım edir.

Silahlı Qüvvələrdə korpus səviyyəsinə qədər NATO-nun struktur standartları tətbiq olunub. Müdafiə Nazirliyi və Baş Qərargahın NATO standartlarına uyğun yenidən qurulması ilə bağlı səylər davam edir. ƏİK proqramı vasitəsi ilə Azərbaycan 2008-ci ildə NATO qüvvələri ilə tam qarşılıqlı uzlaşan bir birlik hazırlamışdır. Eyni zamanda hərbi təlim və təhsilin NATO standartlarına uyun inkişaf etdirilməsi istiqamətində səylər davam etdirilir.

Dövlət Sərhəd Xidmətinin NATO ilə əməkdaşlığında əsas məsələlər hüquq-mühafizə tipli təşkilata mümkün transformasiya və terrorizmə qarşı mübarizə kontekstində sərhəd nəzarətinin təkmilləşdirilməsi ilə bağlı NATO ölkələrinin ekspertiza yardımının əldə edilməsidir.

Dövlət Sərhəd Xidmətində olduğu kimi, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının da əməkdaşlığında əsas mümkün transformasiya ilə bağlı NATO ölkələrinin ekspertiza yardımının əldə edilməsidir. Amma Daxili Qoşunların beynəlxalq əməliyyatlara cəlb edilməsi ilə müəyyən perspektivlər vardır və hazırda NATO ilə əməkdaşlıq şəraitində Daxili Qoşunların birliklərinin əməliyyatlara hazırlanması üzrə konkret tədbirlərin həyata keçirilməsi imkanları araşdırılır.

- **Fövqəladə hallara hazırlıq**
Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin yaradılmasından sonra NATO ilə geniş mülki fövqəladə planlaşdırma sahəsində əməkdaşlıq genişlənməyə başlamışdır. Bu sahədə əməkdaşlığın əsas istiqamətini fövqəladə hallara hazırlıq sahəsində milli imkanların artırılmasına NATO-nun ekspertiza yardımının əldə edilməsidir. Azərbaycan həmçinin, Avro-Atlantik Tərəfdaşlıq Şurası çərçivəsində mülki fövqəladə planlaşdırma ilə bağlı müxtəlif tədbirlərdə fəal iştirak edir.

- **Terrorizmə qarşı mübarizə**
Azərbaycan Terrorizmə qarşı Tərəfdaşlıq Fəaliyyət Planının (PAP-T) məqsədlərinin yerinə yetirilməsinə töhfə məqsədi ilə NATO ilə əməkdaşlıq edir və AATŞ çərçivəsində müvafiq tədbirlərdə iştirak edir. Azərbaycan tərəfdaş ölkələr arasında bu sahədə öz fəallığı ilə seçilir. Milli qabiliyyətlərin inkişaf etdirilməsi üçün ekspertiza yardımının əldə edilməsi, məlumat mübadiləsi və AATŞ çərçivəsində siyasi müzakirələrə töhfə terrorizmə mübarizə sahəsində qarşılıqlı təmasların əsas məsələləridir. Enerji infrastrukturlarının mühafizəsi üzrə qeyri-formal PAP-T İşçi Qrupuna sədrliyi ilə Azərbaycan PAP-T-nin canlandırılmasına töhfə verməkdə davam edir.

- **Elm, ekoloji və humanitar məsələlər**
Müfəssəl xarakterə malik Azərbaycan-NATO tərəfdaşlığı sırf hərbi məsələlər ilə yanaşı elm, təhsil, ekologiya və humanitar məsələləri də əhatə edir. 2006-2008-ci illərdə NATO maliyyəsi və ekspertizası ilə Mingəçevir və Ələt ərazisində keçmiş sovet ordusundan qalma 1400 ton, vaxtı keçmiş, yüksək zəhərli raket yanacağının zərərsizləşdirilməsi üzrə 2.2 milyon avro məbləğində layihə həyata keçirmişdir.

Növbəti bu tipli layihə NATO və tərəfdaş ölkələrin təşkil etdiyi könüllü maliyyələşmə fondu ("NATO/Sülh Naminə Tərəfdaşlıq Etimad Fondu") ilə Ağstafa rayonunun Saloğlu qəsəbəsi yaxınlığında 4400 hektarlıq ərazinin keçmiş sovet ordusundan qalma partlamamış hərbi sursatlardan təmizlənməsi və həmin sursatların zərərsizləşdirilməsinə xidmət edir. Bu ərazinin böyük bir hissəsi artıq təmizlənmişdir.

Bundan əlavə, NATO-nun yardımı ilə Xəzər dənizinin və digər su hövzələrinin ekoloji problemlərinin öyrənilməsi və elmi həlli yollarının hazırlanması üzrə layihələr həyata keçirilir. NATO-nun Virtual İpək Yolu layihəsi Azərbaycanın elm və təhsil institutlarını yüksək sürətli internetlə təmin edir və onların Avropanın elm və təhsil mühitinə inteqrasiyasına yardım edir.

- **İctimai diplomatiya**
Azərbaycan hökuməti Avro-Atlantik inteqrasiya strateji məqsədinin, o cümlədən, NATO ilə tərəfdaşlığına ictimaiyyətin dəstəyinin əldə edilməsi məsələsinə həmişə böyük əhəmiyyət vermiş və bu sahədə konkret tədbirlər görmüşdür.

Azərbaycan hökuməti, ölkə gənclərinin təşəbbüsü ilə yaradılan Azərbaycan NATO Beynəlxalq Məktəbinin (NISA) fəaliyyətini dəstəkləyir. Hər il Azərbaycan və xaricdən onlarla tələbə və gəncin iştirak etdiyi Avro-Atlantik təhlükəsizliyi məsələləri üzrə tədbirləri təşkil edən NISA hazırda beynəlxalq reputasiyalı təhsil, elmi tədqiqat və təlim

mərkəzi kimi formalaşmaqdadır. Azərbaycan hökuməti və NATO-nun birgə dəstəyi ilə Bakıda və Gəncədə fəaliyyət göstərən Avro-Atlantik Mərkəzlər ictimaiyyətin Avro-Atlantik inteqrasiya və NATO-Azərbaycan tərəfdaşlığı haqqında məlumatlanmasına öz töhfələrini verirlər.

- **Spesifik əməkdaşlıq layihələri**
  Çevik əməkdaşlığa imkan verən FTƏP vasitəsilə hazırda NATO ilə bir neçə spesifik əməkdaşlıq layihələri üzərində iş aparılır. Bunlar sırasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi üzrə layihələr və Xarici İşlər Nazirliyi Diplomatik Akademiyasının imkanlarının genişləndirilməsi üzrə layihələri qeyd etmək olar.

Yuxarıda qeyd edilən sahələr üzrə daha ətraflı məlumat broşürun növbəti hissəsində ayrı-ayrı məqalələr vasitəsilə əldə edilə bilər.



# I.II

Fəsil I | Bölmə II

## Azərbaycan-NATO əməkdaşlığının əsas inkişaf xronologiyası

| | |
|---|---|
| **1992** | |
| 31 mart | Azərbaycan yeni təsis edilmiş ŞAƏŞ-ə qoşulur. |
| **1994** | |
| 10-11 yanvar | Brüsseldə keçirilmiş NATO Zirvə Toplantısında NATO ilə fərdi tərəfdaş dövlətlər arasında təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlığı gücləndirmək məqsədini daşıyan SNT proqramı təsdiq olunur. Bu proqrama ŞAƏŞ-ə cəlb olunan bütün tərəfdaşlar, o cümlədən ATƏM-in iştirakçı dövlətləri dəvət olunur. |
| 4 may | Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev SNT Çərçivə Sənədini imzalayır. |
| **1995** | |
| 31 oktyabr | Azərbaycan ilə NATO arasında həssas və/və ya imtiyazlı məlumatların qorunması üzrə Təhlükəsizlik Sazişi imzalanır. |
| **1996** | |
| 19 aprel | Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev Azərbaycanın SNT Təqdimat Sənədini təsdiq edir. |
| 23 aprel | Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev NATO MQ-yə səfəri zamanı Azərbaycanın SNT Təqdimat Sənədini NATO-nun Baş Katibi cənab Xaviyer Solanaya təqdim edi |
| 14 oktyabr | ŞAŞ Azərbaycanın ilk FTP-ni təsdiq edir. |
| **1997** | |
| 13 fevral | NATO-nun Baş Katibi cənab Xaviyer Solana Azərbaycana səfər edir. O, Prezident tərəfindən qəbul edilir, Milli Məclisdə çıxış edir və bir sıra digər dövlət rəsmiləri ilə görüşlər keçirir. |
| 30 may | ŞAƏŞ AATŞ ilə əvəz olunur. |
| 14 noyabr | Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev NATO ilə əməkdaşlığı daha da gücləndirmək tədbirləri haqqında Sərəncam imzalayır. Sərəncama müvafiq olaraq, müxtəlif Nazirliklərdən ibarət NATO ilə Əməkdaşlıq üzrə xüsusi Komissiya yaradılır. |
| 21 noyabr | Azərbaycan Respublikasının Prezidenti Azərbaycanın NATO yanında diplomatik Nümayəndəliyinin təsis edilməsi barədə Sərəncam imzalayır. |
| noyabr | Azərbaycan tərəfdaşlar arasında ilkin dövlətlərdən biri kimi NATO-nun əməliyyatlar üzrə müdafiə planlaşdırmasına onun daha sıx cəlb edilməsi məqsədini daşıyan PAP-a qoşulur. |

| 1998 | |
|---|---|
| 12 may | Üzvlüyə dəvət almış üç dövlət də daxil olmaqla, NATO Siyasi Komitəsinin “19+1” formatında keçirilən iclasında Azərbaycanın SNT-də iştirakı və regional təhlükəsizlik məsələləri müzakirə edilir. |
| 30 sentyabr - 1 oktyabr | NATO-nun Baş Katibi cənab Xaviyer Solana Azərbaycana səfər edir. O, Prezident, Milli Məclisin spikeri, Baş Nazir və digər dövlət rəsmiləri ilə görüşlər keçirir və “Çıraq-1” neft platformasını, Bakı Ali Hərbi Məktəbini və Azərbaycan Silahlı Qüvvələrinin Sülhməramlı Bölüyünü ziyarət edir. |
| 15 noyabr | Azərbaycan NATO-nun SNT üzrə Qüvvələrinin Statusu barədə Sazişi (SOFA) və ona Əlavə Protokolu imzalayır. Saziş 20.11.1999-cu il tarixində qüvvəyə minir. |

| 1999 | |
|---|---|
| 1 sentyabr | Azərbaycan Serbiyanın Kosovo əyalətində NATO-nun başçılığı ilə keçirilən sülhməramlı əməliyyata dəstək vermək məqsədilə oraya bir tağım göndərir. |
| sentyabr | AATŞ çərçivəsində Qafqazda regional əməkdaşlıq üzrə xüsusi İşçi Qrupu yaradılır. |

| 2000 | |
|---|---|
| 27-28 aprel | NATO Hərbi Komitəsinin sədri admiral Q. Venturoni Azərbaycana səfər edir. Səfər zamanı  Azərbaycan qurumları ilə Azərbaycan-NATO hərbi əməkdaşlığının gələcək perspektivləri müzakirə olunur. |

| 2001 | |
|---|---|
| 16-17 yanvar | NATO-nun Baş Katibi cənab Corc Robertson Azərbaycana səfər edir. O, Prezident, Milli Məclisin spikeri, Baş Nazir, Xarici İşlər Naziri, Müdafiə Naziri və digər dövlət rəsmiləri ilə görüşlər keçirir. Baş Katib Bakı Dövlət Universitetinin fəxri doktoru adına layiq görülür. |

| 2002 | |
|---|---|
| 17-18 yanvar | NATO PA-nın Prezidenti cənab Rafael Estrella Azərbaycan Parlamentinin spikerinin dəvətinə əsasən Bakıya səfər edir. NATO PA-nın Prezidenti səfər zamanı Hökumət və Parlamentdə yüksək rütbəli rəsmilər ilə görüşlər keçirir. |
| 15 noyabr | Azərbaycan ISAF əməliyyatlarına dəstək məqsədilə Əfqanıstana sülhməramlı tağım göndərir. |
| 15-19 noyabr | NATO Parlament Assambleyası Azərbaycana assosiativ üzvü statusunun verilməsi ilə bağlı qərar qəbul edir. |

| 2003 | |
|---|---|
| 2 aprel | Azərbaycan ilə NATO arasında SNT Etimad Fondu üzrə Sazişin icrasına dair NAMSA Anlaşma Memorandumu imzalanır. |
| 23 aprel | NATO MQ-də Saloğlu Etimad Fondu təqdim olunur və NATO dövlətləri tərəfindən təsdiq edilir. NAMSA və ANAMA bu layihənin icraçı qurumları təyin olunurlar. |
| 15 may | NATO-nun Baş Katibi cənab Corc Robertson növbəti dəfə Azərbaycana səfər edir. O, Virtual İpək Yolu Layihəsinin açılışında, NATO ilə Əməkdaşlıq üzrə Komissiyanın iclasında iştirak edir və Milli Məclisdə çıxış edir. Səfər zamanı Azərbaycan Baş Katibə FTƏP-ə qoşulmaq niyyəti haqqında rəsmən məktub təqdim edir. |



| 2004 | |
|---|---|
| mart | Azərbaycan NATO ƏİK-yə qoşulur və bir piyada bölüyünü ƏİK Qiymətləndirmə və Rəy Proqramı çərçivəsində NATO əməliyyatları üçün ortaq qüvvələr birliyinə bəyan edir. |
| 19 may | Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev NATO MQ-yə səfər edir, Azərbaycanın birinci FTƏP Təqdimat Sənədini NATO-nun Baş Katibi cənab Yaap de Hoop Sxefferə təqdim edir və ŞAŞ-da çıxış edir. |
| 28 iyun | Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev NATO-nun İstanbul Zirvə Toplantısında iştirak edir. ZIrvə Görüşündə Müttəfiq liderlər Qafqaza xüsusi diqqət yönəldirlər – Region üzrə NATO-nun xüsusi nümayəndəsi və əlaqələndirici zabiti təyin olunur. |
| 6 iyul | Azərbaycan Xarici işlər naziri cənab E.Məmmədyarov NATO MQ-yə səfər edir. Səfər zamanı Azərbaycanın FTƏP-ə qoşulması və təcrübi əməkdaşlıqla bağlı bir sıra digər məsələlər müzakirə edilir. |
| 15 sentyabr | NATO-nun Baş Katibi Qafqaz və Mərkəzi Asiya üzrə birinci xüsusi nümayəndəsini təyin edir. |
| 17 sentyabr | FTƏP Təqdimat Sənədində əks olunmuş təhlükəsizlik sektorunun islahatı barədə məqsədlərə müvafiq olaraq Prezidentin Sərəncamı ilə Azərbaycanın Milli Təhlükəsizlik Siyasəti üzrə İşçi Qrupu yaradılır. |
| 4-5 noyabr | NATO-nun Baş Katibi cənab Yaap de Hoop Sxeffer Azərbaycana səfər edir. O, Prezident və Xarici işlər naziri ilə görüşlər keçirir və NATO ilə Əməkdaşlıq üzrə Komissiyanın iclasında iştirak edir. |

| 2005 | |
|---|---|
| 6-9 fevral | Baş Katibin Qafqaz və Orta Asiya üzrə xüsusi nümayəndəsi cənab Robert Simmons Bakıya səfər edir. O, Prezident tərəfindən qəbul edilir və bir sıra Nazirliklərdə görüşlər keçirir. |
| 14 fevral | Azərbaycan ilə NATO arasında Azərbaycan üzrə SNT Etimad Fondunun Maliyyə İdarəçiliyi üzrə Saziş imzalanır. |
| 27 may | ŞAŞ Azərbaycanın birinci FTƏP sənədini təsdiq edir. |
| 3 avqust | Azərbaycan Prezidenti FTƏP-in icrası üzrə Sərəncam imzalayır. |
| 17-20 noyabr | NATO Baş Katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi cənab Simmons növbəti dəfə Bakıya səfər edir. O, Prezident tərəfindən qəbul edilir, Saloğlu Etimad Fondunun açılış mərasimində və NATO ilə Əməkdaşlıq üzrə Komissiyanın nazir müavinləri səviyyəsində iclasında iştirak edir, Müdafiə və Milli Təhlükəsizlik Nazirliklərində və Dövlət Sərhəd Xidmətində görüşlər keçirir və Bakı Dövlət Universitetinin tələbələri qarşısında çıxış edir. |

| 2006 | |
|---|---|
| fevral | NATO ekspertləri Bakıda Azərbaycanın FTƏP sənədinin yerinə yetirilməsi üzrə qiymətləndirmə aparır. |
| 15 mart | Həmin ekspertlər Azərbaycanın FTƏP sənədinin yerinə yetirilməsi üzrə Qiymətləndirmə Hesabatı hazırlayır. Hesabatda FTƏP-in yerinə yetirilməsində Azərbaycan tərəfindən əhəmiyyətli uğur əldə edildiyi qeyd edilir. |
| 9-12 aprel | NATO Baş Katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi cənab Simmons növbəti dəfə Bakıya səfər edir. O, Prezident tərəfindən qəbul edilir, Xarici İşlər, Müdafiə, Daxili İşlər və Milli Təhlükəsizlik Nazirliklərində və Milli Məclisdə görüşlər keçirir və NATO ilə Əməkdaşlıq üzrə Komissiyanın nazir müavinləri səviyyəsində iclasında iştirak edir. |
| aprel | Ağstafa rayonunun Saloğlu kəndində keçmişdə hərbi baza olmuş ərazidən partlamamış hərbi sursatların təmizlənməsi üzrə NATO SNT Etimad Fondu layihəsi fəaliyyətə başlayır. |

| 2006 | |
|---|---|
| iyul | NATO-nun Sülh və Təhlükəsizlik Naminə Elm Proqramının dəstəyi ilə Azərbaycanda kəskin formada zəhərli maddə olan melanjın gübrəyə çevrilməsi üzrə zavod fəaliyyətə başlayır. |
| 8-10 oktyabr | NATO Baş Katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi cənab Simmons növbəti dəfə Bakıya səfər edir. |
| 8 noyabr | Azərbaycan Respublikasını Prezidenti cənab İlham Əliyev NATO Baş Katibi ilə görüşür və ŞAŞ-ın iclasında çıxış edir. |
| 28-29 noyabr | NATO üzv-dövlətləri ŞAŞ-ın Riqada keçirilmiş görüşündə qəbul edilmiş Bəyanata əsasən Azərbaycanın ərazi bütövlüyünü, müstəqilliyini və suverenliyini dəstəkləyir. |

| 2007 | |
|---|---|
| 11-16 fevral | NATO ekspertləri Bakıda Azərbaycanın FTƏP sənədinin yerinə yetirilməsi üzrə qiymətləndirmə aparır. |
| 14-17 mart | NATO Baş Katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi cənab Simmons Bakıya səfər edir. |
| 2 may | Azərbaycan Xarici işlər naziri cənab E.Məmmədyarov NATO MQ-yə səfər edir. |
| 27-28 sentyabr | NATO Baş Katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi cənab Simmons Bakıya səfər edir. |
| 19 oktyabr | Azərbaycan Əfqanıstanda hərbi kontingentini iki dəfə artırır. |

| 2008 | |
|---|---|
| 4 mart | Azərbaycan hərbi qulluqçuları KFOR üzrə missiyalarını başa çatdırır. |
| 5 mart | NATO Parlament Assambleyasının Prezidenti cənab Jose Lello Azərbaycana bir günlük səfər edir və Prezident, Baş Nazir, Xarici İşlər və Müdafiə Naziri ilə görüşlər keçirir. |
| 7 mart | Azərbaycan and NATO ikinci FTƏP sənədini razılaşdırılar. |
| 2-4 aprel | Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Buxarest şəhərində keçirilmiş NATO/AATŞ və İSAF formatlı Zirvə Toplantılarına qatılır. NATO üzv-dövlətləri Buxarest Zirvə Toplantısının Bəyanatına əsasən Azərbaycanın ərazi bütövlüyünü, müstəqilliyini və suverenliyini dəstəkləyir. |
| 21-25 aprel | NATO ekspertləri Bakıda Azərbaycanın FTƏP və PAP sənədinin yerinə yetirilməsi üzrə qiymətləndirmə aparır. |
| 25 iyun | Melanj layihəsi başa çatır. |
| 17 sentyabr | Azərbaycan Xarici işlər naziri cənab E.Məmmədyarov NATO MQ-yə səfər edir. |
| 2 oktyabr | Azərbaycan Əfqanıstanda hərbi kontingentini yenidən iki dəfə artırır. |
| 2 dekabr | NATO üzv-dövlətlərinin Xarici işlər nazirləri yenidən Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə və münaqişənin bu prinsiplər əsasında həllinə dəstək ifadə edir. |
| 9 dekabr | Azərbaycan Xarici işlər naziri cənab E.Məmmədyarov NATO MQ-yə səfər edir. |
| 16 dekabr | NATO Baş Katibinin müavini Səfir Klaudio Bisogniero Azərbaycana səfər edir. |



| 2009 | |
|---|---|
| 3-4 aprel | NATO-nun Strasburq/Kehl şəhərlərində keçirilmiş Zirvə Toplantısında İttifaq Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə və regiondakı münaqişələrin bu prinsiplər nəzərə alınaraq həllinə dəstəyini yenidən ifadə edir. |
| 20-23 aprel | NATO ekspertləri Bakıda Azərbaycanın FTƏP və PAP sənədinin yerinə yetirilməsi üzrə qiymətləndirmə aparır. |
| 29 aprel | Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev NATO Baş Katibi ilə görüşür və ŞAŞ-da çıxış edir. |
| 11-12 iyun | Azərbaycan Müdafiə Naziri NATO MQ-yə səfər edərək NATO Müdafiə Nazirlərinin görüşündə iştirak edir. |
| 15 iyul | Azərbaycan Xarici işlər naziri cənab E.Məmmədyarov NATO MQ-yə səfər edir və ŞAŞ+Azərbaycan görüşünə qatılır. |

I.III

Fəsil I | Bölmə III

# Azərbaycanda NATO ilə əməkdaşlıq çərçivəsində keçirilmiş tədbirlər

| | |
|---|---|
| 4-6 noyabr 97 | “Cooperative Demand” adlı komanda-qərargah təliminin hazırlıq seminarı. Bu Azərbaycanda keçirilən ilk NATO/ SNT tədbiri idi. |
| 27-28 may 99 | AATŞ çərçivəsində ASMQ-nin sessiyası. Görüş zamanı NATO Baş Katibinin siyasi məsələlər üzrə müavini, Səfir Klaus-Piter Klayberin rəhbərliyi ilə yüksək rütbəli NATO nümayəndə heyəti Azərbaycana səfər edir. |
| 20-21 iyul 00 | NATO/AATŞ çərçivəsində “Qafqazda enerji təhlükəsizliyi” adlı konfrans. |
| 12-13 iyun 01 | NATO/AATŞ çərçivəsində “Təbii və texnogen fəlakətlər zamanı ərazilərdə xilasetmə dəstələrinin yerləşdirilməsi” adlı seminar. |
| 21-22 iyun 01 | Azərbaycan və İsveçrə Hökumətinin “Yüngül və atıcı silahlar: ATƏT və AATŞ-in cari öhdəliklərinin həyata keçirilməsi üçün təcrübi çağırışlar” adlı birgə seminarı |
| 05-17 noyabr 01 | “Cooperative Determination” komanda-qərargah təlimi. Böhranlara cavab əməliyyatları zamanı qarşılıqlı hərbi uyarlılığın təkmilləşdirilməsi məqsədini daşıyan təlimə 9 NATO və 10 Tərəfdaş dövləti qatılır. |
| 16-17 noyabr 01 | NATO/AATŞ çərçivəsində “Balkanlarda regional əməkdaşlığın nümunəvi təcrübəsi” adlı seminar. |
| 7-8 may 02 | NATO-nun MCÇK ilə birgə təşkil edilmiş “Xəzər Dənizinin ekoloji problemləri” adlı seminar. |
| 27-28 iyun 02 | NATO/AATŞ çərçivəsində “Cənubi Qafqazda regional əməkdaşlığa təhdidlər” adlı seminar. Baş Katibin siyasi məsələlər üzrə müavini cənab Günter Altenburq seminarda iştirak edir. |
| 5-6 may 03 | “Terrorizm, narkotiklərin qaçaqmalçılığı, mütəşəkkil cinayətkarlıq və digər qeyri-qanuni fəaliyyətlər arasında əlaqələr” NATO/AATŞ seminarı. Seminara NATO Baş Katibinin siyasi məsələlər üzrə köməkçisinin müavini Səfir Daniel Spekhard sədrlik edir. |
| 25 iyun 03 | Azərbaycanın Saloğlu kəndində həyata keçirilən SNT Etimad Fondu üzrə beynəlxalq maarifləndirmənin gücləndirilməsi məqsədilə ANAMA tərəfindən təşkil edilən donor konfransı. |
| 3-8 iyul 03 | “21-ci əsrin liderləri” adlı ilk NATO Yay Məktəbi. |
| 5-10 iyul 04 | Dəyişən dünyada dəyişən NATO” mövzusunda növbəti NATO Yay Məktəbi. |
| 28-29 oktyabr 04 | NATO-nun Xüsusi Komitəsinin İşçi Qrupunun AATŞ formatında NATO MQ-dən kənarda keçirilən ilk iclası. |



| | |
|---|---|
| 2-3 fevral 05 | NATO Baş Katibinin regional, iqtisadi və siyasi məsələlər üzrə müavini cənab Patrik Hardouinin iştirakı ilə “İqtisadiyyat, Təhlükəsizlik və Müdafiə - makroiqtisadi sabitləşmənin təhlükəsizlik aspektləri və müdafiə üçün mövcud olan resursların idarə olunması daxil olmaqla struktur islahatları” adlı seminar. |
| 23-24 iyun 05 | “İnteqrə edilmiş sərhəd idarəetməsi və sərhəd təhlükəsizliyi standartlarının inkişaf etdirilməsi” üzrə NATO/AATŞ seminarı. |
| 31 dekabr 05 – 6 yanvar 06 | “Avro-Atlantik məkanında enerji təhlükəsizliyi” mövzusunda NİSA Sessiyası. Tədbir Bakı və Quba şəhərlərində keçirilir. |
| 3-8 iyul 06 | “NATO həftəsi” çərçivəsində Avro-Atlantik Mərkəzinin (NATO İnformasiya Ofisi) rəsmi açılışı baş verir, “Üç dəniz məkanında Avro-Atlantik inteqrasiya perspektivləri” mövzusunda NİSA yay sessiyası və Terrorizmlə Mübarizəyə həsr olunmuş seminar keçirilir. İctimai Diplomatiya üzrə NATO Baş Katibinin müavini cənab Jan Furne tədbirdə iştirak edir. |
| 6-7 iyul 06 | “PAP-T-nin əməliyyatlaşdırılması: Tərəfdaşların terrorizmlə mübarizə üzrə NATO əməliyyatlarına töhfəsi və bu əməliyyatlarda iştirakı” mövzusunda AATŞ seminarı. |
| 10-17 dekabr 06 | “Üç dəniz məkanında təhlükəsizliyin gücləndirilməsi: müfəssəl yanaşma necə qurulmalı” mövzusunda NİSA Sessiyası. |
| 6-12 iyun 07 | “Avro-Atlantik məkanında enerji təhlükəsizliyi və mühüm infrastrukturun mühafizəsi” mövzusunda NİSA Sessiyası. |
| 10-11 iyul 07 | “Enerji infrastrukturun təhlükəsizliyi” üzrə AATŞ Kollokviumu. |
| 10-15 December 07 | “Avro-Atlantik məkanında sülh əməliyyatları: çağırışlar və perspektivlər”. |
| 6-8 mart 08 | NATO və Mərkəzi Asiya və Əfqanıstan da daxil olmaqla, tərəfdaş dövlətlərin 50-dək nümayəndəsinin iştirakı ilə “Xəzər regionunda təhlükəsizlik” mövzusunda 68-ci Roz-Rot seminarı. |
| 16-21 iyun 08 | “Böhranların idarə edilməsi” mövzusunda NİSA Sessiyası. |
| 26-27 iyun 08 | NATO və tərəfdaş dövlətlərin, həmçinin digər beynəlxalq təşkilatların 50-dən çox nümayəndəsinin iştirakı ilə NATO və Azərbaycan XİN-in təşkilatçılığı əsasında SNT Etimad Fondu seminarı. |
| 22 oktyabr 08 | NISA-nın 5 illiyinə həsr olunmuş tədbir. |
| 26-31 yanvar 09 | “Yeni müharibə və müasir münaqişələr” üzrə NİSA Sessiyası. |
| 5 may 09 | Azərbaycanın SNT Çərçivə Sənədinə qoşulmasının 15-ci ildönümünü qeyd etmək məqsədilə “NATO-Azərbaycan: keçmişin qiymətləndirilməsi, gələcəyə baxış” mövzusunda yüksək səviyyəli konfrans. |
| 10-11 iyun 09 | “Enerji təhlükəsizliyi: çağırışlar və imkanlar” mövzusunda AATŞ seminarı. |
| 16-17 iyun 09 | Avrasiya Hüquqşünaslar Assosiasiyası və Azərbaycan Hüquqşünaslar Konfederasiyasının təşkilatçılığı ilə “Azərbaycan Respublikasının Hüquq-mühafizə orqanları və silahlı qüvvələrində aparılan islahatların Avro-Atlantik məkana inteqrasiyada rolu” Konfransı. |
| 22-26 iyun 09 | “Böhranların idarə edilməsi milli imkanların gücləndirilməsi” mövzusunda ali təlim kursu. |
| 29 iyun – 05 iyul 09 | “Dəniz təhlükəsizliyi” üzrə NİSA Yay Sessiyası. |
| 14-15 sentyabr 09 | Azərbaycanda su resurslarının idarə olunmasına həsr olunmuş seminar. |
| 22-25 sentyabr 09 | “MFP-də və nəticələrin aradan qaldırılmasında səmərəli təcrübələr” mövzusunda seminar.. |
| 01 oktyabr 09 | Müdafiə Siyasəti və Strategiyası üzrə SNT Konfransı. |







# FƏSİL II: AZƏRBAYCAN-NATO HƏRBİ ƏMƏKDAŞLIĞI



## Azərbaycan - NATO Hərbi Əməkdaşlığı: qazanılmış təcrübə və gələcək perspektivlər

**Hərbi əməkdaşlıq vasitəsilə uyarlı qüvvələrə doğru**

Azərbaycan-NATO əməkdaşlığı 1992-ci ilin martında, Azərbaycanın digər 37 ölkə ilə birlikdə, Şimali Atlantik Əməkdaşlıq Şurasına (ŞAƏŞ) qoşulması ilə başlamışdır və 1997-ci ildən etibarən bu beynəlxalq təşkilat Avro-Atlantik Tərəfdaşlıq Şurasına (AATŞ) çevrilmişdir. Azərbaycan NATO ilə əməkdaşlığına, torpaqlarının 20%-nin işğalı və bir milyondan çox Azərbaycanlıya qarşı geniş miqyaslı etnik təmizləmə ilə nəticələnmiş Ermənistanın silahlı təcavüzünün nəticəsində yaranmış, olduqca təhlükəli və əlverişsiz şəraitdə başlamışdır. 1994-cü ilin 4 may tarixində Azərbaycan SNT Çərçivə Sənədini imzalayaraq, bu proqrama qoşulmuşdur. Bu sənədin əsasında, digər Tərəfdaşlarla birlikdə, Azərbaycandan beş əsas məqsədin yerinə yetirilməsi xahiş olunmuşdur:

- milli müdafiə planlaması və maliyyələşdirməsi prosesində şəffaflığın təmin edilməsi;
- müdafiə qüvvələrin demokratik nəzarəti üçün zəmanətin yaradılması;
- BMT / və yaxud ATƏT-in cavabdehliyi altında keçirilən əməliyyatlara töhfənin verilməsi üçün imkan və hazırlığın təmin edilməsi;
- sülhə dəstək, axtarış və xilasetmə və humanitar sahələri üzrə missiyalara qatılmaq üçün, Tərəfdaşların imkanlarının gücləndirilməsi məqsədi ilə, birgə planlama, məşq və təlimlər vasitəsi ilə, NATO ilə hərbi əməkdaşlığın inkişaf etdirilməsi;
- Uzunmüddətli məqsəd kimi, Alyansın qüvvələri ilə tam uyarlı qüvvələrin inkişaf etdirilməsi.

Bu məqsədlər, xüsusən də Azərbaycan Silahlı Qüvvələri və NATO arasında mövcud olan hərbi əməkdaşlıq, NATO-Azərbaycan münasibətlərinin əsasını təşkil etmişdir. Geniş miqyaslı təlim və tədris imkanlarını təmin etməklə, FTP, SNT-nin ən praktiki aləti olmuşdur. Hər il Azərbaycan hərbiçiləri SNT çərçivəsində hərbi əməkdaşlığın müxtəlif sahələrini əhatə edən təlim və tədris tədbirlərində iştirak edirlər. Azərbaycan FTP-nin keyfiyyət və məqsədi, son on il ərzində daima inkişaf etdirilmişdir və adətən il ərzində 200-dən çox tədbiri əhatə edir. Müdafiə Nazirliyi ilə yanaşı, digər müvafiq dövlət təşkilatları da, mütəmadi olaraq FTP-nin planlaşdırılması və yerinə yetirilməsi prosesinə cəlb olunurlar. FTP məqsədi çərçivəsində, Azərbaycanın əsas prioritetləri aşağıdakı sahələrə yönəlmişdir: Hərbi Təhsil, Təlim və Doktrina; Xarici Dil Hazırlığı; Hərbi Təlimlər və Təlimlə Bağlı Tədbirlər; Müdafiə Planlaşdırılması və Strategiyası; Sülhməramlı Qüvvələrin Konsepsiyası, Planlaşdırılması və Əməliyyat Sahələri; Maddi Texniki Təminat; Rabitə və İnformasiya Sistemləri daxil edilməklə, Məsləhətləşmə, Komandanlıq və Nəzarət; Müdafiənin Planlaşdırılması, Büdcə.

1997-ci ildə Azərbaycan, NATO standartları və prosedurlarına uyğun olaraq müdafiə və qüvvə planlaşdırması üçün özülün təmini, Müttəfiq qüvvələr ilə uyarlılığa nail olunması və xüsusi ilə də çoxmillətli məşq, təlim və əməliyyatlar üçün müyəssər ola biləcək qüvvə və imkanların təsis edilməsi məqsədlərinə yönəlmiş, SNT-nin PAP-na qatılmışdır. PAP çərçivəsində göstərilmiş bu məqsədlərə nail olunması və qüvvələrin SNT məşq və təlimlərinə və NATO-nun başçılığı altında aparılan əməliyyatlara müyəssər edilməsi üçün, Azərbaycanın Müdafiə Nazirliyi elə həmin ildə sülhməramlı qüvvələrini yaratmışdır.

1999-cu ildə NATO-nun Vaşinqton Zirvə

Toplantısında, Alyans, Genişləndirilmiş və Daha Əməli Tərəfdaşlıq üzrə meyarlar dəstini təsdiq etmişdir. Bu dəst dörd əsas komponentdən ibarət idi:

- NATO-nun başçılığı altında aparılan sülhməramlı əməliyyatlar üçün Siyasi-Hərbi Çərçivə (SHÇ):
- Genişləndirilmiş və uyğunlaşdırılmış Planlaşdırma və Analiz Prosesi (PAP)
- Əməliyyat İmkanları Konsepsiyası (ƏİK):
- Təlim və Təhsilin Genişləndirilməsi Proqramı (TTGP).

Bu meyarlar, Azərbaycanın, NATO və Müttəfiqlər ilə əməkdaşlığının dərinləşməsi və genişlənməsi üçün yeni təkan verilmişdir. O zamandan başlayaraq, müdafiə və qüvvələrin planlaması sahəsində NATO-nun məsləhətini, dəstəyini və rəhbərliyini təmin etməkdə, PAP əhəmiyyətli rol oynayır. Hər il, Azərbaycan, NATO ekspertləri və Müttəfiqlərlə birgə, cari milli hərbi və müdafiə məqsədlərini dəstəkləmək üçün Tərəfdaşlıq Məqsədləri toplusunun icmalı və gələcək inkişafını həyata keçirir. Azərbaycan tərəfindən qəbul olunmuş Tərəfdaşlıq Məqsədlərinin sayı, 1997-ci ildən etibarən, davamlı olaraq artmışdır. Adətən bu toplu, hərbi və müdafiə sahələrinin geniş aspektlərini əhatə edən və sülhməramlı əməliyyatlara təxsis edilmiş qüvvələrin özülünü təşkil edən, 40-45 Tərəfdaşlıq Məqsədini özünə daxil edir.

2001-ci ilin 5-17 noyabr tarixində, Azərbaycanda, 9 NATO üzvü və 10 Tərəfdaşın iştirak etdiyi, "Cooperative Determination" SNT təlimi keçirilmişdir. Cooperative Determination 2001, böhranlara cavab əməliyyatları üçün, hərbi uyarlılığın inkişafı məqsədini daşıyan, kompüter dəstəyi əsasında, Komanda Qərargah Təlimi olmuşdur. İştirakçıların çoxmillətli briqada səviyyəsində sülhə dəstək əməliyyatları və humanitar yardım prosedurаları üzrə təlimi üçün, çoxmillətli briqada qərargahı və səyyar tibb vasitəsi təşkil olunmuşdur. Bu təlim, Alyans qüvvələri ilə uyarlığa nail olunması prosesində, daha bir vacib addım olmuşdur.

Azərbaycanın PAP prosesində müvəffəqiyyətli iştirakı, 2001-ci ildə Sülhməramlı Taborun yaradılması ilə nəticələnmişdir. NATO-nun başçılığı altında aparılan əməliyyatlar üçün təyin edilmiş qüvvələrin bir çoxu hazırdır və ya 2010-cu ilin sonunadək hazır olacaqdır ki, bu da ki, PAP çərçivəsində qəbul olunmuş Tərəfdaşlıq Məqsədlərinin yerinə yetirilməsinin gələcək inkişafına zəmanət verir.

Əməliyyat uyarlığının genişləndirilməsi və milli imkanların inkişafı üçün, PAP prosesinin tamamlanması məqsədi ilə, 2004-cü ildə Azərbaycan özünün bir piyada bölüyünü, Əməliyyat İmkanları Konsepsiyasının Qiymətləndirmə və Rəy (ƏİK Q&R) proqramı çərçivəsində, Qüvvələr Birliyinə elan etmişdir. NATO Qüvvələri ilə əməliyyat uyarlılığını genişləndirməsi və NATO-nun başçılığı altında aparılan tam həcmli əməliyyatların tələblərinə hazır olmaq üçün, Azərbaycan, ƏİK Q&R-dən istifadə etməklə, xüsusi mobil (ani cavab) taborun təlimini davam etdirməkdədir. 2008-ci ildə bu taborun bir bölüyü, birinci səviyyədəki qiymətləndirmə prosesini müvəffəqiyyətlə başa vurmuşdur. Bu bölüyün 2010-cu ildə ikinci səviyyəli NATO qiymətləndirilməsi və 2011-ci ildə NATO-nun başçılığı altında aparılan əməliyyatlara hazır olması planlaşdırılmışdır. Uzunmüddətli olaraq, 2015-ci ilin sonunadək Azərbaycan, döyüşə dəstək və döyüşə xidmət dəstəyi daxil olmaqla bütöv bir taborun əməliyyatlarda açılması və özünü saxlamaq imkanında olması məqsədi ilə, müvafiq briqadanın təlim və təchizatını başa çatdırmağı planlaşdırmışdır. Bu, hansısa mənada Azərbaycanın təkcə SNT əməliyyatlarına qüvvələrinin tələb olunan hazırlıq səviyyəsindən savayı, həm də, gələcəkdə NATO ilə fərdi və birgə fəaliyyətin inkişafı üçün əhəmiyyətli zəmanət yaradır.

Təlim proqramları, sülhməramlı missiya və təlimlərdə iştirak vasitəsi ilə, SNT, NATO həmkarları ilə tam uyarlı olan zabitlərin yeni nəslini bəsləyir. Bu baxımdan Tərəfdaşlığın Qərargah Elementi (TQE) Konsepsiyası olduqca dəyərli bir alətdir. TQE Konsepsiyası, təcrübə və bilik əldə etmək məqsədi ilə, Müttəfiqlərlə çiyin-çiyinə eyni qərargah və iş yerlərində çalışmaqla, Tərəfdaş zabitləri üçün müxtəlif NATO Qərargah və Komandanlıqlarında xidməti etmək imkanını yaradır. Azərbaycan bu vasitədən effektiv olaraq istifadə edir və 2002-ci ildən etibarən TQE vəzifələrində doqquz zabit xidmət etmişdir. Hal-hazırda Azərbaycan özünün TQE Konsepsiyasına yanaşmasına yenidən baxır və TQE zabitlərinin sayının nəzərə çarpan dərəcədə artmasını nəzərdən keçirir. Eyni zamanda, əməliyyat baxımından əlverişli olan vəzifələrə daha çox diqqət yetirilir. Müxtəlif NATO/SNT alət və vasitələrindən effektiv istifadə və Alyansın təcrübəsini öyrənmə imkanları, NATO-nun üzv dövlətləri ilə ikitərəfli hərbi əməkdaşlığın inkişafına əlverişli şərait yaradır. Azərbaycan, 10 Müttəfiq və 7 Tərəfdaş ölkə ilə ikitərəfli hərbi əməkdaşlıq proqramlarını yaratmışdır. Bu proqramların əhəmiyyətli hissəsi, Azərbaycanın daha çox səy göstərdiyi, hərbi təlim və təhsil sahəsidir. 90-cı illərin ortalarından başlayaraq, Azərbaycan Türkiyənin dəstəyi ilə, özünün hərbi təhsil və təlim sistemini yenidən qurmuş, NATO və Tərəfdaş ölkələr ilə müvafiq əməkdaşlıq proqramlarını təsis etmişdir. Bu gün Silahlı Qüvvələrin Ali Hərbi Məktəbi, Hərbi Dəniz Məktəbi, Hərbi Hava Qüvvələri Məktəbi, Təlim və Tədris Mərkəzi və Ali Hərbi Akademiyası, NATO standartları əsasında tədris planlarından istifadə edir. NATO, Müttəfiqlər və Tərəfdaşlar ilə əməkdaşlıq etməklə, Azərbaycan, əsas, taktiki, əməliyyat və strateji səviyyəli, və eyni zamanda çavuşların təlimi və rəhbərliyi kurslarını əhatə etməklə, milli təhsil və təlim proqramları çərçivəsində NATO standartlarının tətbiq olunmasını davam etdirir.

**Töhfə verən etibarlı Tərəfdaş**

Təəssüflər olsun ki, terrorizm və asimmetrik təhdidlər, beynəlxalq əlaqələrin ümumi qloballaşmasının bir hissəsidir. Hər bir ölkə, özünün imkanları çərçivəsində, sabitlik, sülh və təhlükəsiz gələcəyin təminatında iştirak etməyə dəvət olunmuşdur. Ermənistanın törətdiyi xarici işğaldan əziyyət çəkməsinə baxmayaraq, Azərbaycan, Kosovo, İraq və Əfqanıstanda Beynəlxalq və NATO-nun başçılığı altında aparılan əməliyyatlara töhfə verməklə, beynəlxalq icmanın daha geniş təhlükəsizlik aspektləri çərçivəsində məsuliyyəti öz üzərinə götürmüşdür.

Azərbaycan, xüsusi olaraq qüvvə ilə töhfə verən ölkələr ilə əməkdaşlıq baxımından, NATO-nun Tərəfdaşlıq siyasətinin inkişafına böyük maraq göstərir. Tərəfdaşlıq, keçmiş on il ərzində Azərbaycan üçün qarşılıqlı və faydalı olmuşdur. NATO/SNT proqram və mexanizmləri vasitəsi ilə, bizim hərbi heyət tərəfindən əldə edilmiş təcrübə, bacarıq və biliklər, əməliyyatlarda istifadə olunmuşdur. Bundan əlavə, Müdafiə Nazirliyi, ölkənin milli müdafiə və təhlükəsizlik sektoru üçün zəruri olan, müdafiənin transformasiyasına aparıcı hərbi təşkilat kimi rəhbərlik etməklə, bu xüsusda NATO ilə olan mövcud əlaqələrindən faydalanmışdır. Tərəfdaşları, NATO-nun başçılığı altında aparılan böhranlara cavab əməliyyatlarına cəlb etmək üçün müvafiq şərait və imkanların inkişafı məqsədilə NATO-nun verdiyi qərarın nəticəsində müxtəlif səviyyələrdə, siyasi-hərbi formatlar təsis olunmuşdur. Azərbaycan, NATO-nun bu qərarından çox məmnun olmuşdur.

Azərbaycan öz sülhməramlı missiyasına, KFOR-un tərkibində, Kosovada bir tağımı (34 nəfər) açmaqla, 1999-cu ilin sentyabr ayında başlamışdır. Bu tağım 2008-ci ilin aprel ayına qədər, Draqoş şəhərində təhlükəsizliyi təmin etmişdir. Azərbaycan həm də İraqdakı Çoxmillətli Qüvvələrin tərkibində iştirak etmişdir və 2003-cü ildən 2008-ci ilin dekabrınadək, ABŞ Quru Qoşunları tərkibində, İraqın Qərbindəki əl-Hədithə su səddini bir bölük (150 nəfər) ilə mühafizə etmişdir. Azərbaycan qüvvələri orada ərazinin təhlükəsizliyi, eskort vəzifələri və digər təhlükəsizlik funksiyalarını yerinə yetirirdilər. Eyni zamanda bir zabitimiz Bağdad şəhərində yerləşən Çoxmillətli Birləşmiş Qüvvələrin Qərargahında xidmət edib. Azərbaycan, Əfqanıstanda sülh, təhlükəsizlik və qayda-qanunun bərqərar olunması məqsədi ilə, 2002-ci ilin noyabrında bir tağımla ISAF-a qatılmışdır. O zamandan bəri, Azərbaycan öz qüvvələrini iki dəfə artırmış və hal-hazırda ISAF-dakı Türkiyə Qüvvələrinin tərkibində bir bütöv bölüyə malikdir. Azərbaycanlı hərbi heyət paytaxt regionunda eskort və patrul vəzifələrini yerinə yetirir və həm də Əfqan Milli Ordusunun (ƏMO) təliminə də cəlb olunmuşdur. Bu yaxınlarda, biz Əfqanıstana iki tibb zabitinin göndərilməsini və Azərbaycanın hərbi təhsil institutlarında Əfqan ordusunun bəzi təlim ehtiyaclarının təmin edilməsi qərarına gəlmişik. Əlavə olaraq, hərbi yardımlardan savayı, Azərbaycan, Əfqanıstanla humanitar sahədə əməkdaşlığının genişləndirilməsini nəzərdən keçirir. Biz mülki mütəxəssislərin göndərilməsi və Əfqan cəmiyyəti üçün humanitar sahədə yardımın artırılması ilə, sülhün və normal həyatının bərpasında iştirakımızı planlaşdırırıq. Beynəlxalq təhlükəsizliyə töhfə verdikcə, biz inanırıq ki, bu təcrübə əməliyyat planlamasının və çoxmillətli mühitdə əməliyyatların keçirilməsi inkişafına müsbət təsir göstərmişdir. Təcrübə və nəticələrin təhlili Müdafiə Nazirliyinin Əməliyyat İdarəsi tərəfindən təmin olunur və Silahlı Qüvvələrin tədris və təlim proqramlarında istifadə olunur.



**Qabiliyyətli müdafiə vasitəsilə qlobal təhlükəsizliyin dəstəklənməsi**

Təhlükəsizlik şəraitinin təkamülü və yeni təhdidlər, milli müdafiə sistemi çərçivəsində yeni yanaşmanı və vasitələri tələb edir. Azərbaycan öz müdafiə və təhlükəsizlik sektorunun inkişafı vasitəsi ilə bütün bunlara adekvat cavab verir. Eyni zamanda, müdafiə və təhlükəsizlik sektorunda aparılan islahatlar, bizim Avro-Atlantik dəyərlərə sadiq olduğumuzu nümayiş etdirir.

FTƏP çərçivəsində, Azərbaycan milli strategiya və proseduralara və effektiv qurumlararası əməkdaşlığa əsaslanan effektiv müdafiə sistemini inkişaf etdirmək məqsədi ilə, müxtəlif proseslərə başlamışdır. 2007-ci ilin 23 may tarixində nəşr olunmuş Milli Təhlükəsizlik Konsepsiyasının əsasında, hal-hazırda Azərbaycanda, Hərbi Doktrina və Dəniz Təhlükəsizliyi Strategiyası konseptual sənədlər yekunlaşdırılır. Bunlar daha effektiv və imkanlı müdafiə sistemi və silahlı qüvvələrin inkişaf etdirilməsinə əsas yaradan, Strateji Müdafiə İcmalı (SMİ) ilə davam etdiriləcəkdir. SMİ-ın nəticələrindən istifadə etməklə, Müdafiə Nazirliyinin uzun müddətli modernləşmə planı daxil olmaqla, 2010-2015-ci illər üçün müdafiə planlarının təfərrüatları və prioritetləri dəqiqliklə hazırlanacaq və tətbiq olunacaqdır. Hər şeylə yanaşı bu, təminat dəstəyinin modernləşməsini və təminat sisteminin inkişafını, hərbi avadanlığın tədrici modernləşməsi və əvəz olunması, silahlı qüvvələrin tərkibində müasir rabitə sisteminin qurulması və infrastrukturun inkişafını da özündə əks etdirir. Bu prioritetlər orta və uzunmüddətli məqsədlər kimi FTƏP-ə daxil edilmişdir.

NATO standartlarına uyğun struktur dəyişiklikləri daxil olmaqla, Silahlı Qüvvələrin transformasiyası, bütün müdafiə islahatlarında əhəmiyyətli rol oynayır. Bundan əlavə yenidən təşkil olunma prosesi çərçivəsində, bir sıra vacib məsələlər yerinə yetirilir. Silahlı qüvvələrdə yeni vəzifə borcları, əməliyyat qaydaları, nizamnamələr və təlimatlar inkişaf etdirilir. Bu xüsusda Azərbaycana NATO-nun Müttəfiq Transformasiyası Komandanlığı dəstək göstərir. 2007-2008-ci illərdə, NATO-nun ekspertlərindən ibarət, həmin komandanlığın Səyyar Təlim Qrupları Azərbaycana üç dəfə səfər etmişdir.

Etibarlı və etimadlı Tərəfdaş kimi, Azərbaycan SNT və AATŞ-da fəal surətdə iştirakını davam etdirəcəkdir. Biz NATO-nun başçılığı altında aparılan ISAF əməliyyatındakı töhfəmizi davam etdirəcək və tədricən artıracağıq. Fəal Tərəfdaş olmaqla bərabər, Azərbaycan həm də beynəlxalq cəmiyyətin faydalı və məsuliyyətli üzvü kimi fəaliyyət göstərməklə, regional və beynəlxalq sülhü və sabitliyi dəstəkləyəcəkdir.



II.II

## Fəsil II | Bölmə II Azərbaycanın NATO-nun rəhbərlik etdiyi əməliyyatlara töhfəsi: Nailiyyətlər və Perspektivlə

*Biz regionumuzda və dünyada ümumi məram olan sülh, sabitlik, təhlükəsizlik, anti-terror əməliyyatlarına töhfə verməkdə davam edəcəyik [1].*

*Zati-Aliləri Cənab İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti*

Azərbaycanın Milli Təhlükəsizlik Konsepsiyası bəyan edir ki, “NATO dövlətlərinin qüvvələri ilə qarşılıqlı uzlaşan hərbi əməliyyat qüvvələrinin yaradılması, böhranların aradan qaldırılması məqsədilə müvafiq beynəlxalq təşkilatların mandatı əsasında aparılan sülhməramlı cavab əməliyyatlarında iştirak etmək” Azərbaycan Respublikasının müdafiə siyasətinin əsas istiqamətlərindən hesab olunur.[2] NATO qüvvələri ilə belə qarşılıqlı uzlaşmanın yaradılması PAP mexanizminə əsaslanır. 1997-ci ildən başlayaraq və 2 illik sikllər əsasında PAP əməliyyat hazırlığı naminə Azərbaycanı yaxından NATO-nun Müdafiə planlamasına cəlb edir. Azərbaycan Silahlı Qüvvələri həyata keçirmək üçün daha çox tərəfdaşlıq məqsədləri öz üzərinə götürür və bunlar “NATO-nun hərbi, təlim və texniki standartlarını tətbiq etmək vasitəsilə NATO qoşunları ilə qarşılıqlı hərbi uzlaşmaya nail olunmasına” yönəlir.[3] Hazırda Azərbaycan xaricdə sülhməramlı məqsədlər üçün açıla bilən xüsusi bölmələr hazırlamışdır. 2008-ci ildə bu bölmələr eyni vaxtda üç sülhməramlı əməliyyata cəlb edilmişdir (KFOR, ISAF və Çox Millətli Qüvvələr – İraq).

Müasir beynəlxalq sülhməramlı əməliyyatlar mahiyyətcə çox funksiyalı və mürəkkəbdir. Onların uğuru, digər faktorlarla yanaşı, töhfə verən dövlətlərin əməliyyatların planlaşdırılması və aparılmasının bütün mərhələlərində, o cümlədən komanda və nəzarət vasitələrinə cəlb edilməsindən asılıdır.

NATO Tərəfdaş dövlətləri öz əməliyyatlarına cəlb etmək üçün inkişaf etmiş mexanizmə malikdir. 1999-cu ildən başlayaraq Siyasi-Hərbi Çərçivə sənədi NATO-nun rəhbərlik etdiyi SNT əməliyyatlarında NATO ilə Tərəfdaş dövlətlər arasında əməkdaşlığı tənzimləyir. Bu sənədin məqsədi “NATO-nun gələcək əməliyyatlarına qoşulan Tərəfdaş dövlətlərə belə əməliyyatlara siyasi istiqamətin verilməsi və üzərində nəzarət edilməsinə töhfə vermək üçün müvafiq imkanların verilməsinin təmin edilməsidir”[4] Praktiki olaraq bu onu bildirir ki, Tərəfdaşlar ən yüksək siyasi səviyyə də daxil olmaqla əməliyyatlar üzrə siyasi məsləhətləşmə, planlama və onların həyata keçirilməsində iştirak edə bilərlər. Tərəfdaş dövlətlərin “qərarın formalaşdırılması” səlahiyyəti var və bu əməliyyatlara dair siyasi istiqamət, planlama və həyata keçirmədə öz fikrini bildirmək hüququ verir.

Bu mexanizmin vacib aspektindən biri Tərəfdaşlara beynəlxalq qərargahlarda vəzifələr tutmaq imkanının verilməsidir ki,

1 Azərbaycan Respublikasının Prezidenti Z.A. Cənab İlham Əliyev və NATO Baş Katibi Z.A. Cənab Yaap de Hoop Sxefferin birgə mətbuat konfransı, NATO MQ, 29 aprel 2009-cu il, http://www.nato.int/cps/en/natolive/opinions_53520.htm
2 Azərbaycan Respublikasının Milli Təhlükəsilik Konsepsiyası, Azərbaycan Respublikası Prezidentinin 2198 saylı Fərmanı ilə 23 may 2007-ci ildə təsdiq edilmişdir, s.15
3 NATO-Azərbaycan: Keçmişin qiymətləndirilməsi və gələcəyə baxış, Cənab Kamil Xasıyev, Səfir, Azərbaycan Respublikasının NATO yanında Nümayəndəliyinin başçısı, “Azərbaycan dünyada,” ADA İkihəftəlik Bülleteni, Hissə 2, No. 9, May 1, 2009-cu il,
4 NATO-nun rəhbərlik etdiyi SNT əməliyyatları üçün Siyasi-Hərbi Çərçivə, 15 iyun 1999-cu il, paraqraf 1.

bu da "Tərəfdaş dövlətlərin əsl tərəfdaşlıqda töhfəsinin tanınması...müttəfiqlər və tərəfdaşlar arasında etimadın və anlaşmanın yaradılması və onların həmrəyliyinin gücləndirilməsi üçün vacibdir".[5]

Həmçinin, bu aspekt digər səbəblər, o cümlədən əməliyyat prosesi üzərində müəyyən sahiblik dərəcəsinin təmin edilməsi baxımından zəruridir. Bu həm də qoşun töhfəsi verən dövlətlərin zabitlərinə öz milli hərbi komandanlığı və əməliyyat bölgəsində açılmış qüvvələr arasında mühüm əlaqələndirmə rolunu yerinə yetirməyə imkan verir. Hal-hazırda, Azərbaycan müxtəlif hərbi strukturlara, o cümlədən Beynəlxalq Hərbi Qərargaha, SHAPE-in Hərbi Əlaqələndirmə Departamentinə, Neapoldakı Müttəfiq Birgə Qüvvələr Komandanlığına, və Brunsumdakı Müttəfiq Birgə Qüvvələr Komandanlığına zabitlər təyin etmişdir. Sonuncu Komandanlıq Əfqanıstandakı ISAF əməliyyatına rəhbərlik edir.

Siyasi-Hərbi Çərçivə sənədi Tərəfdaş dövlətlərin NATO-nun böhranların idarəetmə sisteminə cəlb edilməsində instrumental rol oynamışdır. Tərəfdaş dövlət olaraq Azərbaycan onun tam həyata keçirilməsini və daha da inkişaf etdirilməsini dəstəkləyir.

**KFOR and ISAF**

NATO-nun rəhbərlik etdiyi KFOR və ISAF əməliyyatlarında Azərbaycan sülhməramlı bölmələri əməliyyat teatrı/sahəsi səviyyəsində Türkiyənin sülhməramlı taborları tərkibində fəaliyyəti təşkil edib. Bununla əlaqədar Azərbaycan və Türkiyə arasında komanda və nəzarət mexanizmlərini, qüvvələrin açılmasını, maddi-texniki təminat, hüquqi və digər əməliyyat məsələlərini tənzimləyən müvafiq sazişlər imzalanmışdır. Azərbaycan ilə Türkiyə arasında yaxın dostluq və əməkdaşlıq əlaqələri baxımından, Türkiyə taborları tərkibində fəaliyyət göstərmək təbii seçim idi.

NATO-nun rəhbərlik etdiyi KFOR əməliyyatı 12 iyun 1999-cu ildə, Təhlükəsizlik Şurasının BMT Nizamnaməsinin VII fəslinə uyğun 1244 saylı Qətnaməsinin qəbul edilməsindən və NATO ilə Serbiya arasında Hərbi-Texniki Sazişin imzalanmasından sonra başladı. BMT TŞ 1244 saylı Qətnaməsinə əsasən, KFOR əməliyyatının əsas tapşırıqlarına atəşkəsin qorunub saxlanmasından tutmuş sərhəd nəzarəti və bərpa işləri kimi geniş təhlükəsizlik məsələləri daxil idi.[6]

Bu əməliyyata qüvvə töhfəsi vermək Azərbaycan sülhməramlıları üçün ilk praktiki sınaq idi. 34 nəfərdən ibarət sülhməramlı taqım NATO komandanlığı altında və Türkiyə taboru tərkibində 1999-cu ilin sentyabrında xidmətə başladı. Azərbaycan taqımı Çoxmillətli Cənub Briqadasının Draqas Tapşırıq Qüvvəsi çərçivəsində Kosovonun cənub-qərbində yerləşmişdir. Türkiyə hərbi qulluqçuları ilə birgə iki-dövlətli bölük təşkil edərək, Azərbaycan sülhməramlıları Albaniya və Keçmiş Yuqoslav Respublikası Makedoniyanın (KYRM) sərhədinə yaxın Draqasın cənub-qərb zonasına məsuliyyəti üzərinə götürmüşdür.[7]

Ümumiyyətlə isə Azərbaycan sülhməramlıları qarşısında bu tapşırıqlar qoyulmuşdur: sülh sazişinin icrasına yardım; sərhəd nəzarəti; ictimai asayişin qorunub saxlanması; KFOR heyəti və mülki şəxslər üçün hərəkət azadlığının təmin edilməsi; bərpa işlərinə və humanitar yardımın paylanmasına yardım.

Azərbaycan hərbi qulluqçularının xidməti bir çox hallarda çox yüksək qiymətləndirilmişdir. Bu yalnız şəxsi heyətin peşəkarlığı və yaxşı təlimi ilə deyil, habelə yerli mədəniyyətin və adət-ənənənin başa düşülməsi və lazımi hörmətin göstərilməsi ilə izah edilə bilər. Bu səbəblərdən biridir ki, Azərbaycan sülhməramlıları 9 illik əməliyyat zonasında xidmət dövrü heç bir düşmən münasibətlə rastlaşmamış və şərəflə öz vəzifə borclarını yerinə yetirmişlər.

ISAF əməliyyatı 2001-ci il Bonn Sazişinə uyğun olaraq Talibanın Kabildəki siyasi hakimiyyətdən uzaqlaşdırdıqdan sonra başlamışdır. BMT Təhlükəsizlik Şurasının mandatı əsasında bu əməliyyatın ilkin məqsədi Əfqanıstana "Müvəqqəti Əfqan Hökumətinin və BMT heyətinin təhlükəsiz mühitdə fəaliyyət göstərməsi üçün Kabildə və onun ətrafında təhlükəsizliyin saxlanmasına" yardım etməkdən ibarət idi.[8]

5 Orada
6 BMT Təhlükəsizlik Şurasının 1244 saylı Qətnaməsi, 10 iyun 1999-cu il, paraqraf 9
7 Kapitan Rolf Ahrens: "Azərbaycan qoşunları KFOR ailəsinin hissəsidir," KFOR Xronikl 2001-ci il
8 NATO-nun Əfqanıstandakı rolu, NATO-nun rəsmi internet səhifəsi: http://www.nato.int/cpps/en/natolive/topics_8189.htm



NATO ISAF əməliyyatı üçün rəhbərliyi 2003-cü ilin avqustunda öz üzərinə götürdü və tədricən bu əməliyyatı bütün ölkə ərazisinə genişləndirdi. BMT TŞ qətnamələrinə uyğun olaraq, ISAF əməliyyatının əsas vəzifəsi təhlükəsiz və sabit mühitin yaradılmasında Əfqan hökumətinə yardım etməkdir. Bunun üçün ISAF qüvvələri Əfqan təhlükəsizlik qüvvələri ilə birgə bütün ölkə boyu təhlükəsizlik və sabitlik əməliyyatları aparır. Bundan başqa, ISAF birbaşa olaraq Əfqan Milli Ordusunun mentorluq, təlim və avadanlıqla təchiz etmək vasitəsilə inkişafına cəlb edilib.[9]

Əfqanıstanda sülhün, təhlükəsizliyin və qaydanın bərqərar olunmasına töhfə vermək qətiyyəti ilə Azərbaycan 2002-ci ilin noyabrında ISAF əməliyyatına qoşulmaq üçün qərar verdi. İlkin olaraq Azərbaycan sülhməramlıları 22 nəfərlik bir taqımdan ibarət idi. ISAF əməliyyatı bütün Əfqanıstana genişləndikcə ISAF əməliyyatına verilən tapşırıqları yerinə yetirmək üçün daha çox hərbi qulluqçulara ehtiyac yaranırdı. Bu xüsusda Azərbaycan əməliyyat teatrında öz qüvvələrinin sayını 4 dəfə artırmışdır. 2008-ci ildə Azərbaycan öz qüvvələrinin sayını 22-dən 45, 2009-cu ildə isə ikiqat artıraraq 90 nəfərə çatdırdı. Bu Azərbaycanın anti-terror əməliyyatlarında yaxından iştirak etmək qətiyyətinin aydın göstəricisidir.

Azərbaycan bölüyü Türkiyə taboru tərkibində Kabildə Paytaxt Regional Komandanlığında fəaliyyət göstərir. Bölüyün tapşırığı yerində dəyişən təhlükəsizlik ehtiyaclarına uyğun olaraq əməliyyat komandiri tərəfindən müəyyən edilir. Əvvəllər Azərbaycan sülhməramlıları Kabil hava limanının təhlükəsizliyinin təmin edilməsinə cəlb edilmişdir. Hazırda onlar patrul və müşayiət vəzifələri, habelə Əfqan Milli Ordusu bölmələrinin təliminə cəlb edilib.

Qeyd edilməlidir ki, Azərbaycan Əfqanıstandakı ISAF əməliyyatında iştirak edən bir neçə müsəlman dövlətlərindən biridir. Yerli əhali ilə gündəlik təmaslar, habelə din, mədəniyyət və adət-ənənədə oxşarlıq onları Əfqanlar üçün daha qəbul edilən edir.[10] Bu faktor Azərbaycan hərbi qulluqçuların peşəkarlığı və xidmətə sadiqliyi ilə birgə ISAF komandanlığı tərəfindən yüksək qiymətləndirilmişdir.[11]

**Nəticə**

Azərbaycanın BMT mandatı altında NATO-nun rəhbərlik etdiyi sülhməramlı əməliyyatlara töhfə verməsi Azərbaycanın birgə təhlükəsizliyin qurulmasının məsrəflərini bölüşmək qətiyyətinin göstəricisidir. Bu həmçinin Azərbaycanın Alyansla tərəfdaşlığın dərinləşməsinin və əməkdaşlığın genişləndirilməsi ilə bağlı iradəsinin praktiki təzahürüdür. Praktiki nöqteyi-nəzərdən, KFOR və ISAF əməliyyatlarında iştirak Azərbaycan sülhməramlılarının peşəkar qabiliyyətlərinin daha da yaxşılaşdırır və NATO-nun komanda və nəzarət qaydaları ilə daha yaxından tanış olmaları üçün böyük imkanlar verir.

NATO-nun Baş Katibi Z.A. cənab Yaap de Hoop Sxeffer Azərbaycana yüksək dəyərli və yüksək hörmət edilən tərəfdaş dövlət kimi istinad edərək, Azərbaycan Respublikası Prezidenti Z.A. cənab İlham Əliyevə "Azərbaycanın Əfqanıstandakı bizim ISAF əməliyyatı çərçivəsində etdiyi vacib töhfəyə" görə öz təşəkkürünü bildirmişdir.[12]

Sülhməramlı əməliyyatlar sahəsində əməkdaşlıq Avro-Atlantik məkan və ondan kənarda təhlükəsizlik və sabitliyə geniş təsiri var. Bu, hərbi, siyasi və diplomatik sahələr də daxil olmaqla ikitərəfli tərəfdaşlığı həvəsləndirir. Bunun üçün də bu əməkdaşlıq NATO-nun Tərəfdaşlıq mexanizmlərinin imicini gücləndirir. Bununla yanaşı, sülhməramlı əməliyyatlar kimi praktiki əməkdaşlıq bu mexanizmlərin çatışmayan cəhətlərini üzə çıxarır və bunların aradan qaldırılması əməkdaşlığın daha da dərinləşməsinə töhfə vermiş olardı.

9 Orada
10 Azərbaycan Sülhməramlı Qüvvələri, Koalisiya Bülleteni,iyul 2007-ci il,s.4
11 İSAF mətbuat katibi Briqada Generalı Riçard Blanşetin APA-ya ekskluziv müsahibəsi, 27 mart 2009-cu il
12 29 aprel 2009-cu il tarixli Birgə Mətbuat Konfransı, NATO MQ, yux. istinad edilib

# III FƏSİL: TƏHLÜKƏSİZLİK SEKTORUNUN İSLAHATI VƏ QEYRİ-HƏRBİ SAHƏLƏRDƏ AZƏRBAYCAN-NATO ƏMƏKDAŞLIĞI



## Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin NATO ilə əməkdaşlığı

Azərbaycan Avropa ilə Asiya, Şərqlə Qərb, eləcə də Şimalla Cənub arasındakı qitələrarası kommunikasiyaların qovşağında yerləşir.

Bu əlverişli coğrafi mövqeyi, təəssüf ki, Azərbaycanı beynəlxalq terrorizm, qanunsuz miqrasiya, transmilli mütəşəkkil cinayətkarlıq, insan və narkotik qaçaqmalçılığı, kütləvi qırğın silahlarının yayılması kimi trans-sərhəd təhdidləri ilə də üzbə-üz qoyur.

Bununla yanaşı, ümumi regional təhlükəsizliyə ən böyük təhdid yuxarıda qeyd olunan lardan deyil, Azərbaycanın Dağlıq Qarabağ regionu və ətrafındakı münaqişənin nəticəsi olaraq Azərbaycan torpaqlarının Ermənistan tərəfindən davam edən işğalından qaynaqlanır.

Bu mürəkkəb təhlükəsizlik vəziyyəti, əlbəttə ki, sərhəd təhlükəsizliyini təmin etmək üçün əsaslı səylər tələb edir. Bu ehtiyacı nəzərə alaraq, 2002-ci ildə Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) müstəqil qurum kimi təsis edilmişdir.

DSX-nin əsas vəzifələri dövlət sərhədlərinin qorunması, sərhəd pozulmasının qarşısının alınması, beynəlxalq terrorçuluğa qarşı mübarizə, qanunsuz miqrasiya, narkotik maddələrin qanunsuz dövriyyəsi, silah və sursat, eləcə də KQS və onun komponentlərinin qaçaqmalçılığı ilə mübarizədir. Digər vacib vəzifə Xəzər dənizinin Azərbaycan sektorunda neft və qaz yataqlarının, eləcə də aidiyyəti infrastrukturların təhlükəsizliyini təmin etməkdir.

Yaradıldıqdan bəri, DSX sərhəd nəzarətinin effektivliyinin artırılması və Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında qeyd olunduğu kimi, hərbi təşkilatdan hüquq mühafizə orqanına mərhələli keçidi nəzərdə tutan bir sıra islahatlar həyata keçirmişdir.

2006-2010-cu illər üzrə sərhəd mühafizəsi sisteminin texniki inkişafı üzrə dövlət proqramı bu islahat məqsədlərinin yerinə yetirilməsinə mühüm töhfə vermişdir.

Yeni şəxsi heyət strukturuna uyğun olaraq, şəxsi heyətin funksional vəzifələrinə dəyişikliklər edilmişdir. Bundan əlavə, beynəlxalq normalar nəzərə alınmaqla, qanunvericiliyə müvafiq əlavələr edilmişdir.

Sərhəd-keçmə prosedurlarının sadələşdirilməsi və sərhəd-keçmə məntəqələrinin qabaqcıl standartlara uyğun fəaliyyət göstərməsi üçün lazımi işlər görülmüşdür. Miqrasiya nəzarət sistemində iştirak edən bütün dövlət qurumlarını əlaqələndirən avtomatlaşdırılmış məlumat axtarış sistemi yaradılmışdır. Bu sistem bütün sərhəd boyu miqrasiya sahəsində effektiv nəzarət həyata keçirməyə imkan verir.

Yeni kadr strukturu ilə əlaqədar olaraq, DSX-nin tədqiqat və istintaq qabiliyyətləri, eləcə də operativ axtarış fəaliyyəti gücləndirilmişdir. Tədqiqat və istintaq şöbəsinin əsasında yeni idarə yaradılmış və müvafiq olaraq regional mərkəzlərdə tədqiqat-istintaq qrupları təsis olunmuşdur. Məlumatların əldə olunması, öyrənilməsi və qərar qəbuletmənin təkmilləşdirilməsinə yönəlmiş tədbirlər həyata keçirilmişdir.

Təhsil sistemində aparılan islahatlar çərçivəsində müasir texniki avadanlıqlarla təchiz olunmuş təlim mərkəzi yaradılmış, Sahil Mühafizə Xidmətinin təlim mərkəzinin maddi-texniki təminatı yaxşılaşdırılmış, müqaviləli qulluqçuların hazırlanması və qabiliyyətlərinin artırılması üçün yeni məktəb açılmışdır. Çoxsəviyyəli təhsil





sisteminə keçidi nəzərə alaraq, müxtəlif ixtisaslar üzrə kurslar təşkil olunmuş və nəhayət, yeni tədris proqramı hazırlanmışdır.

Zabitlərin təlimi və peşəkar qabiliyyətlərinin artırılması, eləcə də sərhəd təhlükəsizliyi üzrə əsaslı tədqiqat işinin təşkili məqsədilə, 12 iyun 2007-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti DSX Akademiyasının yaradılması haqqında sərəncam imzalamışdır. Akademiyanın yaradılması sərhəd təhlükəsizliyi üzrə regional təhsil və təlim mərkəzi olmaq üçün DSX-nın qabiliyyətlərini artırmışdır.

Genişlənməkdə olan beynəlxalq əməkdaşlıq qısa vaxt ərzində DSX-nın əldə etdiyi uğurlarda mühüm rola malikdir. Bu, əlbəttə ki, qarşılıqlı etimadı gücləndirmək və təcrübə mübadiləsi aparmaq üçün əsas vasitələrdən biri olmuşdur.

Hal-hazırda, DSX NATO, Avropa İttifaqı, Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT), BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı, GUAM, Atom Enerjisi üzrə Beynəlxalq Agentlik (AEBA), Beynəlxalq Sərhəd Polisi Konfransı və digər beynəlxalq təşkilatlarla əməkdaşlığı gücləndirir.

DSX Müttəfiqlər, Tərəfdaşlar və bir təşkilat kimi NATO ilə əməkdaşlığa böyük önəm verir. 23-24 iyun 2005-ci il tarixlərdə, DSX "İnteqrə edilmiş sərhəd idarəetməsi və sərhəd təhlükəsizliyi standartlarının inkişaf etdirilməsi" üzrə NATO/AATŞ seminarına ev sahibliyi etmişdir. Bu tədbirdə 22 ölkə və 6 beynəlxalq təşkilat təmsil olunmuşdur.

2006-cı ilin iyul ayında NATO-nun rəhbərliyi ilə milli ekspertlərdən ibarət qrup Azərbaycana səfər edərək, tövsiyələr də daxil olmaqla, qiymətləndirmə hesabatı hazırlamışlar. Hesabatda göstərilən bəzi tövsiyələr artıq yerinə yetirilmişdir, digərlərinin icrası isə müvafiq perspektiv planlarda nəzərdə tutulmuşdur.

Bundan əlavə, DSX Azərbaycanın NATO ilə praktiki tərəfdaşlığında və geniş siyasi dialoqunda fəal iştirak edir. Hal-hazırda, onun PAP çərçivəsində 6 Tərəfdaşlıq məqsədi var və 2005-ci ildən bəri FTƏP çərçivəsində NATO ilə əməkdaşlıq edir. DSX, öz səlahiyyətləri çərçivəsində FTƏP məqsədlərinin yerinə yetirilməsinə məsul olan qurumdaxili işçi qrup yaratmışdır.

DSX nümayəndələri qurumlararası nümayəndə heyətinin tərkibində müntəzəm olaraq, FTƏP-in icrası üzrə Şimali Atlantika Şurasının Azərbaycanla iclasında iştirak edirlər. 2003 və 2006-cı illərdə DSX-nin rəisi general E. Quliyev NATO Mənzil-Qərargahında müvafiq komitələrdə təqdimatlar vermişdir.

Daha sonra, 2007-ci ildə DSX nümayəndələri PAP-T çərçivəsində fəaliyyət göstərən və KYRM-in sədrlik etdiyi sərhəd təhlükəsizliyi üzrə qeyri-formal işçi qrupun iclaslarında təqdimat vermiş və müzakirələrdə iştirak etmişlər.

Yekun olaraq, qeyd etmək yerinə düşərdi ki, NATO Baş Katibinin Orta Asiya və Qafqaz üzrə xüsusi nümayəndəsi və NATO-nun Əlaqələndirici zabiti ilə davamlı dialoq sərhəd təhlükəsizliyi sahəsində əməkdaşlığın gücləndirilməsində mühüm rol oynamışdır.







# III.II

Fəsil III | Bölmə II

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının NATO ilə əməkdaşlığı

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası qeyd edir ki, "daxili təhlükəsizliyin təmin olunması dövlətin əsas vəzifələrindən biridir və ictimai asayişin qorunması, cinayətkarlığa və korrupsiyaya qarşı mübarizə aidiyyəti dövlət qurumlarının əsas öhdəlikləri sırasındadır".

Daxili təhlükəsizliyi təmin edən əsas qurumlardan biri 1991-ci ildə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi nəzdində hərbi statuslu qüvvələr kimi yaradılmış Daxili Qoşunlardır.

Daxili Qoşunların vəzifələrinə iğtişaşlar, zorakılıqla müşahidə olunan kütləvi nümayişlər zamanı asayişin qorunması, rabitə mərkəzləri kimi mühüm infrastrukturların mühafizəsi, geniş miqyaslı mülki fövqəladə hallar zamanı yardım etmək, eləcə də dövlət həbsxanalarında kütləvi iğtişaşların yatırılması, cinayətkarların və həbsxanadan qaçmış məhkumların axtarılması və müvəqqəti saxlanması daxildir.

Bundan əlavə, dövlətə qarşı təhlükə yaranan zaman Daxili Qoşunlar Silahlı Qüvvələrlə yanaşı döyüş əməliyyatlarında iştirak edə bilər. Daxili Qoşunlar, həmçinin, partlayıcı sursatların və minaların zərərsizləşdirilməsi, eləcə də terrorçuluqla mübarizəyə dəstək və çətin keçilən ərazilərdə axtarış və xilasetmə əməliyyatları üçün də istifadə oluna bilər.

Daxili Qoşunlar təlim, maddi-texniki təminat və qüvvələrin mobillik səviyyəsini artırmaq üçün müntəzəm olaraq beynəlxalq əməkdaşlıqdan istifadə edirlər.

O, həmçinin, təşkilata mümkün üzvlük perspektivi ilə Avropa və Aralıq Dənizi ölkələrinin hərbi statuslu Polis Qüvvələri və Jandarmeriya Assosiasiyası ilə davamlı əlaqələr saxlayır.

NATO ilə əməkdaşlıq müstəvisində, Azərbaycanın FTƏP sənədi çərçivəsində Daxili Qoşunlar bir sıra məqsədlər götürmüşdür. Bu FTƏP məqsədləri əsasən, Daxili Qoşunların icmalı və qərb standartlarına uyğun olaraq yenidən təşkili, təlim, maddi-texniki təminat, mobillik və xidmətə götürmənin təkmilləşdirilməsini əhatə edir.

Daxili Qoşunların gələcəyi ilə bağlı FTƏP məqsədlərinin yerinə yetirilməsi üzrə Azərbaycanın səylərinə dəstək verməsi üçün NATO-ya müraciətə cavab olaraq, 2007-ci ilin noyabr ayında NATO Beynəlxalq Katibliyi milli ekspertlərdən ibarət qrupun Azərbaycana səfərini təşkil etmiş və nəticədə müfəssəl hesabat hazırlanmışdır.

Daxili Qoşunlar FTƏP məqsədlərinin yerinə yetirilməsi üçün Daxili Qoşunlar Komandanının müavininin sədrlik etdiyi əlaqələndirmə qrupu yaratmışdır.

Daxili Qoşunların FTƏP çərçivəsində əsas məqsədlərindən biri polisə dəstək hissələrinin yaradılması, onu PAP-a cəlb etmək və onun sülhə dəstək əməliyyatlarında iştiraka hazırlığını bəyan etməkdir.

Daxili Qoşunlar bu Tərəfdaşlıq Məqsədinin yerinə yetirilməsi üçün bir neçə tədbir həyata keçirmişdir. Bir polisə dəstək bölüyünün şəxsi heyət strukturunun hazırlanması və təsdiq olunması, eləcə də döyüş təlim planının hazırlanması üçün lazımi tədbirlər görülmüşdür. Bu bölük tamamilə şəxsi heyətlə təmin olunmuş və zabitlər ingilis dili təlimi almışlar.

Bundan əlavə, Daxili Qoşunlar öz şəxsi heyətinin NATO təhsil təsisatlarında təlimini, strukturun yenidən nəzərdən keçirilməsini

və qoşunların maddi-texniki təminatını yaxşılaşdırmağı davam etdirmişdir.

Yekun olaraq, qeyd etmək lazımdır ki, Daxili Qoşunların tərəfdaşlıq tədbirlərinə cəlb olunması səviyyəsi artmaqdadır. Belə ki, 2008-ci ilin may ayında Daxili Qoşunların bir bölüyü NATO-nun Əməliyyat İmkanları Hövzəsinə bəyan edilmişdir.





# Azərbaycan Respublikasının humanitar və ətraf mühit məsələləri üzrə NATO ilə əməkdaşlığı

Humanitar və ətraf mühit sahələrində əməkdaşlıq tədbirləri təhlükəsizlik və müdafiə sektorunun islahatı sahəsində NATO ilə əməkdaşlığı tamamlayır.

Bu sahədə uğurlu təşəbbüslərə artıq başa çatmış Melanj layihəsi və davam edən NATO/SNT Saloğlu Etimad Fondu layihəsi daxildir.

Melanj keçmiş SSRİ Silahlı Qüvvələri tərəfindən qısa və orta mənzilli raketləri yanacaqla təmin edən 2 maddədən biri kimi istifadə olunan yüksək toksik maddədir. Keçmiş Sovet İttifaqının anbarlarından miras qalmış və tədricən korroziyaya uğrayaraq ictimai sağlığa və ətraf mühitə ciddi təhdid törədən 1400 ton təhlükəli raket yanacağı var idi.

Azərbaycan melanjı məhv etmək məqsədilə NATO-nun yardımını istəmişdir. 20-25 yanvar 2003-cü il tarixlərdə NATO-nun Təminat və Təchizat Agentliyi (NAMSA) qiymətləndirmə səfəri həyata keçirmişdir.

Səyyar melanj istismarı zavodunun tikintisi NATO-nun Sülh və Təhlükəsizlik naminə Elm Proqramı tərəfindən dəstəklənmişdir. Bu layihənin büdcəsi tam olaraq (2.2 milyon avro) NATO tərəfindən təmin edilmişdir.

NAMSA layihənin icraçı qurumu kimi müəyyən olunmuş və səyyar zavod 2006-cı ilin iyulunda Azərbaycanda qurulmuşdur və qısa vaxtdan sonra Ələtdə (Qaradağ rayonu) melanjın zərərsizləşdirilməsinə başlanmışdır.

2007-ci ilin noyabrında zavod Ələtdə yeləşən 950 ton melanjı uğurla zərərsizləşdirdi. Bu zavod 2007-ci ilin sonunda Mingəçevirə daşındı və 2008-ci ilin mayında qalan 350 ton melanjın zərərsizləşdirilməsi başa çatdırıldı.

Bu layihə bir daha düzgün müəyyən olunmuş prioritetlərə və əməkdaşlıq mexanizmlərinə malik və praktiki effektivliyi təsdiq olunmuş NATO-nun Sülh və Təhlükəsizlik naminə Elm Proqramının yüksək potensialını nümayiş etdirdi. Bu proqram Azərbaycandakı təhlükəli raket yanacağı, melanjla bağlı probleminin aradan qaldırılması üçün həlledici olmuşdur.

Digər mühüm humanitar layihə Azərbaycanda partlamamış sursatların zərərsizləşdirilməsi üzrə NATO/SNT Saloğlu Etimad Fondu layihəsidir.

Azərbaycanın Ağstafa rayonunda yerləşən sovet hərbi sursat anbarı Cənubi Qafqazda bu tipli ən böyük obyekt idi. 1991-ci ildə anbar oranı tərk edən sovet qoşunları tərəfindən dağıdılmışdır.

Ərazidə baş verən partlayış nəticəsində minlərlə partlayıcı sursat 4400 hektar əraziyə səpələnərək davamlı olaraq yerli əhaliyə humanitar, sosial-iqtisadi və ətraf mühit təhlükəsi yaratmışdır. 1991-ci ildən bəri 32 nəfərin ölümü ilə nəticələnən 152 bədbəxt hadisə baş vermişdir.

2001-ci ildə Azərbaycan partlamamış sursatların məhv edilməsi məqsədilə NATO/SNT Etimad Fondunun yaradılması üçün NATO-ya müraciət etmişdir. NAMSA-nın ekspertləri 2002-ci ildə əraziyə səfər edərək İlkin qiymətləndirmə hazırlamışlar.

28 aprel 2003-cü il tarixdə Saloğlu Etimad Fondu layihəsi NATO Mənzil-Qərargahında təqdim olunmuş və NATO ölkələri tərəfindən təsdiq

olunmuşdur. NAMSA və ANAMA layihənin icraçı qurumları olaraq müəyyən edilmişlər.

2005-ci ilin dekabr ayında keçmiş hərbi baza və ətrafındakı ərazinin səthi və səth altında yerləşən partlamamış sursatların aşkarlanmasını və məhv edilməsini nəzərdə tutan və Türkiyənin rəhbərlik etdiyi NATO/SNT Etimad Fondu layihəsi başlamışdır.

Layihə ən çox çirklənmiş ərazinin 568 hektarının təmizlənməsini nəzərdə tuturdu. Təmizlənməsi nəzərdə tutulan ərazilər çirklənmə səviyyəsinə görə 2 hissəyə (yaşıl və qırmızı) bölünmüşdür.

Layihənin 1.2 milyon büdcəsi olan birinci mərhələsi az çirklənmiş yaşıl zonanın səthini və səth-altını və çox çirklənmiş qırmızı zonanın səthini təmizləməyi nəzərdə tuturdu. Bu mərhələ 2007-ci ilin mayında başa çatdırılmışdır.

Layihənin icrasına başladıqdan sonra məlum olmuşdur ki, problem əvvəl göründüyündən də ciddidir. ANAMA və NATO/NAMSA ekspertlərindən ibarət qiymətləndirmə missiyaları beynəlxalq standartlara uyğun olaraq, səth-altı hissənin təmizlənməsi təhlükəsizliyinin yaxşılaşdırılması üçün layihənin ikinci mərhələsini həyata keçirməyin vacibliyini təsdiq etdi.

Beləliklə, 439 min avro büdcəsi olan ikinci faza 2007-ci ilin iyununda başladı və çox çirklənmiş qırmızı zonanın səthaltı hissəsinin təmizlənməsini əhatə etdi.

Buna baxmayaraq, ikinci faza başlanğıcdan bir sıra çətinliklərlə üzləşdi. Yüksək səviyyədə çirklənmə maqnitli lokatorların istifadəsini məhdudlaşdırırdı. 2007-ci ilin oktyabr ayında NAMSA-nın müstəqil ekspertinin yenidən qiymətləndirmə səfəri nəticəsində layihənin tam şəkildə yerinə yetirilməsi üçün resursların artırılmasının mühüm şərt olduğu məlum oldu. Beləliklə, 2009-cu ilin fevral ayından başlayaraq layihənin daha 16 ay uzadılması qərara alınmışdır.

Layihənin 1.96 milyon avro büdcəsi olan üçüncü mərhələsi qeyd olunan ərazidə partlamamış sursat problemini həmişəlik həll edəcək.

Saloğlu ərazisində tapılmış sursatların sayı da ciddi problem yaradır. Hal-hazırda, artilleriya sursatları, raketlər, qranat və pirotexnika daxil olmaqla təmizləmə əməliyyatında tapılmış və yığılmış müxtəlif tipli partlamamış sursatlar hələ də məhv olunmalıdır.

Başa çatdıqdan sonra bu layihə ərazidə lazımi təhlükəsizliyi təmin etməyə imkan verəcəkdir. Layihənin siyasi, humanitar, ətraf mühit və təhlükəsizlik perspektivləri onun vacibliyini artırır.

Azərbaycan hökuməti layihənin bütün səviyyələrində onu davamlı olaraq dəstəkləmişdir və resursların səfərbər edilməsi və layihənin beynəlxalq səviyyədə və donorlar arasında tanıdılması üzrə səylər göstərir.

Azərbaycan hökuməti, layihənin uğuru üçün sahib ölkə kimi bağlılıq və sahibliyin vacib olduğunu anlayaraq, 3-cü/yekun mərhələnin başa çatdırılması üçün tələb olunan ümumi məbləğin yarısını öz üzərinə götürmüşdür.

Bu günə qədər, bu layihə ABŞ, Avstraliya, Azərbaycan, Bolqarıstan, Çex Respublikası, Finlandiya, İslandiya, İtaliya, İsveçrə, Yaponiya, Latviya, Litva, Lüksemburq, Norveç, Sloveniya, Türkiyə və BMT İnkişaf Proqramı (BMTİP) tərəfindən dəstəklənmişdir.

Bütün bu faktorlar Azərbaycanda partlamamış sursatların törətdiyi ciddi humanitar və sosial-iqtisadi təhlükələrin aradan qaldırılması üçün NATO ölkələrini, Tərəfdaşları, BMT İnkişaf Proqramını və NATO-nun qlobal tərəfdaşlarını bir araya gətirən Saloğlu layihəsinin unikallığını göstərir.



# III.IV

Fəsil III | Bölmə IV

## Terrorizmə qarşı mübarizə səmərəli əməkdaşlığın əsas sahələrindən biridir

XXI əsrin faciəli reallığı və bütün dünya cəmiyyəti üçün təhdid olan terrorçuluq milli sərhədlərin hüdudlarını aşmış və millətlərin maraqlarına öz təsirini göstərmişdir. Azərbaycan Respublikası bu fenomenlə mübarizəyə yönəlmiş bütün beynəlxalq səyləri tam dəstəkləmiş və terrorçuluğu formasından və özünü siyasi, iqtisadi, dini və digər motivlərlə büruzə verməsindən asılı olmayaraq birmənalı şəkildə tənqid etmişdir.

Terrorçuluq sülh, ədalətli və demokratik yanaşı yaşama prinsipləri və beynəlxalq hüquqa hörmət əsasında qurulmuş sivil dünya qaydasını təhlükə altına almışdır. Terrorçuluğun siyasi nəticələri və onun cəmiyyətə olan psixoloji təsiri çox mürəkkəb və uzunmüddətlidir. Bununla belə terrorçuluq sosial tərəqqi və davamlı iqtisadi inkişafa zərbə vuraraq, yeni terrorçuların cəlb edilməsi üçün münbit zəmin yaratmış olur.

Son illər ərzində qlobal xarakter almış terrorçuluğa qarşı effektiv mübarizə aparmaq üçün beynəlxalq cəmiyyət daxilində birgə və əlaqələndirilmiş səylərin göstərilməsi tələb olunur.

11 sentyabr faciəli hadisələrdən sonra terrorçuluqla mübarizə yeni fazaya keçmişdir. Faciədən dərhal sonra Azərbaycan tam və şərtsiz olaraq anti-terror koalisiyasına qoşulmuş və beynəlxalq terrorçuluğa qarşı aparılan kampaniyaya öz töhfəsini vermişdir. Bununla bərabər Azərbaycan Respublikası qanunvericilik, təşkilatı və praktiki müstəvilərdə nəzərdə tutulmuş addımların həyata keçirilməsinə yönələn konkret proqramın gerçəkləşdirməsini davam etdirmişdir. Beynəlxalq ictimaiyyətin çağırışına tez bir zamanda cavab verərək Azərbaycan Respublikası öz hava məkanını və hava limanlarını Əfqanıstanda Taliban və Əl-Qaidəyə qarşı mübarizə aparan anti-terror koalisiyasının istifadəsi üçün açıq elan etdi.

Azərbaycan beynəlxalq terrorçuluğa qarşı aparılan kompaniyanın uzaq perspektivli məqsədləri sırasına terror şəbəkəsinin dağıdılması ilə yanaşı, ümumilikdə terrorçuluğun



kökləri, eləcə də onun mənbələrinin müəyyən edilməsinin daxil edilməsinin tərəfdarıdır.

Azərbaycan dövlət səviyyəsində terrorçuluqla effektiv mübarizənin aparılması üçün qanunverici bazanın yaradılmasını prioritet məsələlər sırasında ön plana çəkmişdir. Bu məcrada qeyd olunmalıdır ki, AR BMT-nin müvafiq 13 konvensiyası və terrorçuluqla mübarizəyə dair 9 Avropa müqaviləsini imzalamışdır.

Qeyd olunmalıdır ki, ölkə Konstitusiyasına əsasən Azərbaycan Respublikası tərəfindən imzalanmış beynəlxalq müqavilələr milli qanunvericilik sistemin bölünməz hissəsidir ki, bu müqavilələr və milli qanunlar, eləcə də digər normativ aktlar arasında ziddiyyətlərin yarandığı təqdirdə üstünlük beynəlxalq müqavilələrə verilir. Beləliklə, yuxarıda qeyd olunmuş beynəlxalq sənədlər Azərbaycan Respublikasının milli qanunvericiliyinə daxil olunmuş və ölkə ərazisində tam olaraq tətbiq olunurlar.

Bu məcrada 1999-cu ildə Terrorçuluqla Mübarizə üzrə qəbul olunmuş Qanun əhəmiyyətli daxili normativ aktdır ki, AR-də terrorçuluqla mübarizənin hüquqi və təşkilatı əsaslarını müəyyən edir. Bu qanun terrorçuluqla mübarizədə iştirak edən dövlət orqanların fəaliyyətlərinin koordinasiyasını, eləcə də bu fəaliyyətə qatılmış struktur və şəxslərin hüquq və vəzifələrini ehtiva edir. Əks-terrorçuluq fəaliyyəti Milli Təhlükəsizlik Nazirliyi, Daxili İşlər Nazirliyi və Dövlət Sərhəd Xidməti kimi hüquq-mühafizə və kəşfiyyat orqanlarının qurumlararası əməkdaşlığı nəticəsində həyata keçirilir. Terrorçuluqla mübarizədə əsas rol oynayan sadalanmış dövlət qurumları ilə yanaşı, Milli Bank bir dövlət qurumu qismimdə terrorçuluğun maliyyələşdirilməsi fəaliyyətinə qarşı mübarizə aparır. Xarici İşlər Nazirliyi öz növbəsində anti-terrorçuluq sahəsində beynəlxalq konvensiya və müqavilələrdən irəli gələn öhdəlik və qarantiyaların yerinə yetirilməsi üçün bu fəaliyyəti əlaqələndirir.

2001-ci ilin oktyabr ayında Azərbaycan Respublikası Terrorçuluğun Maliyyələşməsinə qarşı mübarizə üzrə 1999-cu ildə qəbul olunmuş Beynəlxalq Konvensiyaya qoşulmuşdur. Bununla əlaqədar 2002-ci ilin əvvəllərində müəyyən qanunlarına düzəliş və əlavələr daxil edilmişdir. Cinayət Məcəlləsinin bir neçə müddəalarında aparılmış dəyişikliklərin nəticəsində terrorçuluğa görə kriminal məsuliyyət artmışdır. Terrorçuluğun maliyyələşməsinə görə məsuliyyət nəzərdə tutan xüsusi maddə Cinayət Məcəlləsinə əlavə edilmişdir.

Müvafiq təşkilatı və praktiki tədbirlərin vaxtında qəbul olunması və həyata keçirilməsinə də lazımi diqqət yetirilmişdir.

2002-ci ilin may ayında Azərbaycan Respublikası Prezidenti BMT Təhlükəsizlik Şurasının 1368 saylı 12 sentyabr 2001-ci il tarixli, 1373 saylı 28 sentyabr 2001-ci il tarixli və 1377 saylı 12 noyabr 2001-ci il tarixli qətnamələrin həyata keçirilməsi üçün Tədbirlər Planı üzrə Qayda imzalamışdır. Bu Qayda çərçivəsində müvafiq icra orqanları terrorçuluq və terrorçuluğun maliyyələşdirməsinə qarşı mübarizənin aparılması üzrə təlimatlandırılmışlar. Sözü gedən Qaydada terror aktları törətmiş və ya törətməyə cəhd göstərmiş hüquqi və fiziki şəxslərin maliyyə vəsaitləri, aktivləri və/ya digər iqtisadi resurslarının dondurulması məsələsi öz əksini tapmışdır.

Azərbaycan Respublikası terrorçuluqla mübarizə sahəsində birmənalı şəkildə BMT-nin müxtəlif orqanları, Avropa Şurası, ATƏT, GUAM, MDB, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Cənub-Şərq Avropa Əməkdaşlıq Təşəbbüsü və digər beynəlxalq təşkilatlarla fəal əməkdaşlığını davam etməkdədir.

Bu məcrada qeyd olunmalıdır ki, Azərbaycan terrorçuluqla mübarizə müstəvisində NATO ilə əməkdaşlığa xüsusi önəm vermişdir. Öz təhlükəsizlik və müdafiə siyasətinin spesifik xarakteri və AATŞ/SNT hamını ehtiva etmə və özünü fərqləndirmə prinsiplərinə uyğun olaraq AR AATŞ formatında əməkdaşlığını qurmaqdadır. Azərbaycan terrorçuluqla mübarizə üçün vacib olan çoxsaylı sahələrdə AATŞ dövlətləri ilə qarşılıqlı fəaliyyət aparır. Bu sahələrə terrorçuluğa hərbi cavab, əks-terrorçuluq üzrə milli təlim imkanların təkmilləşdirilməsi, kəşfiyyat məlumatların mübadiləsi, sərhəd təhlükəsizlik və mülki müdafiə məsələləri daxildir. Təhlükəsizlik məsələlərinin müzakirəsi və risklərin qiymətləndirilməsi üzrə geniş imkanlar yaradan AATŞ və SNT formatları eyni zamanda terrorçuluqla mübarizənin daxili və xarici aspektləri üzrə hərbi və mülki qurumlar arasında qarşılıqlı fəaliyyətin qurulması üçün ümumi mexanizmlərin yaradılmasına yardım etmişdir.



AATŞ və SNT əsas diqqətin silahlı qüvvələrə ayırması ənənəsi ilə yanaşı, hərbi və qeyri-hərbi qurumlar arasında əməkdaşlığın gücləndirilməsi üçün vacib çərçivəni təmin etmiş, sərhəd təhlükəsizliyi, eləcə də kiber müharibə, xüsusiləşdirmiş əməliyyatların inkişafı və qeyri-qanuni miqrasiya kimi spesifik məsələlər üzrə NATO və tərəfdaş ölkələrin milli təhlükəsizlik qurumları arasında koordinasiyanın aparılmasına yardım etmişdir.

Eyni zamanda Azərbaycan NATO-nun 2002-ci ildəki Praqa sammiti zamanı qəbul olunmuş Terrorçuluğa qarşı Tərəfdaşlıq Fəaliyyət Planında (PAP-T) fəal iştirak etmişdir. PAP-T-nin əsas məqsədi müttəfiqlər və tərəfdaşlar tərəfindən terrorçuluqla aparılan mübarizədə koordinasiyanın təmin olunması kimi göstərilmişdir. PAP-T-nin əsas çərçivə sənədi kimi qəbul olunduğundan sonra Azərbaycan terrorçuluqla mübarizə müstəvisində bir sıra vacib addımlar atmışdır.

Azərbaycan Respublikası və NATO arasında anti-terrorçuluq sahəsində yeni əməkdaşlıq fazası NATO-nun Xüsusi Komitəsinin işçi qrupu tərəfindən 2004-cü ilin 28-29 oktyabr tarixində Bakıda terrorçuluqla mübarizə üzrə konfransın təşkil edildiyindən sonra başlamışdır. Bu əməkdaşlıq 2004-cü ilin 16-17 noyabr tarixlərində NATO-nun Xüsusi Komitəsi tərəfindən Brüsseldə təşkil edilmiş AATŞ görüşü çərçivəsində AR Milli Təhlükəsizlik Naziri General-Leytenant Eldar Mahmudovun təfərrüatlı təqdimat ilə çıxış etdiyindən sonra daha da güclənmişdir.

2006-cı ilin iyul ayında Azərbaycanda PAP-T üzrə keçirilmiş seminar nəticəsində PAP-T-nin sonrakı əməliyyatlaşdırılması, tərəfdaş dövlətlərin əməliyyat və hərbi imkanların inkişafı və onların NATO tərəfindən aparılan anti/əks-terrorçuluq əməliyyatlarına töhfələrin artırılması üzrə tövsiyələr hazırlanmışdır.

Əks-terrorçuluq sahəsində təlimlərin keçirilməsi Azərbaycan üçün prioritet olan məsələlərdəndir. Bu məqsədlə Milli Təhlükəsizlik Nazirliyi digər ölkələrin təcrübəsini öyrənməyə davam edir və ikitərəfli və çoxtərəfli əməkdaşlıq üçün bir instrument rolunu oynayacaq Anti-Terror Təlim Mərkəzinin inşasına başlamağı nəzərdə tutur. Anti-Terror Təlim Mərkəzinin yaradılması Azərbaycana beynəlxalq terrorçuluqla mübarizədə xarici təcrübənin öyrənilməsi, eləcə də regional və beynəlxalq səviyyədə əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanların yaradılmasına yardım edəcək. Mərkəzdə təhsil, təlim və akademik araşdırmalara böyük diqqət yetiriləcək; Azərbaycan və digər dövlətlərin müvafiq qurumlarının təmsilçiləri seminar, kurslar, terrorçuluqla mübarizədə digər təlim və təhsil fəaliyyətində iştirak edəcəklər.

PAP-T-nin əsas məqsədlərindən biri müttəfiq və tərəfdaşların terrorçuluqla əlaqəli ümumi təhlükəsizlik qayğılarının müntəzəm şəkildə müzakirəsi üçün müvafiq şəraitin yaradılmasıdır. Bu məcrada Azərbaycan NATO-nun Kəşfiyyat Əlaqələndirmə Birliyi vasitəsilə NATO ilə kəşfiyyat məlumatların mübadiləsini aparır.

Qeyd olunmalıdır ki, hazırda enerji infrastrukturun avadanlıqları, kommunikasiya və digər olduqca vacib sistemlər terrorçuların əsas hədəflərinə çevrilmiş və onların hücuma məruz qalması ehtimalı artmışdır. Bu məcrada Azərbaycan mühüm infrastruktur, qaz və neft kəmərləri, hava və dəniz limanların təhlükəsizliyinin artırılması məqsədilə mühüm praktiki tədbirlər keçirməkdədir. Belə ki, 2008-ci ilin mart ayında PAP-T-nin həyata keçirilməsinə öz töhfəsini vermək məqsədilə AR öz vacib təcrübəsinə əsaslanaraq enerji infrastrukturun mühafizəsi üzrə AATŞ qeyri-formal İşçi Qrupuna sədrliyi üzərinə götürmüşdür. Azərbaycan bu formatı NATO-nun Beynəlxalq Heyəti və AATŞ-ın maraqlı olan dövlətləri ilə birgə PAP-T-nin əməliyyatlaşdırılmasına yönəlmiş səylərin canlandırılması üçün istifadə etməyi nəzərdə tutur.

PAP-T-də əks olunduğu kimi Azərbaycan terrorçuluqla mübarizədə bir çox ölkələrlə praktiki əməkdaşlığın inkişafına mühüm yer ayırmışdır. 2002-ci ilin aprel ayında Türkiyənin Trabzon şəhərində Azərbaycan, Gürcüstan və Türkiyə arasında Terrorçuluq, Mütəşəkkil Cinayətkarlıq və Digər Mühüm Cinayətlərlə Mübarizə üzrə Müqavilə imzalanmışdır. GUAM dövlətlərinin hüquq-mühafizə orqanları arasında inkişaf etdirilən yaxın əməkdaşlıq əlaqələri 2002-ci ilin iyul ayında Yaltada Terrorçuluq, Mütəşəkkil Cinayətkarlıq və Digər Mühüm Cinayətlərlə Mübarizə üzrə Müqavilənin imzalanması ilə nəticələnmişdir. İmzalanmış bu müqavilələrin əsas məqsədlərindən biri regional iqtisadi layihələrin təhlükəsizliyinin təmin olunmasından ibarət olmuşdur.

Terrorçuluqla mübarizədə Azərbaycan Respublikası və NATO arasında digər mühüm əməkdaşlıq sahəsi sərhəd təhlükəsizliyi olmuşdur. 1998-ci ildən başlayaraq NATO bir təşkilat kimi müxtəlif aspektlər, o cümlədən ekspertlərin qiymətləndirmə səfərlərinin həyata keçirilməsi vasitəsilə sərhəd təhlükəsizliyi/idarəetməsi məsələlərinə qatılmağa başlamışdır. Son illər ərzində NATO müvafiq metodologiyanın inkişafı və ölkənin sərhəd təhlükəsizliyi üzrə çağırışlarını effektiv tərzdə cavablandırılması üçün AR-ə öz dəstəyini göstərmişdir. Bununla belə, AR sərhəd təhlükəsizliyi məsələləri üzrə digər beynəlxalq təşkilatlarla əməkdaşlıq etmiş və digər dövlətlərin müvafiq qurumları ilə yaxın tərəfdaşlıq əlaqələri inkişaf etdirmişdir. Misal üçün Azərbaycanın müvafiq qurumları və Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT) arasında qurulmuş yaxın qarşılıqlı əlaqələr sərhəd təhlükəsizliyin təmini üzrə imkanların formalaşdırılması müstəvisində müxtəlif tədbirlərin həyata keçirilməsi ilə nəticələnmişdir.

Azərbaycan Respublikası BMT Təhlükəsizlik Şurasının 1373(2001) saylı qətnaməsinin həyata keçirilməsi və terrorçuluğun maliyyələşdirilməsi və çirkli pulların yuyulması ilə mübarizədə BMT-nin Narkotik və Cinayət üzrə Ofisi, eləcə də ATƏT-ə təqdim olunmuş ekspert yardımına görə minnətdarlığını bildirmişdir. Bu məsələlərlə bağlı Azərbaycanın müvafiq dövlət qurumları və beynəlxalq ekspertlərin iştirakı ilə milli səviyyədə dörd seminar təşkil olunmuşdur. Sözü-gedən tədbirlərin nəticəsində qanunvericilik və inzibati strukturun təkmilləşdirməsinə ehtiyac olan əsas sahələr müəyyən edilmiş və müvafiq tövsiyələr verilmişdir. Terrorçuluğun maliyyələşdirilməsi və çirkli pulların yuyulması ilə mübarizə məsələsi eyni zamanda Azərbaycan Respublikasının Avropa Şurası ilə əməkdaşlığı çərçivəsinə daxil edilmişdir. AR MDB-nin Əks-Terrorçuluq Mərkəzi ilə analitik məlumatların mübadiləsi üzrə əməkdaşlığını davam etdirməkdədir. Azərbaycan Milli Təhlükəsizlik Nazirliyi terrorçuluq üzrə qabaqlayıcı məlumatların mübadiləsi daxil olmaqla əks-terrorçuluq sahəsində digər ölkələrin xüsusi xidmət orqanları ilə ikitərəfli və çoxtərəfli əsaslarda əməkdaşlığını dərinləşdirməyə davam etmişdir. Müvafiq razılaşmaların müddəaları qabaqlayıcı xəbərdarlıq daxil olmaqla əks-terrorçuluq sahəsində əməkdaşlığın qurulması üçün xüsusi mexanizmləri təmin etmişdir. Beləliklə, Milli Təhlükəsizlik Nazirliyi xarici tərəfdaşlarla əməkdaşlığın qurulması üzrə 40 artıq sənəd imzalamışdır.

# Əlavə 1

## Azərbaycan tərəfindən ratifikasiya olunmuş Birləşmiş Millətlər Təşkilatının Anti-Terrorizmə dair Konvensiyaları

1. Hava gəmilərində törədilmiş cinayətlər və müvafiq digər əməllərə dair Konvensiya, 14 sentyabr 1963-cü ildə Tokioda imzalanıb (4 dekabr 1969-cu ildə qüvvəyə minib).
2. 16 dekabr 1970-ci il tarixli Haaqa Konvensiyası (14 oktyabr 1971-ci ildə qüvvəyə minib).
3. Mülki Aviasiyanın Təhlükəsizliyinə qarşı qanunsuz əməllərin qarşısının alınmasına dair Konvensiya, 23 sentyabr 1971-ci ildə Monrealda imzalanıb (26 yanvar 1973-cü ildə qüvvəyə minib).
4. Beynəlxalq Mülki Aviasiyaya xidmət edən Hava limanlarında zorakılığa yönəlmiş qanunsuz əməllərin yatırtmasına dair Protokol, Mülki Aviasiyanın Təhlükəsizliyinə qarşı qanunsuz əməllərin qarşısının alınmasına dair Konvensiyaya əlavə, 24 fevral 1988-ci ildə Montrealda imzalanıb (6 avqust 1989-cu ildə qüvvəyə minib).
5. Diplomatik Agentlər də daxil olmaqla, Beynəlxalq səviyyədə qorunan Şəxslərə qarşı Cinayətlərin qarşısının alınması və cəzalandırılması, 14 dekabr 1973-cü ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən qəbul olunub (20 fevral 1977-ci ildə qüvvəyə minib).
6. Girov götürməyə qarşı Beynəlxalq Konvensiya, 17 dekabr 1979-cu ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən qəbul olunub (3 iyun 1983-cü ildə qüvvəyə minib).
7. Nüvə Materialının Fiziki Mühafizəsinə dair Konvensiya, 3 mart 1980-ci ildə Vyanada imzalanıb (8 fevral 1987-ci ildə qüvvəyə minib).
8. Dəniz Naviqasiyasının Təhlükəsizliyinə qarşı qanunsuz əməllərin yatırtmasına dair Protokol, 10 mart 1988-ci ildə Romada imzalanıb (1 mart 1992-ci ildə qüvvəyə minib).
9. Kontinental Şelfdə yerləşmiş Platformanın Təhlükəsizliyinə qarşı qanunsuz əməllərin qarşısının alınmasına dair Protokol, 10 mart 1988-ci ildə Romada imzalanıb (1 mart 1992-ci ildə qüvvəyə minib).
10. Plastik Partlayıcı maddələrin üzə çıxarılması məqsədilə işarələnməsinə dair Konvensiya, 1 mart 1991-ci ildə Montrealda imzalanıb (21 iyun 1998-ci ildə qüvvəyə minib).
11. Terrorist Bombalarının qarşısının alınmasına dair Beynəlxalq Konvensiya, 15 dekabr 1997-ci ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən qəbul olunub (23 may 2001-ci ildə qüvvəyə minib).
12. Terrorizmin Maliyyələşdirilməsinin qarşısının alınmasına dair Beynəlxalq Konvensiya, 9 dekabr 1999-cu ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən qəbul olunub (10 aprel 2002-ci ildə qüvvəyə minib).
13. Nüvə Terrorizminə yönəlmiş Əməllərin qarşısının alınmasına dair Beynəlxalq Konvensiya, 13 aprel 2005-ci ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən qəbul olunub (7 iyul 2007-ci ildə qüvvəyə minib).

# Əlavə 2

**Azərbaycan tərəfindən ratifikasiya olunmuş Avropa Konvensiyaları.**

1. Ekstradisiyaya dair Avropa Konvensiyası, 13 dekabr 1957-ci ildə imzalanıb (8 aprel 1960-cı ildə qüvvəyə minib)
2. Ekstradisiyaya dair Avropa Konvensiyasına Əlavə Protokol, 15 noyabr 1975-ci ildə imzalanıb (20 avqust 1979-cu ildə qüvvəyə minib).
3. Ekstradisiyaya dair Avropa Konvensiyasına İkinci Əlavə Protokol, 17 mart 1978-ci ildə imzalanıb (5 iyun 1983-cü ildə qüvvəyə minib).
4. Cinayət Hallarında Qarşılıqlı Yardıma dair Avropa Konvensiyası, 20 aprel 1959-cu ildə imzalanıb (12 iyun 1962-ci ildə qüvvəyə minib).
5. Cinayət Hallarında Qarşılıqlı Yardıma dair Avropa Konvensiyasına Əlavə Protokol, 17 mart 1978-ci ildə imzalanıb (12 aprel 1982-ci ildə qüvvəyə minib).
6. Cinayət Hallarında İcraatın Ötürülməsinə dair Avropa Konvensiyası, 15 may 1972-ci ildə imzalanıb (30 mart 1978-ci ildə qüvvəyə minib).
7. Terrorizmin qarşısının alınmasına dair Avropa Konvensiyası, 22 yanvar 1977-ci ildə imzalanıb (4 avqust 1978-ci ildə qüvvəyə minib).
8. Ağır Cinayətlər qurbanlarının kompensasiyasına dair Avropa Konvensiyası, 24 noyabr 1983-cü ildə imzalanıb (1 fevral 1988-ci ildə qüvvəyə minib).
9. Cinayətdən əldə olunmuş çirkli pulların yuyulması, axtarışı və müsadirə olunmasına dair Avropa Şurasının Konvensiyası, 8 noyabr 1990-cı ildə imzalanıb (1 sentyabr 1993-cü ildə qüvvəyə minib).



III.V



# MFP sahəsində Azərbaycan-NATO əməkdaşlığı: Nailiyyətlər və perspektivlər

Mülki Fövqəladə Planlama (MFP) dövlətlərin təhlükəsizlik siyasətinin vacib aspektlərindən biridir. Bu, müfəssəl yanaşma tələb edən mürəkkəb bir məsələdir. Bir tərəfdən, əhaliyə qarşı kimyəvi, bioloji, radioloji və nüvə (KBRN) silahlarının mümkün istifadəsi, terror aktları nəticəsində mühüm infrastrukturun hədəfə alınması və kiber hücumların aparılması kimi insan tərəfindən törədilən fəlakət təhlükələri mövcuddur. Digər tərəfdən isə zəlzələ, daşqınlar, torpaq sürüşmələri kimi təbii fəlakətlər əhaliyə, ətraf mühitə, habelə mühüm infrastruktur və obyektlərə risklər törədir.

MFP-in məqsədi fəlakətlər baş verdikdə yalnız onlara cavab vermək deyil, həmçinin qarşısını alma və bərpa məsələlərinə xüsusi önəm verilir. Bu, istehsalatda təhlükəsizlik standartlarının yaradılmasını və fəlakətlərə cavab planlarının daima yenilənməsini və yüksək hazırlıq səviyyəsinin saxlanmasını zəruri edir. Şübhəsiz, bütün bunlara əsas cavabdehliyi milli hakimiyyət daşıyır.

Lakin, bəzi fəlakətlərin əhatəsi və nəticələri çox dağıdıcı və milli sərhədləri aşan ola bilər və bu təbii olaraq beynəlxalq müstəviyə qalxır. Bununla yanaşı, MFP-ın humanitar aspekti onu beynəlxalq əməkdaşlıq üçün çox perspektivli sahəyə çevirir.

MFP-nin Azərbaycanın NATO ilə əməkdaşlığında xüsusi yer tutduğunu qeyd etmək şişirtmə olmazdı. Bu, milli, Avro-Atlantik məkanda və ondan kənarda mövcud olan çağırış və risklərin qarşılanması məqsədi daşıyan praktiki əməkdaşlıq sahələrindən biridir. NATO Baş Katibinin müavini cənab M.Hovardın qeyd etdiyi kimi “MFP fəaliyyətləri çox vaxtı Tərəfdaşlıqların güclənməsinin və onlara daha da praktiki əməliyyat aspektinin verilməsinin katalizatoruna çevrilib”[1].

NATO ilə MFP əməkdaşlığının dəyərini anlamaq üçün, tərəfdaşlar üçün açıq olan NATO MFP vəzifə və strukturlarına nəzər yetirmək vacibdir. NATO-da MFP məqsədi fövqəladə hallar zamanı mülki resursların ən səmərəli istifadəsini təmin etmək üçün milli planlama fəaliyyətləri haqqında məlumatların toplanması, təhlili və bölüşülməsidir. NATO MFP həmçinin müttəfiq və tərəfdaş dövlətləri böhran, fəlakət və ya münaqişənin nəticələrinin aradan qaldırılmasında və ona hazır olmasında bir-birinə yardım etməyə kömək edir.

NATO bu tapşırıqları yerinə yetirmək üçün müvafiq mexanizm və alətlərə malikdir. NATO-nun MFP fəaliyyətləri müntəzəm olaraq AATŞ formatında da görüşən Ali Mülki Fövqəladə Planlama Komitəsinin (AMFPK) rəhbərliyi altında həyata keçirilir. AMFPK səkkiz Planlama Şurası və Komitəsi (PŞ/K) mülki sektorun bir çox sahələrindən olan milli nümayəndələrdən təşkil edilib. Onların NATO və AATŞ Tərəfdaş dövlətlərindən olan 350 mülki ekspert var. Mülki ekspert qrupları hər hansı bir konkret məsələdə dövlətlərə yardım etmək üçün səfərbər edilə bilərlər. Bununla yanaşı, Təcili Reaksiya Qrupu Konsepsiyası vacib bir alətdir və belə qrup təsdiq ediləndən 24 saat ərzində təşkil edilməyə imkan verir və əsas təyinatı mülki müdafiə, rabitə, nəqliyyat, təchizat və tibbi yardım funksional sahələri üzrə mülki

1. Cənab Martin Hovard, NATO-nun Baş Katibinin müavini, “NATO Mülki Fövqəladə Planlaması və Cənubi Qafqaz”, Perceptions Bülleteni, N°7 aprel 2009-cu il

ehtiyacların qiymətləndirilməsindən ibarətdir.

Fəlakətlərə Cavabın Əlaqələndirilməsi üzrə Avro-Atlantik Mərkəz (FCƏAAM) NATO MFP-də mühüm rol oynayır. Bu qurum real fövqəladə hallar zamanı məlumat mübadiləsi ilə yardımı əlaqələndirir. Bundan savayı, FCƏAAM Mülki Qabiliyyətlər Kataloqunu idarə edir və bu dövlətlər tərəfindən elan edilən və ehtiyac duyulduqda, NATO strukturlarına açıq olan vasitə və qabiliyyətlərin siyahısıdır.

Azərbaycan AMFPK və onun PŞ/K-in AATŞ formatındakı iclaslarına fəal olaraq töhfə verir. Bu format fikir mübadiləsi, qarşılıqlı anlaşmanın qurulması və milli təcrübə üçün müvafiq alət və rəhbər sənədlərin hazırlanması üçün faydalı forum təşkil edir[2]. Azərbaycanın bir neçə dövlət agentlikləri, o cümlədən Fövqəladə Hallar, Rabitə və İnformasiya Texnologiyaları, Nəqliyyat, Səhiyyə, İqtisadi İnkişaf və Kənd Təsərrüfatı nazirlikləri, habelə milli hava və dəniz təşkilatları müvafiq PŞ/K-da təmsil olunurlar. Təmsilçilər müntəzəm olaraq plenar iclaslarda iştirak edir, aidiyyəti sənəd və iş planlarının hazırlanmasına töhfə verirlər. Bu, Azərbaycan kimi Tərəfdaşların NATO MFP-yə bağlılığı üçün mühüm rol oynayır.

Tərəfdaşlar üçün daha praktiki müstəvi MFP ilə əlaqəli təlimlərdə iştirak etmək imkanıdır. Bu xüsusda, Azərbaycan FCƏAAM tərəfindən keçirilən təlimlərdə çox maraqlıdır. 2008-ci ildə Azərbaycan bir taqım ilə Finlandiyada keçirilən “UUSİMAA-2008” təlimində iştirak etmişdir. 2009-cu ildə Azərbaycan müvafiq avadanlıq və nəqliyyat vasitələri ilə birgə KBRN, yanğınsöndürmə, axtarış və xilasetmə sahə qrupları ilə Qazaxıstanda keçirilmiş Jetisu-2009 Təlimində iştirak etmişdir. Belə təlimlər praktiki bacarıqları gücləndirir və canlı təcrübə mübadiləsi üçün şərait yaradır.

Azərbaycan üçün digər nəzərəçarpan mənfəət NATO ilə ikitərəfli əsaslarda MFP əməkdaşlığıdır. Bu istiqamət 2005-ci ildə aidiyyatı qurumları vahid nazirlik tərkibində bir araya gətirən Fövqəladə Hallar Nazirliyinin (FHN) yaradılmasından sonra daha da güclənmişdir. Bununla Azərbaycanın MFP sistemi yenidən təşkil edilmiş və vahid tənzimləyici və siyasət çərçivəsi yaradılmışdır.

Hazırda FHN Azərbaycandakı fəlakətlərin erkən xəbərdarlığı, qarşısını alma və nəticələrin idarə edilməsinə cavabdehdir. İlkin quruculuq dövrünü bitirdikdən sonra, FHN öz qabiliyyətlərinin inkişafı üçün prioritetlərini müəyyən etmişdir. Bu xüsusda, beynəlxalq əməkdaşlığa, o cümlədən NATO ilə tərəfdaşlığa xüsusi diqqət yetirilir.

İkitərəfli əməkdaşlıq prioritetləri Azərbaycanın Fərdi Tərəfdaşlıq Əməliyyat Planının müvafiq məqsədlərini yerinə yetirməyə yönəlib. İndiki məqamda praktiki əməkdaşlıq aşağıdakı sahələrin inkişaf etdirilməsində NATO-nun ekspertiza yardımını əldə etməkdir:

- Milli böhranların idarə edilməsi qanunvericiliyi, konsepsiyası və sisteminin inkişafı, Böhranların İdarə edilməsi Mərkəzin fəallaşması;
- Uzunmüddətli strategiya əsasında MFP heyətinin və ilkin cavab qüvvələrinin təlim sisteminin yaxşılaşdırılması;
- Əhalinin və mühüm infrastrukturun mühafizəsi üçün KBRN qabiliyyətlərinin yaxşılaşdırılması;
- Kiber müdafiə və e-hökumət üçün elektron qabiliyyətlərin inkişafı.

Yuxarıda qeyd olunan sahələrin inkişaf etdirilməsi üçün NATO tərəfindən mülki ekspertiza təqdim edilir. İlk 3 sahə üzrə vəziyyəti qiymətləndirmək üçün NATO-nun Məşvərətçi Dəstək Qrupu 2008-ci ilin noyabrında Azərbaycana səfər etmişdir. Hazırlanan hesabatda verilən tövsiyələr yardım, əməkdaşlıq və konkret addımlar üçün istiqamət qismində çıxış edəcək. Hazırda Azərbaycanda kiber müdafiə və e-hökumətin inkişaf etdirilməsi istiqamətində məsləhətləşmələr aparılır.

Yekun olaraq qeyd etmək lazımdır ki, təbii və insan tərəfindən törədilən fəlakətlərlə bağlı daimi riskləri nəzərə alaraq, NATO və Tərəfdaş dövlətlər MFP qabiliyyətlərinin və beynəlxalq yardım mexanizmlərinin daha da gücləndirilməsi üçün birgə işləyirlər. Bu xüsusda, Azərbaycan NATO MFP-yə əlavə dəyər verən töhfələr etmək üçün səylər göstərir. NATO MFP ilə dinamik əməkdaşlıq qarşılıqlı qüvvətləndirmə təsiri verir. Bu, Azərbaycanın milli qabiliyyətlərini gücləndirərək onu ehtiyac duyulan vaxt və məkanda beynəlxalq yardıma töhfə verməyə hazırlayır.

2. General-Polkovnik Kəmaləddin Heydərov, Azərbaycan Respublikasının Fövqəladə Hallar Naziri, “MFP sahəsində NATO Azərbaycan əməkdaşlığı: qarşıdakı yol, Perceptions Bülleteni, N°7, aprel 2009-cu il



# foto sərgi

## Siyasi Dialoq [1]



Azərbaycan Respublikasının Prezidenti Zati-Aliləri cənab Heydər Əliyev Sülh Naminə Tərəfdaşlıq üzrə Çərçivə Sənədini imzalayır, 4 may 1994



Azərbaycan Respublikasının Prezidenti Zati-Aliləri cənab Heydər Əliyev NATO MQ-yə səfər edir, 23 aprel 1996

1. Bu hissədə yerləşdirilmiş şəkillər NATO-nun www.nato.int internet ünvanından götürülmüşdür.



NATO-nun Baş Katibi cənab Jaap de Hoop Sxeffer Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi NATO MQ-də salamlayır, 8 noyabr 2006



Azərbaycan Respublikasının Müdafiə Naziri general-polkovnik Səfər Əbiyev və NATO-nun Beynəlxalq Hərbi Qərargahının Direktor müavini general-mayor Corc Lebel arasında ikitərəfli görüş



NATO-nun Baş Katibi cənab Corc Robertson Azərbaycana səfəri zamanı Milli Elmlər Akadamiyasında Virtual İpək Yolu Stansiyasının açılışında iştirak edir, 15 may 2003






Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ŞAŞ-da çıxış edir, 29 aprel 2009



NATO-nun Baş Katibi cənab Jaap de Hoop Sxeffer Azərbaycan Respublikasının Xarici işlər naziri cənab Elmar Məmmədyarovu NATO MQ-də salamlayır, 9 dekabr 2008



Azərbaycan Respublikasının Müdafiə Naziri general-polkovnik Səfər Əbiyev (sağda), NATO-nun Baş Katibi cənab Jaap de Hoop Sxeffer (ortada) and Azərbaycan Respublikasının NATO yanında Nümayəndəliyinin başçısı Səfir Kamil Xasiyev (solda)



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və NATO-nun Baş Katibi cənab Jaap de Hoop Sxeffer NATO MQ-də mətbuata brifinq verir, 29 aprel 2009



NATO-nun Baş Katibi cənab Corc Robertsonun iştirakı ilə NATO ilə Əməkdaşlıq üzrə Komissiyanın iclası, 15 may 2003




Azərbaycan Respublikasının Xarici işlər nazirinin müavini cənab Araz Əzimov (solda) və Müdafiə Siyasəti və Planlaşdırma üzrə NATO Baş Katibinin Müavini cənab Yiri Şedivi Müdafiə Siyasəti və Strategiyası üzrə SNT Konfransında, 1 oktyabr, 2009, Bakı, Azərbaycan



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və NATO-nun Baş Katibi cənab Jaap de Hoop Sxeffer, NATO MQ, 19 may 2004

## Azərbaycan hərbiçiləri sülhməramlı əməliyyatlarda











# aidiyyəti sənədlər

## Sülh Naminə Tərəfdaşlıq: Şimali Atlantika Şurasının Görüşündə iştirak edən Dövlət və Hökumət Başçıları tərəfindən qəbul edilmiş Dəvət Sənədi

Brüssel, 10 yanvar 1994

Biz, Şimali Atlantika Şurasının üzv dövlətlərinin Dövlət və Hökumət Başçıları, Şimali Amerika və Avropa Müttəfiqləri arasında yaxın və uzunmüddətli tərəfdaşlığa əsaslanaraq, bütün Avropada təhlükəsizliyi və sabitliyi gücləndirməyə sadiqik. Bunun üçün, biz, bizim Şərqdə yerləşən demokratik dövlətlərlə əlaqələri gücləndirməyi arzulayırıq. Biz, bir daha, Vaşinqton Müqaviləsinin 10-cu maddəsində deyildiyi kimi, Alyansın Müqavilənin prinsiplərini irəliyə aparmaq və Şimali Atlantika məkanında təhlükəsizliyə töhfə vermək vəziyyətində olan digər Avropa dövlətlərinin üzvlüyünə açıq olduğunu bəyan edirik. Biz gözləyirik və təkamül prosesinin bir hissəsi olaraq və bütün Avropada siyasi və təhlükəsizlik irəliləyişlərini nəzərə alaraq, bizim Şərqdəki demokratik dövlətlərə NATO-nun genişlənməsinin çatmasını alqışlayardıq.

Biz bu gün bilavasitə və praktiki proqrama başlayırıq və bu NATO ilə iştirakçı dövlətlərin münasibətlərini transformasiya edəcək. Bu yeni proqram dialoq və əməkdaşlıqdan kənara çıxaraq – Sülh Naminə Tərəfdaşlıq - əsil tərəfdaşlıq formalaşdırır. Biz bunun üçün Şimali Atlantika Əməkdaşlıq Şurasında və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsində iştirak edən və bu proqrama töhfə verməyə qabil və hazır olan digər dövlətləri bizimlə bu tərəfdaşlığa qoşulmağa dəvət edirik. Sülh Naminə Tərəfdaşlıq Proqramında fəal iştirak NATO-nun genişlənməsinin təkamül prosesində mühüm rol oynayacaq.

Şimali Atlantika Şurasının səlahiyyəti altında fəaliyyət göstərəcək Sülh Naminə Tərəfdaşlıq Şimali Atlantika Alyansı və onun Sülh Naminə Tərəfdaşları arasında yeni təhlükəsizlik münasibətləri formalaşdıracaq. Tərəfdaş dövlətlər Şimali Atlantika Şurası tərəfindən NATO-nun Mənzil Qərargahında Tərəfdaşlıq fəaliyyətlərinə dair siyasi və hərbi qurumlarda iştirak etməyə dəvət ediləcək. Tərəfdaşlıq bütün Avropada siyasi və hərbi əməkdaşlığı genişləndirəcək və sürətləndirəcək, sabitliyi artıracaq, sülhə təhdidləri azaldacaq, və praktiki əməkdaşlıq ruhunun və bizim Alyansın əsasını təşkil edən prinsiplərə sadiqliyin təmin edilməsi vasitəsilə gücləndirilmiş əlaqələr quracaq. NATO, bu Tərəfdaşlıqda fəal istənilən iştirakçı ilə həmin tərəfdaş öz ərazi bütövlüyü, siyasi müstəqilliyi və ya təhlükəsizliyinə birbaşa təhdid hiss etdikdə məsləhətləşmələr keçirəcək. Fərdi iştirakçı dövlətlərin imkanları və istəyi ilə müəyyən edilən sürət və dairədə, biz, konkret yollarla müdafiə büdcəsinin şəffaflığı, müdafiə nazirlikləri üzərində demokratik nəzarətin həvəsləndirilməsi, birgə planlama, birgə hərbi təlimlər, və sülhməramlı, axtarış və xilasetmə və humanitar əməliyyatlar kimi, və digər razılaşdırıla bilinən sahələrdə NATO qüvvələri ilə əməliyyat aparmaq imkanlarının yaradılması üzrə işləyəcəyik.

Daha yaxın hərbi əməkdaşlıq və qarşılıqlı uzlaşmanı həvəsləndirmək üçün Tərəfdaşlıq çərçivəsində 1994-cü ildən başlayaraq sülhməramlı sahə təlimlərini təklif edəcəyik. Tərəfdaşlıq çərçivəsində birgə hərbi fəaliyyəti əlaqələndirmək üçün, biz, Tərəfdaşlıqda iştirak edən dövlətləri NATO Mənzil Qərargahına və Monsdakı (Belçika) ayrıca Tərəfdaşlıq Əlaqələndirmə Bölməsinə daimi əlaqələndirici zabitlər göndərməyə dəvət edirik. Bunlar, Şimali Atlantika Şurasının səlahiyyəti altında tərəfdaşlıq proqramlarının icrası üçün zəruri olan hərbi planlamanı həyata keçirərdilər.

İki il bundan əvvəl başlamasından bəri,

Şimali Atlantika Əməkdaşlıq Şurası (ŞAƏŞ) öz fəaliyyətinin dərinliyini və əhatəsini çox genişləndirmişdir. Biz bütün ŞAƏŞ tərəfdaşlarımızla Alyansın bütün fəaliyyət istiqamətləri üzrə əməkdaşlıq münasibətlərinin qurulması üçün işləməyi davam edəcəyik. ŞAƏŞ fəaliyyətinin genişlənməsi və Sülh Naminə Tərəfdaşlığın yaradılması ilə, biz, işçi münasibətlərin yaxşılaşdırılması və daha yaxın əməkdaşlığın sürətləndirilməsi üçün ŞAƏŞ ölkələri və digər Sülh Naminə Tərəfdaşlıq iştirakçılarının heyətləri üçün NATO Mənzil Qərargahında daimi yerlər təklif etməyə qərara almışıq.





## SNT: ŞAŞ Görüşündə iştirak edən Dövlət və Hökumət Başçıları tərəfindən qəbul edilmiş Çərçivə Sənədi

Brüssel, 10 yanvar 1994

1. NATO Dövlət və Hökumət Başçılarının 10/11 yanvar 1994-cü il iclasındakı edilmiş dəvətə əlavə, Şimali Atlantika Şurasının üzv dövlətləri və bu sənədə qoşulan dövlətləri, siyasi və hərbi əlaqələrini dərinləşdirməyə və Avro-Atlantik məkanda təhlükəsizliyin daha da gücləndirilməsinə töhfə vermək qətiyyətində olaraq, bununla ŞAƏŞ çərçivəsi tərkibində Sülh Naminə Tərəfdaşlığı yaradırlar.

2. Bu Tərəfdaşlıq Avro-Atlantik məkanda sabitlik və təhlükəsizliyin yalnız əməkdaşlıq və birgə addımlar vasitəsilə nail oluna biləcəyi haqda birgə əminliyin ifadəsi olaraq yaradılır. Fundamental azadlıq və insan haqlarının müdafiəsi və həvəsləndirilməsi, demokratiya vasitəsilə azadlığın, ədalətin və sülhün qorunması bu Tərəfdaşlığa xas olan birgə dəyərlərdir.

Tərəfdaşlığa qoşularaq, Şimali Atlantika Şurasının üzv dövlətləri və bu sənədə qoşulan digər dövlətlər xatırladırlar ki, onlar demokratik cəmiyyətlərin, onların məcburetmə və qorxudan azadlığının qorunmasına və beynəlxalq hüququn prinsiplərinin saxlanmasına sadiqdirlər.

Onlar bir daha BMT Nizamnaməsinin öhdəliklərini və İnsan Haqları üzrə Universal Deklarasiyanın prinsiplərini yaxşı inamda yerinə yetirəcəklərini təsdiq edirlər; xüsusilə, istənilən dövlətin ərazi bütövlüyünə və ya siyasi müstəqilliyinə güc tətbiq etmə hədəsi və ya istifadəsindən çəkinmək, mövcud sərhədlərə hörmətlə yanaşmaq və mübahisələri dinc yollarla həll etmək. Onlar həmçinin bir daha Helsinki Yekun Aktına və bütün növbəti ATƏM sənədlərinə və tərksilah və silahlara nəzarət sahəsində üzərlərinə götürdükləri öhdəliklərini təsdiq edirlər.

3. Bu sənədə qoşulan digər dövlətlər aşağıdakı məqsədlərin izlənilməsi üçün Şimali Atlantika Müqavilə Təşkilatı ilə əməkdaşlıq edəcək:

   a. milli müdafiə planlaması və büdcəsi proseslərinin şəffaflığının sürətləndirilməsi;

   b. müdafiə qüvvələri üzərində demokratik nəzarətin təmin edilməsi;

   c. BMT mandatı və/və ya ATƏM məsuliyyəti altında əməliyyatlara, konstitusiya tələblərini nəzərə almaq şərtilə, töhfə vermək qabiliyyətinin və hazırlığının saxlanması;

   d. sülhməramlı, axtarış və xilasetmə və humanitar əməliyyatlar kimi və digər razılaşdırıla bilinən sahələrdə qabiliyyətlərinin gücləndirilməsi üçün birgə planlama, treninq və təlim məqsədilə NATO ilə əməkdaşlıq hərbi münasibətlərinin inkişaf etdirilməsi;

   e. uzunsürədə, Şimali Atlantika Alyansının üzvlərinin qüvvələri ilə daha yaxşı fəaliyyət göstərə biləcək qüvvələrin inkişaf etdirilməsi.

4. Bu sənədə qoşulan digər dövlətlər NATO səlahiyyətlərinə Tərəfdaşlığın siyasi məqsədlərinə nail olmaq üçün atılacaq addımları və Tərəfdaşlıq fəaliyyətləri üçün

istifadə oluna biləcək hərbi və digər vasitələri müəyyən edən Təqdimat Sənədi təqdim edəcək. NATO Tərəfdaşlıq məqsədləri ilə uyğun olan tərəfdaşlıq təlimləri və digər fəaliyyətlər proqramı təklif edəcək. Bu proqrama və öz Təqdimat Sənədi əsasında, bu sənədə qoşulan hər bir dövlət NATO ilə fərdi Tərəfdaşlıq Proqramı inkişaf etdirəcək.

5. Öz fərdi Tərəfdaşlıq Proqramlarının hazırlanması və icrası üçün digər qoşulan dövlətlər Alyans və, zəruri olaraq, Belçika hakimiyyəti ilə razılıqda öz vəsaitləri hesabına Brüsseldə NATO Mənzil Qərargahında öz əlaqələndirici ofislərini yarada bilərlər. Bu onların ŞAƏŞ/Tərəfdaşlıq iclas və fəaliyyətlərində, habelə dəvət əsasında bəzi tədbirlərdə iştirakını sürətləndirəcək. Onlara həmçinin razılaşdırılmış Tərəfdaşlıq Proqramlarını həyata keçirmək üçün zəruri və müvafiq heyət, vasitələr, ləvazimat və qabiliyyətlər ayıracaqlar. NATO, ehtiyac yarandıqda, fərdi Tərəfdaşlıq Proqramlarının formalaşdırılması və icrasında onlara yardım edəcək.

6. Digər qoşulan dövlətlər aşağıdakı anlaşmanı qəbul edirlər:

- paraqraf 3(d) istinad verilən missiyalarda iştirak etməyi planlaşdıran dövlətlər, uyğun olduqda, aidiyyəti NATO təlimlərində iştirak edəcəklər;
- onlar Tərəfdaşlıq fəaliyyətlərində öz iştirakını maliyyələşdirəcəklər, və digər hallarda iştirak etdikləri artan sayda təlimlərin xərclərini bölüşməyə çalışacaqlar;
- onlar müvafiq razılaşmadan sonra Monsda (Belçika) ayrıca Tərəfdaşlıq Əlaqələndirmə Bölməsinə daimi əlaqələndirici zabitlər göndərə bilərlər. Bunlar, Şimali Atlantika Şurasının səlahiyyəti altında tərəfdaşlıq proqramlarının icrası üçün zəruri olan hərbi planlamanı həyata keçirərdilər;
- planlama və hərbi təlimlərdə iştirak edənlər qarşılıqlı uzlaşmaya aid NATO-nun müvafiq texniki məlumat bazasına giriş əldə edəcəklər;
- ATƏM müdafiə planlaması tədbirlərinə əsaslanaraq, digər qoşulan dövlətlər və NATO ölkələri müdafiə planlaması və büdcə məsələlərində şəffaflığın həvəsləndirilməsi və silahlı qüvvələr üzərində demokratik nəzarətin təmin edilməsi üçün atılmış və ya atılan addımlar üzrə məlumat mübadiləsi edəcək;
- onlar ŞAƏŞ/Sülh Naminə Tərəfdaşlıq çərçivəsində hazırlanacaq müdafiə planlaması və büdcə məsələləri üzrə qarşılıqlı əsasda məlumat mübadiləsində iştirak edə bilərlər.

7. Sülh Naminə Tərəfdaşlıq məqsədlərinə sadiqliyinə uyğun olaraq, Şimali Atlantika Alyansının üzvləri:

- Alyans qüvvələri ilə əlaqədə beynəlxalq treninq, təlim və əməliyyatlara digər qoşulan dövlətlərin verə biləcəyi qüvvə və qabiliyyətlərin müəyyənləşdirilməsi və qiymətləndirilməsi üçün digər qoşulan dövlətlərlə planlama və icmal prosesini işləyib hazırlayacaqlar;
- Planlama, treninq, təlimlər və doktrinaların hazırlanması da daxil olmaqla müvafiq Tərəfdaşlıq fəaliyyətlərinə istiqamət və rəhbərlik vermək üçün NATO Mənzil Qərargahında hərbi və siyasi əlaqələndirməni həvəsləndirəcəklər.

8. NATO, bu Tərəfdaşlıqda fəal istənilən iştirakçı ilə həmin tərəfdaş öz ərazi bütövlüyü, siyasi müstəqilliyi və ya təhlükəsizliyinə birbaşa təhdid hiss etdikdə məsləhətləşmələr keçirəcək.



## Avro-Atlantik Tərəfdaşlıq Şurasının Əsas Sənədi

Sintra, Portuqaliya, 30 may 1997-ci il

1. Şimali Atlantika Əməkdaşlıq Şurasının üzv ölkələri və Sülh Naminə Tərəfdaşlıq (proqramının) iştirakçı dövlətləri siyasi və hərbi əməkdaşlığı keyfiyyətcə yeni səviyyəyə qaldırmağı qət edərək, AATŞ-ı yaratmağı qərara gəlmişlər. Bununla, onlar Sülh Naminə Tərəfdaşlığın Çərçivə Sənədində qeyd olunmuş, əməkdaşlığın əsasını təşkil edən və birgə dəyərlər və prinsiplər əsasında Avro-Atlantik məkanda sülh və sabitliyin gücləndirilməsi və genişləndirilməsi üçün birgə öhdəliklərini təsdiq edirlər.

2. Avro-Atlantik Tərəfdaşlıq Şurası həm tərəfdaşlığın genişlənmiş siyasi ölçüsü, həm də SNT çərçivəsində praktiki əməkdaşlıq üzrə gücləndirilmiş səylər üçün çərçivə təşkil edən yeni əməkdaşlıq mexanizmi olacaqdır. O, tam olaraq ATƏT-in və Avropa İttifaqı, Qərbi Avropa İttifaqı və Avropa Şurası kimi beynəlxalq təşkilatların aidiyyəti fəaliyyətlərini nəzərə alacaq və onları tamamlayacaq.

3. Avro-Atlantik Tərəfdaşlıq Şurası, Şimali Atlantika Əməkdaşlıq Şurasının varisi olaraq, üzvləri arasında geniş səpgili siyasi və təhlükəsizliklə bağlı məsələlər üzrə məsləhətləşmələrin müfəssəl çərçivəsini təmin edəcəkdir ki, bu da təcrübə əsasında formalaşacaq prosesin bir hissəsi olacaqdır. SNT gücləndirilmiş formada bu çevik çərçivə daxilində aydın şəkildə tanınan element olacaqdır. Onun baza prinsipləri etibarlı olaraq qalacaqdır. Avro-Atlantik Tərəfdaşlıq Şurası öz fəaliyyətini NATO-nun əməkdaşlıq fəaliyyətlərinin mövcud çərçivəsi üzərində quracaq və əməkdaşlığın şəffaf şəkildə inkişaf etdirilməsi üçün onların üstünlüyünü qoruyacaq. Şura ilə məsləhətləşmələrin və əməkdaşlığın genişləndirilmiş ölçüsü Tərəfdaşlara imkan verəcək ki, arzu edərlərsə, Alyans ilə birbaşa və ya kiçik qruplar halında siyasi münasibətlər inkişaf etdirsinlər. Bundan əlavə, Şura Tərəfdaşların iştirak etdiyi fəaliyyətlərin qərar qəbulunda maksimum dərəcədə və mümkün olduğu qədər iştiraka imkan verən çərçivə təmin edəcəkdir.

4. Avro-Atlantik Tərəfdaşlıq Şurası indiyə kimi Müttəfiqlər və Tərəfdaşlar arasında əməkdaşlığın uğurunu dəstəkləyən 2 əsas prinsipi əsas götürəcəkdir. Onun siyasi məsləhətləşmə və praktiki əməkdaşlığı bərabər olaraq Müttəfiqlərə və Tərəfdaşlara açıq olacaqdır. O, həmçinin özünü fərqləndirməni əsas götürəcək və bu Tərəfdaşlara imkan verəcək ki, NATO ilə əməkdaşlıq səviyyəsini və sahələri barədə özləri qərar versinlər. Şura çərçivəsində görülən tədbirlər artıq ikitərəfli qaydada Tərəfdaşlar və NATO arasında götürülmüş öhdəliklərə və ya səkkizinci maddədə göstərilmiş məsləhətləşmə bəndi də daxil olmaqla SNT Çərçivə Sənədindəki öhdəliklərə mənfi təsir etməyəcəkdir.

5. Avro-Atlantik Tərəfdaşlıq Şurası, tələb olunduğu qaydada, müxtəlif formatlarda toplanacaqdır:
   - Ümumi narahatçılıq təşkil edən siyasi və təhlükəsizlik məsələlərini nəzərdən keçirmək və uyğun olan şəkildə məhdud iştiraka açıq olan tədbirlər barədə məlumat vermək üçün plenar sessiya;
   - Funksional məsələləri və ya ad hoc şəkildə müvafiq regional məsələləri müzakirə etmək üçün Alyans və Tərəfdaşların açıq qrupları arasında məhdud formatda; Belə hallarda, digər AATŞ üzvlərinə nəticələr haqqında məlumat veriləcəkdir.
   - Alyans və NATO-nun sülhə dəstək əməliyyatlarında və Planlaşdırma və

Analiz Prosesində iştirak edən Tərəfdaş qrupları arasında məhdud formatda və bu formatın razılaşdırıldığı digər hallarda. Digər AATŞ ölkələri uyğun olan hallarda məlumatlandırılacaqlar.

- Alyans və Tərəfdaş arasında fərdi formatda.

## STRUKTUR

6. Avro-Atlantik Tərəfdaşlıq Şurası, ümumi qayda olaraq, aylıq əsasda səfirlər səviyyəsində Brüsseldə toplanacaq.

7. Şura ildə iki dəfə Xarici İşlər və Müdafiə Nazirləri səviyyəsində görüşəcəklər; tələb olunan hallarda əlavə görüşlər nəzərdə tutula bilər. Uyğun olduğu halda, o, dövlət və hökumət başçıları səviyyəsində də toplana bilər.

8. Şuraya Şimali Atlantika Alyansının Baş Katibi və ya onun müavini sədrlik edəcəkdir. Üzv dövlətin nümayəndəsi hazırlanacaq prosedurlara uyğun olaraq 6 aylığa fəxri prezident adlandırılacaqdır.

9. Avro-Atlantik Tərəfdaşlıq Şurasının işi müntəzəm olaraq Müttəfiqlərin Tərəfdaşlarla birgə iştirak etdiyi Hərbi-siyasi rəhbər komitə (HSRK) və Siyasi Komitə (SK) tərəfindən dəstəklənəcəkdir. Ad hoc əsasda və tələb olunduğu hallarda AATŞ Ali Siyasi Komitəsi ona istinad olunan məsələləri müzakirə edə bilər. AATŞ, inkişaf edən praktiki təcrübə əsasında, bu dəstək Şimali Atlantika Əməkdaşlıq Şurası/SNT formatında HSRK və genişləndirilmiş Siyasi Komitənin funksiyalarını inteqrə edən AATŞ Rəhbər Komitəsi vasitəsilə necə təkmilləşdirilə biləcəyini nəzərdən keçirəcək.

   HSRK, uyğun olduğu qaydada, Alyansın fərdi Tərəfdaşlarla və ya Alyans və Tərəfdaş qrupları (məsələn, PAP) konfiqurasiyasında toplanacaq. Tərəfdaşlarla HSRK və SK ən azı ayda bir dəfə, tələb olunarsa, daha çox toplanacaq. Digər NATO Komitələri Tərəfdaşlarla işləmək üçün imkanları genişləndirəcək və bu istiqamətdə görülən işlər barədə AATŞ-ə məlumat verəcək. Onların fəaliyyəti Avro-Atlantik Tərəfdaşlıq Şurası çərçivəsinin bir hissəsi olacaq. Bu çərçivənin mühüm bir hissəsi Hərbi Komitə ilə Tərəfdaş məsləhətləşmələri üçün yeni imkanlar olacaq. Hərbi Komitə də AATŞ-ın gələcək dəstək strukturu tərəfindən təmin olunan məsləhətləşmə və əməkdaşlıq üzrə genişləndirilmiş imkanlarda mühüm rol oynayacaq.

## ƏHATƏ OLUNAN SAHƏLƏR

10. Avro-Atlantik Tərəfdaşlıq Şurası yarandığı vaxt Şimali Atlantika Əməkdaşlıq Şurasının Dialoq, Tərəfdaşlıq və Əməkdaşlıq iş planını qəbul edəcək və gələcək işinin hissəsi kimi onu AATŞ İş Planı ilə əvəz edəcək. Tərəfdaşlıq İş Proqramına daxil edilmiş tədbirlər də AATŞ-ın ümumi nəzarətinə keçəcəkdir.

11. AATŞ çərçivəsində Müttəfiqlər və Tərəfdaşların məsləhətləşmək istədiyi səciyyəvi sahələr növbəti sahələri əhatə edə bilər, lakin onlarla məhdudlaşmır: siyasi və təhlükəsizlik məsələləri, böhranların idarə edilməsi, regional məsələlər; silahlara nəzarət məsələləri; nüvə, bioloji and kimyəvi yayılma və müdafiə məsələləri; beynəlxalq terrorizm; müdafiə planlaşdırması və büdcəsi, müdafiə siyasəti və strategiyası; iqtisadi inkişafların təhlükəsizlik nəticələri. Bundan əlavə, növbəti sahələr üzrə məsləhətləşmə və əməkdaşlıq üçün miqyas olacaq: mülki fövqəladə hallar və fəlakətlərə hazırlıq; Milli Silahlandırma Direktorları Konfransı çərçivəsində silahlar sahəsində əməkdaşlıq; nüvə təhlükəsizliyi; müdafiə ilə bağlı ətraf mühit məsələləri; hava hərəkətinin və nəzarətinin mülki-hərbi əlaqələndirilməsi; elmi əməkdaşlıq və sülhə dəstək əməliyyatları ilə bağlı məsələlər.

## ÜZVLÜK

12. Mövcud ŞAƏŞ üzvləri və SNT-də iştirak edən ölkələr, arzu edərlərsə, avtomatik olaraq Avro-Atlantik Tərəfdaşlıq Şurasının üzvləri olurlar. Avro-Atlantik Tərəfdaşlıq Şurasına üzvlük onun prinsiplərini qəbul edən və məqsədlərinə töhfə verməyə qadir olan və istəyən digər ATƏT ölkələrinə açıqdır. Yeni üzvlər SNT Çərçivə sənədini imzalayaraq Sülh Naminə Tərəfdaşlıq proqramına qoşulmaqla və bu sənəddə əks olunan AATŞ konsepsiyasını qəbul etdiklərini bəyan etməklə, AATŞ-a daxil ola bilərlər. AATŞ yeni üzvlərin qəbul edilməsini təsdiq etməyə dəvət olunacaqlar.



# Terrorizmə Qarşı Tərəfdaşlıq Fəaliyyət Planı (PAP-T)

### Giriş

1. 12 sentyabr 2001-ci il tarixində Avro-Atlantik Tərəfdaşlıq Şurasının üzv dövlətləri 11 sentyabr 2001-ci il tarixində Amerika Birləşmiş Ştatlarına qarşı törədilmiş terror hücumlarını qeyd-şərtsiz qınadılar və terrorçuluq bəlasına qarşı bütün səylərini yönəltməyə söz verdilər.

2. Bu öhdəliyi əsas götürərək, bununla, Avro-Atlantik Tərəfdaşlıq Şurasının üzv dövlətləri (bundan sonra AATŞ dövlətləri) terrorçuluqla mübarizə sahəsindəki beynəlxalq hüquqi öhdəliklərini yerinə yetirmək məqsədilə, terrorçuluğa qarşı mübarizənin beynəlxalq ictimaiyyətin birgə və müfəssəl səyini tələb etdiyini anlayaraq və indiyə kimi AATŞ çərçivəsində aparılan uğurlu əməkdaşlıq əsasında bu səylərə səmərəli töhfə vermək qətiyyətini nəzərə alaraq, Terrorçuluğa qarşı Tərəfdaşlıq Əməliyyat Planını təsdiq edirlər.

3. AATŞ dövlətləri, beynəlxalq hüququn norma və prinsipləri, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi və Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1373 saylı qətnaməsinə uyğun olaraq, terrorçuluğun bütün forma və təzahürlərinin qarşısını almaq və ləğv etmək üçün öz imkanları çərçivəsində bütün səyləri göstərəcəklər. Bu müstəvidə, onlar, xüsusilə "əməliyyat məlumatlarının, konkret olaraq, terror fəaliyyətləri və ya terrorçu şəxslərin və ya şəbəkələrin yerdəyişməsi barədə məlumat mübadiləsinin intensivləşdirilməsi və sürətləndirilməsi" yollarını axtaracaq, "bu ciddi problemə və beynəlxalq təhlükəsizliyə yönələn hədəyə qlobal cavabın gücləndirilməsi üçün milli, subregional, regional və beynəlxalq səviyyələrdə səylərin əlaqələndirilməsinin gücləndirilməsi ehtiyacını vurğulayacaqlar.

4. AATŞ dövlətləri, terrorçuluqla mübarizədə fundamental insan haqları və azadlıqları, eləcə də qanunun aliliyinin qorunması və təşviq olunmasına sadiqdirlər.

5. AATŞ dövlətləri, terrorçuluqla mübarizə üzrə müvafiq BMT konvensiyalarının imzalanması, ratifikasiya və icra olunması ilə bağlı qətiyyətlərini bir daha təsdiq edirlər.

6. AATŞ dövlətləri, təhlükəsizlik və müdafiə siyasətlərinin səciyyəvi xarakterinə və AATŞ-ın hamını ehtiva etmə və özünü fərqləndirmə prinsiplərinə uyğun olaraq, AATŞ çərçivəsində terrorçuluqla mübarizə sahəsində əməkdaşlıq edəcəklər. Onlar bu çərçivədəki səylərinin aidiyyəti beynəlxalq təşkilatların göstərdiyi səyləri tamamlamasına çalışacaqlar.

### Məqsədlər

7. AATŞ dövlətləri, Avro-Atlantik Tərəfdaşlıq Şurası və Sülh naminə Tərəfdaşlıq çərçivəsində terrorçuluqla mübarizəyə aidiyyəti olan bir sıra sahələr üzrə əməkdaşlıq edirlər. Digərləri ilə yanaşı, bunlara siyasi məsləhətləşmələr, əməliyyatlar, hərbi uyarlıq məsələləri, müdafiə və qüvvə planlaşdırması və müdafiə islahatları, nəticələrin aradan qaldırılması, o cümlədən, mülki fövqəlada planlaşdırma, hava hücumundan müdafiə və hava məkanının idarə olunması, silahlanma sahəsində əməkdaşlıq, sərhəd nəzarəti və təhlükəsizliyi, terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması, silah və sursatların qaçaqmalçılığının qarşısının alınması, elm, eləcə də silahlara nəzarət və yayılmama daxildir. AATŞ dövlətləri vurğulayırlar ki, silahlara nəzarət və yayılmama, xüsusilə KQS-lərin istifadəsinin qarşısını almağa kömək etməklə, terrorçuluqla qlobal mübarizəyə mühüm töhfə verir. Bu müstəvidə, AATŞ dövlətləri, mövcud çoxtərəfli mexanizmlərə qoşulmağın və onların səmərəli icrasının vacibliyini vurğulayırlar.

8. AATŞ dövlətləri, Tərəfdaşlıq Əməliyyat Planı vasitəsilə terrorçuluqla beynəlxalq mübarizəyə aidiyyəti olan mövcud və yeni AATŞ/SNT tədbirlərini müəyyən və təşkil edəcək və sistemləşdirəcəklər.

9. Terrorçuluğa qarşı Tərəfdaşlıq Əməliyyat Planının əsas məqsədləri aşağıdakılardır:

- Ümumi demokratik dəyərlərə əsaslanaraq, AATŞ dövlətlərinin terrorçuluğun inkişafı və genişlənməsi üçün münbit olmayan mühitin yaradılması və onların bu sahədə qarşılıqlı yardım etmək qətiyyətini bir daha təsdiq etmək;
- AATŞ dövlətlərinin terrorçuluğun bütün forma və təzahürlərinə qarşı fəaliyyət göstərmək qətiyyətini, eləcə də terror hücumlarının qarşısının alınması, onlardan müdafiə olunma və nəticələrin aradan qaldırılması istəyini vurğulamaq;
- Maraq göstərən Tərəfdaşları, səciyyəvi təhlükəsizlik və müdafiə siyasətlərinə uyğun olaraq, NATO-nun terrorçuluqla mübarizə səylərinə töhfə və dəstək vermək üçün artan imkanlarla təmin etmək;
- AATŞ və SNT çərçivəsində siyasi məsləhətləşmələr və praktiki proqramlar vasitəsilə AATŞ dövlətlərinin terrorçuluqla mübarizə sahəsində əməkdaşlığını təşviq etmək və asanlaşdırmaq;
- Müraciət əsasında, iqtisadi və digər mühüm infrastrukturlar da daxil olmaqla, terror hücumlarının nəticələrinin və risklərinin aradan qaldırılması üzrə AATŞ dövlətlərinə yardım təmin etmək.

**Mexanizmlər**

10. Terrorçuluğa qarşı Tərəfdaşlıq Əməliyyat Planı, AATŞ çərçivəsində Tərəfdaşlarla məsləhətləşmələrdən sonra, Şimali Atlantika Şurasının rəhbərliyi altında fəaliyyətə başlamışdır.

11. Terrorçuluğa qarşı Tərəfdaşlıq Əməliyyat Planı, Avro-Atlantik Tərəfdaşlıq Şurasının Müfəssəl İcmalı üzrə Hesabatda və Sülh naminə Tərəfdaşlıqda nəzərdə tutulduğu kimi, Müttəfiqlərin və maraq göstərən Tərəfdaşların praktiki əməkdaşlığı üçün konkret mövzuya həsr olunmuş, nəticə istiqamətli ilk mexanizmdir.

12. Bu əməliyyat planı hamını ehtiva etmə və özünü fərqləndirmə prinsipləri əsasında AATŞ/SNT mexanizmləri vasitəsilə həyata keçiriləcək, NATO və Tərəfdaşlar arasında Fərdi Tərəfdaşlıq Proqramları və ya Fərdi Tərəfdaşlıq Əməliyyat Planlarında əks olunacaq.

13. Şimali Atlantika Şurası, Tərəfdaşlarla məsləhətləşərək, müntəzəm əsasda Terrorçuluğa qarşı Tərəfdaşlıq Əməliyyat Planının icrasında əldə olunan tərəqqini qiymətləndirəcək və terrorçuluğa qarşı beynəlxalq mübarizənin mümkün yeni çağırışlarını və vəziyyətini nəzərə alaraq, onun məzmununu nəzərdən keçirəcəkdir.

14. Terrorçuluğa qarşı Tərəfdaşlıq Əməliyyat Planında qeyd olunan tədbirlər AATŞ dövlətlərinin terrorçuluğa qarşı mübarizə sahəsində həyata keçirdikləri digər təşəbbüslərin qarşısını almayacaqdır. AATŞ dövlətləri terrorçuluğa qarşı mübarizə sahəsində regional əməkdaşlıq təşəbbüslərini təşviq etməyə və yeni təhlükəsizlik təhdidlərinə cavab verməyə davam edəcəklər, eləcə də bu təşəbbüslərin AATŞ çərçivəsində göstərilən səyləri tamamlamasına çalışacaqlar.

15. Aralıq Dənizi Dialoqu Tərəfdaşlarının və digər dövlətlərin Terrorçuluğa qarşı mübarizə üzrə Tərəfdaşlıq Əməliyyat Planında nəzərdə tutulan seminarlarda və digər tədbirlərdə iştirakı tək-tək nəzərdən keçirilə bilər.

**Əməliyyat Planı**

16. Terrorçuluğa qarşı Tərəfdaşlıq Əməliyyat Planında əks olunan səciyyəvi fəaliyyətlər aşağıda qeyd olunur, digərləri də sonradan əlavə oluna bilər. Bu fəaliyyətlərin həyata keçirilməsi müvafiq milli qanun və qaydalardan, AATŞ dövlətlərinin səciyyəvi təhlükəsizlik və müdafiə siyasətlərindən, hamını ehtiva etmə və özünü-fərqləndirmə prinsiplərdən asılı olacaqdır.

16.1. Məsləhətləşmələri və məlumat mübadiləsini intensivləşdirmək

16.1.1. Siyasi məsləhətləşmələr. Müttəfiqlər və Tərəfdaşlar terrorçuluqla bağlı ümumi təhlükəsizlik narahatçılıqları barədə müntəzəm olaraq məsləhətləşəcəklər. Müttəfiqlər, Alyansın müzakirələrinin ilkin mərhələlərindən başlayaraq, terrorçuluqla beynəlxalq mübarizə ilə bağlı məsələlər barədə Tərəfdaşlara məlumat vermək və/və ya onların mövqeyini öyrənmək üçün səylər göstərəcəklər. Tərəfdaşlar, razılaşdırılmış prosedurlara uyğun olaraq, fərdi və ya kiçik qrup halında terrorçuluqla bağlı narahatçılıqları üzrə NATO ilə birbaşa məsləhətləşmələr üçün müraciət edə bilərlər. Məsləhətləşmələr və müzakirələr Müttəfiq və Tərəfdaşların terrorçuluqla mübarizəyə aidiyyəti olan təhlükəsizlik narahatçılıqlarını əks etdirəcəkdir.

16.1.2. Məlumat mübadiləsi. AATŞ dövlətləri həm AATŞ iclaslarında, həm də AATŞ/SNT çərçivəsində keçirilən seminar və tədbirlərdə terrorçuluqla mübarizə sahəsində məlumatları və görüşləri bölüşmək üçün səylərini intensivləşdirəcəklər. Rəhbər ölkələr belə tədbirləri təşkil etməyə dəvət oluna bilərlər. AATŞ dövlətləri AATŞ/SNT Kəşfiyyat Əlaqələndirmə bölməsinin yaradılmasını qeyd edirlər. Onlar, yerli qanunlara uyğun olaraq, terror təhlükələri ilə bağlı kəşfiyyat məlumatlarının mübadiləsini təşviq edəcəklər.

16.1.3. Silahlanma sahəsində məlumat mübadiləsi. AATŞ dövlətləri, Milli Silahlandırma Direktorları Konfransının aidiyyəti qrupunda terrorçuluğa qarşı mübarizə sahəsində milli qabiliyyətləri yaxşılaşdıran, silahların inkişaf etdirilməsi və alınması tədbirləri ilə bağlı məlumatları bölüşəcəklər.

16.1.4. Təhlükəsizliyə yeni hədələrin və çağırışların müəyyən olunması və azaldılması üzrə elmi əməkdaşlıq. AATŞ Müasir Cəmiyyət Problemləri Komitəsində iştirak edən dövlətlər bu cəmiyyət bəlasının qarşısının alınması və azaldılması üzrə seçilmiş prioritet mövzularla məşğul olan milli ekspertlər şəbəkələri daxilində məlumatları mübadilə edəcəklər. Həm Tərəfdaş, həm də Müttəfiq ekspertləri bu əməkdaşlıq tədbirlərində iştirak edəcəklər. Səylərin tamamlanması, mühüm çatışmazlıqların müəyyən olunması və əməkdaşlıq layihələrinin həyata keçirilməsi məqsədilə digər NATO qurumları və beynəlxalq təşkilatlarla, o cümlədən Müdafiə Akademiyaları və Təhlükəsizlik Araşdırmaları İnstitutlarının SNT Konsorsimu ilə yaxın əlaqələr saxlanılacaq.

16.1.5. Mülki Fövqəladə Planlaşdırma. AATŞ dövlətləri, mülki əhalinin terrorçuluq və KQS hədələrinə məruz qalmasının risklərinin qiymətləndirilməsi və məruz qalmanın azaldılması məqsədilə aidiyyəti məlumatları bölüşəcək və Mülki Fövqəladə Planlaşdırmada fəal iştirak edəcəklər.

16.2. Terrorçuluqla mübarizə sahəsində hazırlığı gücləndirmək.

16.2.1. Müdafiə və təhlükəsizlik sektorunun islahatı. Tərəfdaşlar, terrorçuluqla mübarizəyə töhfə verməyə qadir olan səmərəli, demokratik nəzarət olunan, müvafiq şəkildə qurulmuş və yaxşı təchiz olunmuş qüvvələrin yaradılması üçün səylərini intensivləşdirəcəklər.

16.2.2. Qüvvə planlaşdırması. SNT Planlaşdırma və Analiz Prosesinə cəlb olunmuş Tərəfdaşlar, digər məqsədlərlə yanaşı, terrorçuluğa qarşı tədbirlərdə iştirak etmək üçün qabiliyyətlərini yaxşılaşdırmağı nəzərdə tutan Tərəfdaşlıq məqsədlərinə üstünlük verəcəklər. Belə Tərəfdaşlıq məqsədləri PARP çərçivəsində müəyyən ediləcək, həmçinin, məlumat üçün ekvivalent səylərin təşviq olunması məqsədilə PARP prosesində iştirak etməyən dövlətlərə də çatdırılacaq.

16.2.3. Hava Müdafiəsi və Hava Hərəkətinin İdarə edilməsi. Müttəfiqlər və Tərəfdaşlar, yeni vəziyyətə cavab olaraq, NATO Hava Müdafiə Komitəsinin apardığı hava müdafiəsi/hava nəzarəti qabiliyyətlərinin yaxşılaşdırılması və NATO Hava Hərəkatının İdarəedilməsi Komitəsinin mülki-hərbi Hava Hərəkatı Nəzarəti əlaqələndirmə prosedurların yaxşılaşdırılması səylərində əməkdaşlıq edəcək. Onlar, milli qərarlara əsaslanaraq, Hava Vəziyyəti Məlumatın Müttəfiq və Tərəfdaşlar arasında mübadiləsinin inkişaf etdirilməsinə töhfə verəcək.

16.2.4. Qüvvələr haqqında məlumat

mübadiləsi. AATŞ Dövlətləri terrorçuluğa qarşı əməliyyatlara məsul qüvvələrə dair məlumat mübadiləsinin həyata keçirilməsini və onlar arasında, uyğun olduqda, əlaqənin sürətləndirilməsini nəzərdən keçirə bilərlər.

16.2.5. Treninq və təlimlər. Tərəfdaşlar terrorçuluğa bağlı və Müttəfiqlərin Strateji Avropa Komandanlığı və Strateji Atlantik Komandanlığı tərəfindən əlaqələndiriləcək treninq imkanları və təlimlərdə iştirak etməyə dəvət ediləcəklər. Mümkün səviyyədə, Tərəfdaşlıq İş Proqramı treninq və təlim sahəsində daha çox anti-terrorla bağlı imkan və fəaliyyətlər təqdim edəcək. Təlimlər həm də terror əleyhinə mübarizədə təcrübə bölüşülməsi üçün istifadə ediləcək.

16.2.6. Silahlar üzrə əməkdaşlıq. AATŞ dövlətləri, terror əleyhinə fəaliyyətlərin tələblərini qarşılamaq naminə birgə və ya ən minimum, qarşılıqlı uzlaşan ləvazimatların inkişaf etdirilməsi üçün, uyğun olduqda, CNAD (Milli Silahlanma Direktorların Konfransı) nəzdindəki NATO-nun silahlar üzrə əməkdaşlıq mexanizmlərindən istifadə edəcək.

16.2.7. Logistika sahəsində əməkdaşlıq. AATŞ dövlətləri, Sahib Ölkə Dəstəyi də daxil olmaqla terror əleyhinə fəaliyyətlərə effektiv və səmərəli dəstəyin göstərilməsi naminə qaydaları inkişaf etdirmək üçün, uyğun olduqda, Ali NATO Logistika Nümayəndələri Konfransının nəzdindəki NATO Logistika əməkdaşlıq mexanizmlərindən istifadə edəcək.

16.3. Terror Qruplarına Dəstəyin Əngəllənməsi

16.3.1. Sərhəd nəzarəti. AATŞ dövlətləri sərhəd nəzarətinə məsul qurumları vasitəsilə beynəlxalq sərhədlərdən insanların və materialın qanunsuz hərəkətinin qarşısını almaq üçün səylərini gücləndirəcəklər. Onlar bu sahədə Sülh Naminə Tərəfdaşlıq vasitəsilə həyata keçirilən yardım səylərini dəstəkləyəcək. Bu kontekstdə, onlar arasında regional və beynəlxalq əməkdaşlıq daha da həvəsləndiriləcək.

16.3.2. İqtisadi müstəvi. AATŞ dövlətləri AATŞ İqtisadi Komitəsində terror əleyhinə beynəlxalq mübarizənin iqtisadi aspektlərinə dair, xüsusən terror fəaliyyətinin və metodlarının maliyyələşməsinin və terror qruplarının maliyyə qaynaqlarının qadağan edilməsinin tənzimləyici müddəalarına dair məlumat və fakir mübadiləsi aparacaq.

16.3.3. Silahlara nəzarət. AATŞ dövlətləri silahlara nəzarət sahəsində əməkdaşlığı davam etdirəcək və kütləvi qırğın silahları (KQS) vasitələrinə effektiv nəzarət və KQS ilə əlaqəli maddə və materialların təhlükəsiz məhv edilməsi məsələlərinə dair məsləhətləşəcək. Onlar həmdə 2002-ci ilin sonunadək Ballistik Raket Yayılmasına qarşı Davranış Məcəlləsinə nail olunması üzrə davam edən səyləri dəstəkləyəcək.

16.3.4. Kiçikçaplı və Yüngül Silahlar. AATŞ dövlətləri Kiçikçaplı və Yüngül Silahlar üzrə AATŞ ad hoc İşçi Qrupu vasitəsilə kiçikçaplı silah, sursat, partlayıcı və terrora dəstək üçün istifadə oluna bilən material və texnologiyaları üzrə məlumat mübadiləsini davam etdirəcək.

16.4. Nəticələrin aradan qaldırılmasına töhfə üçün qabiliyyətlərin gücləndirilməsi

16.4.1. KQS-lə əlaqəli terrorizm. Tərəfdaşlar, KQS-lə əlaqəli terror əleyhinə qabiliyyətləri gücləndirmək, və razılaşdırılacaq prosedurlara uyğun bu sahədə müvafiq məlumatın və təcrübənin bölüşülməsi üzrə NATO-nun rəhbərlik etdiyi fəaliyyətləri dəstəkləməyə və onlarda iştirak etməyə dəvət ediləcək.

16.4.2. Mülki-Fövqəladə Planlama sahəsində əmək-daşlığın gücləndirilməsi. AATŞ dövlətləri, Kimyəvi-Bioloji-Radioloji-Nüvə silahları da daxil olmaqla, KQS-lə əlaqəli mümkün terror hücumları üçün mülki hazırlığın gücləndirilməsi üçün əməkdaşlıqlarını, AATŞ formatında Ali Mülki Fövqəladə Planlama Komitəsi tərəfindən 26 noyabr 2001-ci ildə təsdiq edilmiş və 25 iyun 2002-ci ildə yenilənmiş Mülki Fövqəladə Planlama Fəaliyyət Planının icrasının davam etdirilməsi vasitəsilə, davam etdirəcək. Xüsusilə, Tərəfdaşlar, müraciət edildikdə, milli orqanlara, Alyansın Xarici İşlər Nazirləri Reykyavikdə təsdiq etdikləri təklifləri nəzərə almaqla, istənilən terror hücumunun nəticələrinə dair dəstək göstərilməsi üçün bütün mümkün variantların işlənilməsinə dair Ali Mülki Fövqəladə Planlama Komitəsi və onun Planlama Şura və Komitələri tərəfindən aparılan səylərlə özlərini assosiasiya edirlər. Bunlara spesifik olaraq aşağıdakılar daxildir:

Mülki və hərbi qurumlar arasında əməkdaşlıq: treninq və ekspertiza və habelə qarşılıqlı dəstəkdə daxil olmaqla mülki və hərbçilər arasında əməkdaşlıq imkanlarının müəyyən və inkişaf etdirilməsi.

Çevik cavab: hansı cür milli çevik cavabvermə qabiliyyətləri AATŞ dövlətlərinin, zərərçəkən dövlətin müraciəti əsasında, mülki əhali üçün KQS istifadəsinin nəticələrinə cavab vermə imkanlarının gücləndirilməsi biləcəyinin, və mülki ekspertizanın bu xüsusda necə töhfə verə biləcəyinin yoxlanılması; və həmin qabiliyyətlər arasında uzlaşmanın artırılması yolları üzrə AMFPK ilə, habelə AATŞ dövlətlərinin milli və ya birgə cavabvermə imkanlarının açıq olması üçün digər mümkün tədbirlər üzrə işləmək.

ümumi rəhbər sənədlər: AATŞ dövlətlərinin könüllü əsaslarda yararlana biləcəyi planlama, treninq, prosedurlar və ləvazimatlarla bağlı qeyri-məcburi ümumi rəhbər sənədlər və ya minimum standartlar.

qabiliyyətlərin siyahılaşdırılması: dəyə-rinin maksimallaşdırılması məqsədilə Milli Qabiliyyətlər Siyahısının inkişafı və incələnməsi.

xəbərdarlıq və aşkarlama: KQS təhdidləri halında aşkarlama və əhalinin xəbərdar edilməsinin yaxşılaşdırılmasında milli qurumlara dəstək verilməsi vasitələrinin NATO Hərbi Qurumları ilə əməkdaşlıqda yoxlanılması.

laboratoriyalar şəbəkəsi: daimi laboratoriyalar və səyyar cihazların yaradılmasının nəzərdən keçirilməsi.

tibbi protokollar: əlaqələndirilmiş cavab qabiliyyətlərini yaxşılaşdıra biləcək tibbi protokolların inkişaf etdirilməsinin yaxşılaşdırılması.

Fəlakətlərə Cavabın Əlaqələndirilməsi üzrə Avro-Atlantik Mərkəzin (FCƏAAM) rolunun gücləndirilməsi: KBRN silahları da daxil olmaqla KQS istifadəsi ilə terror hücumları halında bir-birinə sürətli, effektiv və səmərəli yardım göstərilməsi üzrə Müttəfiq və Tərəfdaşların bacarıqlarının təmin edilməsi üçün milli ekspertlərin töhfə verilməsi də daxil olmaqla FCƏAAM-in qabiliyyətlərinin daha da yaxşılaşdırılması.

sərhəd keçidi: Vacib Sərhəd Keçidi Nəqliyyat Hərəkətinin Sürətləndirilməsi üzrə Model Sazişlərə qoşulmaq.

16.4.3. Nəticələrin aradan qaldırılmasına hərbi töhfə. AATŞ dövlətləri, müraciət olduqda, mülki qurumlara, xüsusisə, kimyəvi, bioloji və radioloji silahların istifadəsilə hücumlarla bağlı dərhal yardım göstərilməsinə töhfə üçün verilə bilən hərbi qabiliyyətlər barədə Avropa Strateji Müttəfiq Komandanına məlumat verməyi nəzərdən keçirəcək.

16.4.4. Terrorozmin təsirinin azaldılması üçün qeyri-məxfi elmi fəaliyyətlər sahəsində əməkdaşlıq. AATŞ Elmi Komitəsindəki Dövlətlər terrora qarşı mübarizəyə uyğun mövzular üzrə elmi və texnoloji biliklərin mübadiləsini həyata keçirəcək. Əlavə olaraq, terror fəaliyyətlərinin zəiflədilməsi üçün daha yaxşı əsasın yaradılması üçün NATO-nun Təhlükəsizliklə bağlı Mülki Elm və Texnologiya Panelindən olan ekspertlər tərəfindən yönəlik əməkdaşlıq fəaliyyətləri aparılacaq. Müvafiq sahələrdə geniş elmi qabiliyyətləri olan Tərəfdaşlar terror təsirinin azaldılması üçün elmi əsasın yaradılmasında NATO alimləri ilə effektiv işləyəcəklər. Elm Komitəsi terror fəaliyyətlərinin elmi aspektləri haqqında Şimali Atlantika Şurasına və digər müvafiq komitələrə məsləhətlər verəcək, və KQS Mərkəzi və Tədqiqat və Texnologiya Təşkilatı da daxil olmaqla məxfi fəaliyyət aparan NATO qurumları ilə yaxından əməkdaşlıq edəcək.

16.4.5. Avadanlığın inkişaf etdirilməsi və alınması sahəsində əməkdaşlıq. AATŞ Dövlətləri, terror hücumundan

sonra nəticələrin aradan qaldırılmasını dəstəkləyən avadanlıq tələbatlarını müəyyən etmək üçün CNAD qruplarından faydalanacaqlar, və uyğun yerlərdə, bu ehtiyacların qarşılanması üçün inkişaf etdirmə və\və ya alınmasında əməkdaşlıq edəcək. Vurğu həm hərbi, həmdə ki mülki tələbləri dəstəkləyən ikili təyinatlı texnologiyalar üzərinə qoyulmalıdır.

16.5. Terrorizmə qarşı Tərəfdaşların səylərinə yardım.

16.5.1. Siyasi Hərbi Rəhbər Komitənin (SHRK) Əlaqələndirici Məlumat Mərkəzi (ƏMM) mexanizmindən istifadə. SHRK-nın mövcud çərçivə əsasında terrorla mübarizə sahəsi ilə bağlı Tərəfdaşların spesifik ehtiyaclarına yönələn ƏMM iclası həsr ediləcək.

16.5.2. SNT Etimad Fondunun yaradılması/töhfə verilməsi. SNT Etimad Fondu Siyasətinə uyğun olaraq, AATŞ Dövlətləri, terrorizmə qarşı spesifik səylərdə fərdi üzv dövlətlərə yardım etmək üçün, Avro-Atlantik Tərəfdaşlıq Şurasının və Sülh Naminə Tərəfdaşlığın Müfəssəl İcmalı üzrə Birləşmiş Hesabatda nəzərdə tutulduğu kimi, SNT Etimad Fondunun yaradılmasını nəzərdən keçirəcəklər. Belə Etimad Fondları xüsusilə Mərkəzi Asiya, Qafqaz və Balkanlardan olan Tərəfdaşlar üçün uyğun ola bilər. Bu layihələr prioriet məsələ kimi həyata keçiriləcək.

16.5.3. Mentorluq proqramları. AATŞ dövlətləri terrorla mübarizədə spesifik təcrübələri bölüşmək naminə spesifik terrorçuluq məsələləri ilə bağlı mentorluq proqramları hazırlayacaqlar. Terrorla mübarizədə təcrübə mübadiləsi üçün SNT ruhunda təlimlərdən fəal şəkildə istifadə ediləcək.

**Hesabat**

17. NATO-nun Baş Katibi Avro-Atlantik Tərəfdaşlıq Şurasının sədri qismində NATO və AATŞ Xarici İşlər və Müdafiə Nazirlərinə Terror Əleyhinə Tərəfdaşlıq Fəaliyyət Planına uyğun olaraq aparılan fəaliyyətlər barədə hesabat verə bilər.

18. Baş Katibi BMT TŞ 1373 saylı Qətnaməsinin icrasına Tərəfdaşlığın ilkin töhfəsi kimi BMT Təhlükəsizlik Şurasına təqdim edə bilər.





21. Cənubi Qafqazda vəziyyət xüsusi narahatçılıq doğurmaqda davam edir. Biz ərazi qazancları üçün güc tətbiq edilməsini ittiham edirik. Ermənistanın, Azərbaycanın və Gürcüstanın ərazi bütövlüyünə, müstəqilliyinə və suverenliyinə hörmət regionda sülhün yaradılması, təhlükəsizlik və əməkdaşlıq üçün əsasdır. Biz bütün dövlətləri Birləşmiş Millətlər Təşkilatının və ATƏM-in himayəsi altında mövcud problemləri həll etməyə yönəlmiş beynəlxalq səylərə qoşulmağa çağırırıq.

Brüssel Zirvə Toplantısının Bəyanatı,
11 yanvar 1994

31. Avro-Atlantik Tərəfdaşlığını gücləndirərkən, biz Qafqaz və Mərkəzi Asiyanın strateji baxımından vacib regionlarındakı Tərəfdaşlarımızla birgə işləməyə xüsusi diqqət yetirəcəyik. Bu məqsədlə, iki əlaqələndirici zabitin, o cümlədən Beynəlxalq Katibliyin tərkibindən hər iki region üzrə xüsusi nümayəndənin təyin edilməsi də daxil olmaqla, NATO təkmilləşdirilmiş əlaqələndirmə vasitələrindən istifadə etmək razılığına gəlmişdir. Biz Gürcüstan, Azərbaycan və Özbəkistanın NATO ilə Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planlarının hazırlanması ilə bağlı qərarını alqışlayırıq. Bu İttifaq ilə daha sıx Tərəfdaşlıq əlaqələrinin inkişaf etdirilməsi ilə bağlı həmin dövlətlərin səylərində əhəmiyyətli irəliləyiş təşkil edir. Biz Gürcüstanın yeni Hökumətinin islahatlar sahəsindəki öhdəliyini alqışlayırıq.

İstanbul Zirvə Toplantısının Kommunikesi,
28-29 iyun 2004

43. Biz Cənubi Qafqazda və Moldova Respublikasında regional münaqişələrin təkidlə davam etməsinə təəssüf edirik. Bizim dövlətlərimiz Ermənistanın, Azərbaycanın, Gürcüstanın və Moldovanın ərazi bütövlüyünü, müstəqilliyini və suverenliyini dəstəkləyir. Biz bu dövlətlərin cəlb olunduğu münaqişələrin sülh yolu ilə həll edilməsinə nail olmaq məqsədilə davam edən səyləri dəstəkləyirik.

Riqa Zirvə Toplantısının Bəyanatı,
28-29 noyabr 2006

43. Biz Cənubi Qafqazda və Moldova Respublikasında regional münaqişələrin təkidlə davam etməsindən narahatıq. Bizim dövlətlərimiz Ermənistanın, Azərbaycanın, Gürcüstanın və Moldovanın ərazi bütövlüyünü, müstəqilliyini və suverenliyini dəstəkləyir. Biz bu prinsiplər nəzərə alınmaqla bu regional münaqişələrin sülh yolu ilə həll edilməsi yolunda səyləri dəstəkləməkdə davam edəcəyik.

Buxarest Zirvə Toplantısının Bəyanatı,
2-4 aprel 2008

35. Biz Cənubi Qafqazda və Moldova Respublikasında regional münaqişələrin təkidlə davam etməsindən narahat qalmaqdayıq. Biz Ermənistanın, Azərbaycanın, Gürcüstanın və Moldovanın ərazi bütövlüyünü, müstəqilliyini və suverenliyini dəstəkləməkdə davam edirik. Regionun tam təhlükəsizliyi üçün münaqişələrin bu prinsiplər əsasında sülh yolu ilə həll olunmasının vacibliyi artmışdır. Biz bu məqsədlə səyləri gələcəkdə də dəstəkləyəcək və regionda narahatçılıq doğuran məsələlər üzrə bu ölkələrlə məsləhətləşmələr aparmağa hazırıq. Biz həmçinin, münaqişələrin qarşısının alınması və münaqişələrin dinc yolla həll edilməsi mexanizmlərindən tam faydalanmaq məqsədilə göstərdiyi səylərdə bu dövlətləri dəstəkləyəcəyik.

ŞAŞ-ın Xarici İşlər Nazirlərinin Yekun Kommunikesi,
2-3 dekabr 2008

58. Biz Cənubi Qafqazda və Moldova

Respublikasında uzadılmış regional münaqişələrin təkidlə davam etməsindən narahat qalmaqdayıq. Konstruktiv şəkildə münaqişələrin sülh yolu ilə həlli ilə məşğul olmaq bu regionlardakı bütün tərəflər üçün vacibdir. Biz onların hamısını regional təhlükəsizlik və sabitliyə xələl gətirə biləcək bütün addımlardan çəkinməyə və hazırkı danışıqlar formatlarına hörmət etməyə çağırırıq. Biz Ermənistanın, Azərbaycanın, Gürcüstanın və Moldova Respublikasının ərazi bütövlüyünü, müstəqilliyini və suverenliyini dəstəkləməkdə davam edir və həmçinin, bu prinsiplər nəzərə alınmaqla bu regional münaqişələrin sülh yolu ilə həll edilməsi yolunda səyləri dəstəkləməkdə davam edəcəyik. Biz ATƏT-in bu regionlarda səyləri və proseslərini alqışlayırıq və Qafqaz Sabitlik və Əməkdaşlıq Platforması bu səylərə əhəmiyyətli tamamlayıcı ola bilər.

Strasburg / Kehl Zirvə Toplantısının Bəyanatı, 3-4 aprel 2009

## İXTİSARLAR

| | |
|---|---|
| AATŞ | Avro-Atlantik Tərəfdaşlıq Şurası |
| AEBA | Atom Enerjisi üzrə Beynəlxalq Agentlik |
| AI | Avropa İttifaqı |
| AMFPK | NATO-nun Ali Mülki Fövqəladə Planlaşdırma Komitəsi |
| ANAMA | Azərbaycan Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik |
| ASMQ | Atlantik Siyasəti üzrə Məşvərətçi Qrup |
| ATƏM | Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Müşavirə |
| ATƏT | Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Təşkilat |
| BMqT | Beynəlxalq Miqrasiya Təşkilatı |
| BMTİP | BMT-nin İnkişaf Proqramı |
| CNAD | Milli Silahlanma Direktorları Konfransı |
| DSX | Azərbaycan Dövlət Sərhəd Xidməti |
| ƏİK | Əməliyyat İmkanları Konsepsiyası |
| ƏİK Q&R | Əməliyyat İmkanları Konsepsiyası, Qiymətləndirmə və Rəy |
| ƏMO | Əfqan Milli Ordusu |
| GUAM | Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat – GUAM |
| FCƏAAM | Təbii Fəlakətlərə Cavabın Əlaqələndirilməsi üzrə Avro-Atlantik Mərkəz |
| FTƏP | Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı |
| FTP | Fərdi Tərəfdaşlıq Proqramı |
| HSRK | NATO-nun Hərbi-Siyasi Rəhbər Komitəsi |
| İSAF | Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri |
| KBRN | Kimyəvi, Bioloji, Radioloji və Nüvə |
| KFOR | Kosovo Qüvvələri |
| KQS | Kütləvi Qırğın Silahları |
| KYRM | Keçmiş Yuqoslaviya Respublikası Makedoniya |
| MCÇK | NATO-nun Müasir Cəmiyyətlərə Çağırışlar Komitəsi |
| MDB | Müstəqil Dövlətlər Birliyi |
| MFP | Mülki Fövqəladə Planlaşdırma |
| MQ | Mərkəzi Qərargah |
| NAMSA | NATO Təminat və Təchizat Agentliyi |
| NATO | Şimali Atlantika Müqaviləsi Təşkilatı |
| NATO PA | NATO Parlament Assambleyası |
| NİSA | Azərbaycanda NATO Beynəlxalq Məktəbi |
| PAP | Planlaşdırma və Analiz Prosesi |
| PAP-T | Terrorizmə Qarşı Tərəfdaşlıq Fəaliyyət Planı |
| PŞ/K | Planlaşdırma Şurası and Komitəsi |
| SHÇ | Siyasi-Hərbi Çərçivə |
| SK | Siyasi Komitə |
| SMİ | Strateji Müdafiə İcmalı |
| SNT | Sülh Naminə Tərəfdaşlıq |
| SOFA | Qüvvələrin Statusu haqqında Saziş |
| ŞAƏŞ | Şimali Atlantika Əməkdaşlıq Şurası |
| ŞAŞ | Şimali Atlantika Şurası |
| TQE | Tərəfdaşlığın Qərargah Elementi |
| TTGP | SNT Təlim və Təhsilin Genişləndirilməsi Proqramı |

Azərbaycan Respublikasının NATO yanında Nümayəndəliyi
VA Building NATO HQ,
Boulevard Leopold III, 1110 – Brüssel, Belçika Krallığı
Tel.: +322/707 2797
Faks: +322/707 2798
azerbaijan@aznatomission.be
nato@mission.mfa.gov.az